

# ƏCUBƏ VƏ MƏHCUBƏNİN HEKAYƏTLƏRİ

# ƏCUBƏ VƏ MƏHCUBƏNİN HEKAYƏTLƏRİ

"Yeni Poliqrafist" MMC
BAKI - 2016

**Redaktor:** Mahmud Kamaloğlu
**Korrektor:** Nüşabə Əflatunqızı

**ƏCUBƏ VƏ MƏHCUBƏNİN HEKAYƏTLƏRİ**
Bakı, “Yeni Poliqrafist” MMC, 2016.- 190 səh.

*Bu kitab şərq xalqlarının folklorundan götürülüb, 16-cı əsrə qədərki dövrdə fars dilində yazıya alınmışdır. Həmin əsər 16-cı əsrdə Seyid Əhməd bin Həsən Bali əd-Dəvadari adlı bir nəfər tərəfindən Oğuz Türkcəsinə çevrilərək Dədə Qorqud dastanlarının bir hissəsi ilə birlikdə bir clddə yazılmışdır. Həmin kitab nə vaxtsa sirli bir şəkildə Vatikan gizli arxivinə düşmüşdür. "Kitabi-Dədə Qorqud"un elmə məlum olan iki nadir nüsxəsindən biri budur. Bu kitabın içindəki "Hekayəti lətifeyi Əcubə və Məhcubeyi zərifə" adlı bu əsər ilk dəfə orijinaldan Əflatun Hüseynoğlu (Keşəli) tərəfindən Azərbaycan türkcəsinin çağdaş yazı qaydalarına uyğunlaşdırılaraq oxuculara çatdırılır. Ümidvarıq ki, bu kitab ədəbi ictimaiyyətin diqqətini cəlb edəcək, oxucuların rəğbətini qazanacaqdır.*

**ISBN: 978-9952-8023-8-9**

© “Yeni Poliqrafist” MMC, 2016

# ÖN SÖZ ƏVƏZİ

“Kitabi-Dədə Qorqud”. Bu kitab bütün türkdilli xalqlara və avropalılara çox yaxşı tanışdır. Qədim türklərin adət-ənənələrini, yaşayış tərzlərini, həyat uğrunda mübarizələrini özündə əks etdirən bir qəhrəmanlıq dastanıdır. Bu dastan hələ XVI əsrdə adı bilinməyən bir katib tərəfindən naməlum bir nüsxədən üzü köçürülmüşdür. Əvvəlki nüsxələrdən heç bir iz-soraq qalmamış, üzü köçürülən bu tək nüsxə isə bilinməyən bir səbəblə Almaniyanın Drezden şəhərində Kral kitabxanasına düşmüşdür. “Kitabi-Dədəm Qorqud əla lisani Taifeyi Oğuzan” (Oğuz tayfasının dilində Dədəm Qorqudun kitabı) adı verilən bu əlyazma nüsxə ilk dəfə H. O. Fleyşer adlı bir alman tərəfindən aşkarlanmış və həmin adam o əsəri öz kataloquna daxil etmişdir. Daha sonra bu kitabı 1815-ci ildə Henrix Fridrix fon Diez (1751-1817) həmin kitabxanada Fleyşerin külliyyatı içindən tapmış və bu haqda məlumat Avropaya və bütün Türk dünyasına yayılmışdır. Bu nüsxə çox mükəmməl olub, 12 boy və bir müqəddimədən ibarətdir. Kitab çox yaxşı şəkildə mühafizə olunub.

Diezin məlumatından sonra italiyalı türkoloq alim Ettore Rossi (1894-1955) bu kitabın ikinci bir əlyazma nüsxəsini Vatikan kitabxanasının türk kitabları

bölməsindən tapmış və bu barədə geniş bir məqalə yazaraq, onu dünyaya tanıtmışdır.

Ancaq burada maraqlı bir məqam var ki, E. Rossinin tapdığı bu ikinci əlyazma “Hekayəti Oğuznameyi Qazan bəy və qeyri” (Qazan bəy və başqalarının Oğuznamə hekayətləri) adı altında altı boy və bir müqəddimədən ibarət olub, ya Drezden nüsxəsindən köçürülmüş, ya da onların hər ikisi naməlum bir əlyazmadan yazılmışdır. Maraqlı cəhət isə budur ki, E. Rossinin tapdığı bu Vatikan nüsxəsinin içində tək Dədə Qorqud boyları deyil, bu boylardan qabaq, kitabın əvvəlində başqa bir əsər də vardır.

Hər iki kitab Dədə Qorqud hekayələrinin hələ ki yeganə orijinal nüsxələridir. Bu kitablar elm aləminə bəlli olandan sonra istər Türkiyə və Azərbaycanda, istərsə də Avtopa ölkələrində bütün araşdırmalar, tam olduğu üçün, ancaq Drezden nüsxəsi əsasında aparılmışdır. Vatikan nüsxəsindəki Dədə Qorqud boyları isə həm yarımçıq yazıldığı üçün, həm də əvvəllər o qədər də əhəmiyyət verilmədiyinə görə düşünürük ki, Dədə Qorqud araşdırmaçılarının diqqətindən elə bil kənarda qalmışdır. Bu kitabın arxadan ikinci vərəqi də düşmüşdür.

Kitabların dili haqqında da müxtəlif ver-siyalar vardır. Drezden nüsxəsinin Azərbaycan türkcəsi, Vatikan nüsxəsinin isə Osmanlı türkcəsi ilə köçürüldüyünü söyləyənlər də var. Drezden nüsxəsinin

“Doğu Anadolu ağız özəllikləri qarışmış əski Anadolu türkcəsi”[1] olduğunu deyənlər də var. Fikrimizcə, ən düzgün sözü Türkiyə Odalar və Borsalar Birliyinin (TOBB) başqanı M. Rifat Hisarcıklıoğlu söyləmişdir: “Kitabın orijinalları Oğuz Türkcəsi anlatımı ilə Osmanlıca qələmə alınmışdır”[2]. Bunlar hər iki nüsxənin adlarında da özünü göstərir.

Hər necə olsa da, bu kitablar ümumtürk xalqının kimliyini ortaya qoyan bir şah əsərdir və bu xalqın tarixi keçmişindən xəbər verən çox dəyərli mənbədir.

Mənim məqsədim Dədə Qorqudu araşdırmaq deyildir. Bu iş, əlbəttə, ədəbiyyatçı və folklorçu alimlərin, elm adamlarının, qorqudşünasların işidir. Bir də ki, “Kitabi-Dədə Qorqud” dastanları lazımi qədər araşdırılıb, tədqiq olunmuşdur. Mən isə elm adamı filan deyiləm. Sadəcə olaraq kitab həvəskarı və bir oxucuyam. Bununla belə, yenə demək istəyirəm ki, Dədə Qorqud dastanları indiyə kimi nə qədər araşdırılıbsa, yenə də dərin tədqiqata ehtiyac vardır. Bunlar öz yerində...

Mən ədəbiyyat həvəskarı olduğum üçün tez-tez elmlə məşğul olan, eləcə də digər ziyalı dostlarımla görüşür və onlarla ədəbi-bədii söhbətlər edirəm. Bir gün belə söhbətlərimizin birində o dostlarımdan biri

---

[1] DEDE KORKUD KİTABI – Ankara 2014 (iki cilddə)
[2] Yenə orada

mənə bir kitab göstərdi. İri həcmli, iki cilddən ibarət olan bu kitab çox gözəl hazırlanmış və xüsusi bir qabın içərisində yerləşdirilmişdir. Qabın üzərində türkcə "DEDE KORKUD KİTABI" yazılıb. Mənə Azərbaycanda və Türkiyədə indiyə qədər nəşr olunan bütün Dədə Qorqud kitabları tanışdır. Ancaq bu həcmdə araşdırılması ilə birlikdə görməmişdim. Maraq məni götürdü və kitablara baxmağa başladım. 1-ci cild 840 səhifə olub, çox nəfis bir şəkildə tərtib edilmişdir. Aralarda verilmiş 20 ədəd illüstrativ miniatür şəkillər adamı heyran edir. Kitabda Dədə Qorqud hekayələrinin Drezden nüsxəsinin türk dilinə tam tərcüməsi və onun əsasında müasir türk alimlərinin fərqli araşdırmaları yer alıb. 2-ci cild 576 səhifədir. İkisi birlikdə tam 1416 səhifə...

Bəs ikinci clddə nə var?

İndiyə qədər istər Azərbaycanda, istərsə da Türkiyədə tədqiq və nəşr olunan bütün Dədə Qorqud kitabları Drezden nüsxəsi əsasında hazırlanmış və oxuculara təqdim olunmuşdur. Vatikan nüsxəsindən isə, adını çəkməkdən başqa, oxuculara demək olar ki, heç bir məlumat verilməmişdir.

Türkiyə Odalar və Borsalar Birliyinin təşkilatçılığı və bu birliyin başqanı M. Rifat Hisarcıklıoğlunun dəstəyi ilə 2014-cü ildə Ankarada nəşr olunan bu ikicildliyin 2-ci cildi Drezden və Vatikan nüsxələrinin ərəb əlifbası ilə yazılmış

orijinallarının fotosurətləridir. Bu ikicildlikdə də Vatikan nüsxəsi haqqında ancaq bir-iki ümumi cümlə yazılmışdır, vəssalam...

Ərəb əlifbasını oxuya bilməyim mənim köməyimə çatdı və gördüm ki mən bunu oxuya bilərəm.

Təbii ki, 1-ci cildi çox diqqətlə nəzərdən keçirdim. Kitabın çox gözəl və zövqlə hazırlanmasına söz ola bilməz. 2-ci cild Drezden və Vatikan nüsxələrinin fotosurətləridir və çox gözəl tərtib edilmişdir. Belə bir iş ilk təşəbbüs olduğundan, bu kitabı hazırlayanlara dərindən təşəkkür edirəm! Dədə Qorqud kitabının orijinalı, tarixində ilk dəfə nəşr olunaraq öz xalqına çatdırılır!

Kitabın 2-ci cildini başdan axıra kimi səbirlə oxudum. Kitabın 2-ci hissəsindəki Vatikan nüsxəsinin əvvəlində verilmiş başqa bir əsərə ilk dəfə rast gəldiyim üçün daha çox marağımı cəlb elədi. Əsər "Hekayəti lətifeyi Əcubə və Məhcubeyi-zərifə" (Əcubə və Məhcubənin incə və zərif hekayətləri) adlanır və Dədə Qorqud hekayələrinin bir hissəsi ilə birlikdə hicri tarixlə 918-ci ildə (miladi hesabla 1512-1513-cü illərdə) "Sidqi" təxəllüslü Seyyid Əhməd bin Həsən Bali adlı bir nəfər tərəfindən yazılmışdır. Bu adam milliyyətcə türk olub, o zamanlar Misirin Qahirə şəhərində yaşamışdır. Bundan artıq onun haqqında heç bir məlumat bizə gəlib çatmamışdır.

Əsərin gözəlliyi və şirinliyi məni valeh eylədi. Ancaq internet saytlarından və digər mənbələrdən araşdırmalarım bu əsər haqqında mənə heç bir məlumat vermədi. Əsərin elm adamlarının və folklorşünasların nəzərindən nə üçün yayındığı da mənə qaranlıq qaldı. Bəlkə də kim tərəfindənsə araşdırılıb, ancaq mənə rast gəlmədi. Sadəcə olaraq, belə bir əsərin varlığı haqqında bir neçə qısa cümlədən ibarət olan məlumatlarla rastlaşdım, vəssalam. Bunun üçün də bu əsəri əski yazıdan tərcümə edib, bu günkü dillə azərbaycanlı oxuculara çatdırmaq fikrim-dən keçdi.

Nəhayət, bu işə qərar verdim. Lakin bir çox çətinliklərlə qarşılaşdım. Əsəri qələmə alan katib öz giriş sözündə qeyd edir ki, o, bu əsəri köhnə fars dilindən türkcəyə tərcümə edib. Ancaq bu "türkcə" XVI əsrdə işlənən ədəbi türk dilidir. Bu dil ərəb, fars və qədim türk sözlərinin qarışığından ibarət olub, çox çətin anlaşılandır. Bu günkü hər hansı sadə azərbaycanlı və yaxud türk oxucusu bu əsərin orijinalındakıları başa düşməkdə çətinlik çəkərlər.

Əsərin tərcüməsi üzərində işləyərkən bir neçə lüğət kitabından və dini əsərlərdən istifadə eylədim. Zənnimcə çox maraqlı olan bu əsər oxucuların da diqqətini cəlb edəcək. Çünki, əsər dini ruhda yazılıb və maraqlı hekayətlər yolu ilə hər səviyyədən olan oxucular üçün öyüd-nəsihət kitabı olaraq nəzərdə tutulmuşdur.

Doğrudur, bu əsərin "Kitabi Dədə Qorqud" dastanları ilə heç bir əlaqəsi yoxdur. Bəlkə elə bu səbəbə görə qorqudşünaslar ona o qədər də əhəmiyyət verməmişlər.

"Əcubə və Məhcubənin hekayətləri" şərq xalqlarının ibrətamiz hekayətlərindən ibarət bir əsərdir. Bu əsərdə verilmiş ayrı-ayrı hekayətlərin heç biri digərini tamamlamır. Hər bir hekayət ayrıca bir çox dəyərli ibrətamiz nəsihətdir ki, onlar elə bu günün özündə də heç vaxt öz əhəmiyyətini itirməmişdir.

Hörmətli oxucular, bu kitabda verilmiş şərq xalqlarının nəsihət yollu hekayətlərinin bəzilərinə başqa kitablarda da rast gəlmək olar. Məsələn; altıncı babda "Əmanətin qorunması" başlığı altında Əcubə və Məhcubənin dilindən verilmiş hekayətlər buna misaldır.

Kitabın əvvəlindəki münacat xarakterli yazını bu günkü oxucular üçün əhəmiyyətsiz hesab edərək ixtisar eylədim. Ümumi məzmununu isə başda bir neçə cümlə ilə verməklə kifayətləndim. Əgər gələcəkdə hansısa bir tədqiqatçı alim bu əsəri daha dolğun və geniş formada tərcümə edib nəşr etdirəcəksə, bəri başdan ona da öz dərin təşəkkürümü bildirirəm!

Bu kitabı orijinalına uyğun olaraq "Əcubə və Məhcubənin hekayətləri" adı altında tərtib edib oxuculara təqdim edirik. Ümidvaram ki, geniş oxucu kütləsi və elmlə məşğul olanlar üçün maraqlı olacaq.

Fikrimizcə, arxivlərdə və qədim kitabxanalarda bu cür əlyazma kitablar çoxdur. Xalqımızın tarixi keçmişini, mədəniyyətini və adət-ənənələrini özündə əks etdirən neçə belə kitablar hələ kitabxanalar küncündə öz araşdırıcısını gözləyir. Onlar çox qiymətli xəzinələrdir. Keçmiş əsrlərdəki yazarlarımızın zəhmətlərinə hörmət əlaməti olaraq onları üzə çıxarıb nəşr etdirərək, yenidən xalqın malına çevirmək lazımdır. Çünki onlar dədə-babalarımızdan qalmış mirasdır və bizimdir. Biz də onlara sahib çıxmalıyıq. Oxucuların nəzərinə onu da çatdırmaq istəyirəm ki, mən peşəkar bir tərcüməçi deyiləm. Sadəcə olaraq, kitab oxumağa çox həvəsli bir adamam. Klassik ədəbiyyata meylim daha güclüdür. Belə kitabların müasir Azərbaycan dilində nəşr oldunğunu görmək məni çox sevindirir. Ona görə də istədim ki, bu kitab xalqın malı olsun. Bu tərcümə ilk təcrübəm olduğu üçün yəqin ki qüsurlardan da xali deyildir. Dəyərli və diqqətli oxuculardan belə qüsurlarımın bağışlanmasını xahiş edirəm. Bütün oxuculara könül açıqlığı ilə xoş mütaliə arzulayıram. Dədəm Qorqud demişkən, Allah bizləri axır sonu arı imandan ayırmasın!

**Əflatun Hüseynoğlu Keşəli**

## ƏCÜBƏ VƏ MƏCÜBƏNİN HEKAYƏTİ

Bu kitabı fars dilindən türkcəyə tərcümə edən böyük alim “Sidqi” təxəllüslü Seyyid Əhməd bin Həsən Bali, bütün mövcudatın əşrəfi olan Adəmin vücudunu “Kamal” sifəti ilə yaradan və ona peyğəmbərlik verən, onu hər bir sifəti ilə kamilliyə çatdıran və peyğəmbərlik vəzifəsini həzrəti Məhəmməddə (Allahın salamı üzərinə olsun) sona çatdıran, ona həzrəti Əbu Bəkr, Ömər, Osman və Əli (Allah üzlərini nurlandırsın) kimi dörd gözəl insanı dost eyləyən Allahu-Təalaya hədsiz həmdü-səna və salavat gətirdikdən sonra belə deyir:

İstədim məliklər tarixindən və qədim xəbərlərdən bir kitab yazam ki, hər səviyyədən olan insanlar ondan bəhrələnələr. Məliklər və sultanlar da onun istifadəsindən xoşhal olalar. Bu sevdada düşüncə və fikir atına süvar olub, ətraf aləmi mərifətlə kəşt edib, şeyxlərin və Əcəm yazarlarının yazılarını ətraflı öyrənib, bəzisini işləməyə layiq görmədim. Bəzisini isə artıq tərcümə olunmuş gördüm. Bu əsnada təsadüfən bir kitab əlimə keçdi. Gördüm ki, bu kitab çox gözəl sözlər və bəlağətli rəvayətlərlə doqquz bab[3] üzərinə tərtib olunmuş, hədsiz faydalar və saysız lətifələr dərc olunmuşdur. Bu kitaba “Əcubə və Məhcubə” deyə ad verilmişdir. Mən nələri düşünürdümsə, hamısını o

---

[3] Bab – Fəsil, hissə, bölüm

kitabda mövcud gördüm. Belə münasib gördüm ki, həmin kitabı fars dilindən türk dilinə tərcümə eyləyim. Tədbirli və ağıllı fikir əhli ilə bu haqda məşvərət edib, onlardan savaba nail olacaq rəy barədə kömək istədim. Ağıl sahibləri yol göstərib, məsləhət verib dedilər ki, bu elə bir işdir ki, nəticəsi axirət üçün ən gözəl savabdır. O halda bu dünyanı da çaş-baş qoymayasan. Qədimlərin adəti üzərinə kitabın əsasını səadət sahibi bir şahzadənin şərəfli adına qoyasan. Ta onun gözəl bir tale ilə tamamlanması müyəssər ola. Həm də o mübarək adın şərəfiylə bu kitab da aləm xalqı içərisində şərəfli olar. Bu müzakirə onlarla oldu. Mən də dedim ki, o səadət sahibi şahzadə ki dediniz, bu zamanda həzrəti şahənşahi-aləm, Adəm övladının himayəçisi Xosrov Keyti kimi layiqli əmrlər verən şəhriyar, Süleyman Sərir kimi adil məlik olan xaqan, İskəndər kimi cahangir, Ali Osman nəslindən olan sultan Aləmşah sultan Bəyazid xan oğludur. Səltənəti əmin və ömrü uzun olsun. Aləm mülkünün pənahı, kamil insan və Allahın yaratdığı bu cahanda ədalətli sultandır. Mən aciz duaçı da o cahangir şahzadənin bütün varlığımla havadarı olduğumdan bu məcmuəni onun şərəfli adına yazdım. Ta ki, oxumaq şərəfinə yetişdikdə qəbul oluna. Ümidvaram ki, o cahan şahı uyğun qayğı nəzəri ilə baxar və mən də şaha layiq mərhəmətinə nail olaram. Bu məcmuəyə mən də "Əcubə və Məhcubə" deyə ad verdim. Bacarıq və müvəffəqiyyət Allahdandır.

# "ƏCUBƏ VƏ MƏHCUBƏ" DASTANININ BAŞLANMASI

Xəbərlər dənizinin gəmiçiləri və sirlər diyarının səyyahları belə rəvayət etmişlərdir ki, qədim zamanlarda Əcəm şəhərində Cəm[4] nəslindən bir padşah var idi. Ölkə idarəsində onun tayı-bərabəri yox idi. Səltənət qanunlarında nöqsansız idi. Məmləkəti çox böyük, qoşununun sayı-hesabı yox idi. Məliklər məliyinin xasiyyətində və Asəf padşah kimi gözəl fikirli idi. Ədaləti əsirgəməməkdə Ənuşirəvan, hikmət elmində Loğman və Süleyman kimi idi. Onun adına Səmmah deyirlərdi. Onun mülayim xasiyyətli gözəl və əliaçıq, xoş görkəmli saçları yasəmən ətirli, çox gözəl əndamlı, mələk mənzər, ay üzlü, günəş surətli, düzgün rəftarlı, şirin sözlü, gülbədən və ürək rahatlığı verən, könül alanlara mail və hər zaman qəlb təmizliyi onların birləşməsinə doğru hərəkət edən və söhbəti eyibsiz xasiyyətinə münasib adamları var idi. Heç vaxt onların gözəl söhbətlərindən uzaq olmazdı. Təsadüfən bir gün Rum və Misir tərəfindən bir bəzirgan xeyli gözəl üzlü qulamlar və çoxlu qiymətli mətahlar, qədəri və dəyəri ölçüyə gəlməz cəvahirlər və cürbəcür bahalı əşyalar ilə o şəhərə gəldi. Elə ki şah Səmmah onun gəlişindən xəbərdar oldu, öz adamlarından bir neçəsinə əmr eylədi

---

[4] Cəm - Cəmşidi-Cəm. Əfsanəvi İran şahı

ki, gedib bəzirganı şahın məclisinə dəvət etsinlər. Bəzirgan şaha layiq xonça hazırladı və çoxlu hədiyyələr götürüb şah dərgahına üz tutdu. Padşahın hüzurunda baş endirib, dua-səna eylədi. Ona yer göstərdilər, oturdu. Padşah da ehtişam və dəbdəbə ilə, xoş rəğbət və mülayim şahanəylə xalça üzərində oturduqdan sonra dedi:

- Ey xacə, səni buraya çağırmaqda bizim məqsədimiz odur ki, güləndam və könül açan, ulduza bənzər, günəş üzlü o kənizlərindən gətirəsən, baxaq. Könlümüzə yatan olarsa, alarıq.

Bəzirgan şahın önündə yer öpüb, hər nəyə ki malikəm, şahın hüzurunda hazır edərəm – deyib, nə qədər kənizləri var idisə, hamısını şahın qarşısına gətirdi. Şah onlara nəzər eylədi. Ancaq heç birisini münasib və müvafiq görmədi. Məlik buyurdu ki, biz üz gözəlliyi aydın olmayan kənizlərin əlindən tutmarıq. Bəlkə bu sifətlər birində cəm olunduğunu istərik ki, gözəl surətli və həyat bəxş edici sifət onda bəzənmiş, incəlikdə, gözəllikdə, təravətdə, şirinlikdə və fərasətdə müəyyən oluna. Xülasə, eləsi ola ki, aləmdə tayı-bərabəri olmaya.

Bəzirgan cavab verib dedi:

-Haqq-Təala Şam dövlətinin səltənətini əbədi eyləsin. Onun kimi gözəl mətləb ki, şah tələb edər, bu cür gözəlliyi gecə-gündüz min göz ilə görməyi arzu edər, belə bir nazənin gözələ baxmağa həvəs eylər, mən

kiməm ki, məlikin hüzurunda onun kimi gözəl aləmdən nişan verəm. Bu simada olan bir adamı mən nə gördüm və nə də eşitdim. Ancaq Misir şəhərində, Əzizin hərəmində iki kəniz var ki, gözəl surət ilə məşhur olan, hər qabiliyyətdə kamil və bütün aləmdə məşhur, təravət və şirinlikdə yeganədirlər. Söhbətə və qarşılaşmaya girsələr min Söhban və Həssan[5] onların mübahisəsində aciz qalarlar. Əgər hekayətlər və rəvayətlər söyləsələr, dünyanın ən bəlağətli və gözəl danışanları onların yanında qüsurlu olarlar. Əzizin göz çırağı onların nuru ilə işıqlı və gözəl çöhrəsi o gül çöhrələrlə gülşən olur. Günlərini onların söhbətində keçirir. Bir an da olsun onlardan ayrılmaz. Onlara Əcubə[6] və Məhcubə[7] deyə ad vermişlər.

Məlik Səmmah elə ki Əcubə və Məhcubənin gözəl vəsflərini təfsilatı ilə eşitdi, yüz canü-dillə onlara aşiq olub, həvəs etdi ki onlar bura gələ və ona xidmətçi və yaxın olalar. Şah onlar barədə eşitdiyi həmin o

---

[5] Hz. Peyğəmbərin səhabələri və şairləri

[6] Əcubə (اعجوبه)- ərəb dilində qadın cinsinə aid "qulyabanı, cadugər, xəyali varlıq" mənalarını verən bir sözdür. Burada "çoxbilmiş" mənasındadır.

[7] Məhcubə (محجوبه) - ərəb dilində "utancaq, həyalı qadın" deməkdir. Bu iki ad bir-birinə zidd sifətlərdir. Əsəri tərtib edən onları bir yerə gətirməklə maraqlı bir ədəbi priyom işlətmişdir. Şah bütün sualları Əcubəyə verir, son sözü isə Məhcubə deyir. Şahın Əcubəyə, Əcubənin də Məhcubəyə: "Necədir o hekayət?" demələri oxucuda maraq doğurur. Ümumiyyətlə, əsərdə şah Səmmah, Əcubə və Məhcubə surətləri maraqlı qurulmuşdur.

gündən sonra heç vaxt o qızları yadından çıxara bilmədi. Hey onlardan söhbət saldı. Məlik öz yaxınları ilə daim onlar haqqında söhbətini tez-tez təkrar edərdi.

Bir gün vəzirinə dedi:

-Əcubə və Məhcubəni buraya gətirmək üçün bir tədbir gör. Çünki, onlar mənim heç yadımdan çıxmır. Baxmayaraq ki bunları Əzizin hərəmindən çıxarmaq çətin və mümkünsüz görünür, lakin hər halda cəhd eləmək lazımdır.

Vəzir cavab verib dedi:

-Bu məqsədə ancaq məkr və hiylədən başqa bir şeylə çatmaq olmaz. Çünki, bütün aləmin xəzinəsini cəm edib onlara qiymət üçün Əzizə verilsə, onların bir tükünü də verməz. Əcubə və Məhcubəni bu qədər zəka və ağıl ilə aldatmaq da mümkün deyildir. Bu işin öhdəsindən gəlmək üçün bir məkrli və hiyləgər adam lazımdır ki, ağlın gücü və gözəl tədbir sayəsində onları əldə edə bilə. Bu işə güc yetirə bilən bir nəfər dostum vardır. Adına Teyfur deyərlər. Bir gözəl cavan və hər kəs tərəfindən sevilən mərd birisidir. Hər işdən baş çıxaran və xoş talelidir. Mənə də çox bağlı, sədaqətli adamdır. Çox ölkələr gəzmiş və çox elmlərə sahib olmuşdur. Belə ki, mehribanlıq əldə etməyin üsulunu və əksini, kəlam və hikmət elmlərini layiqincə öyrənmişdir. Bir çox dildə danışa bilir. Bu əməli onun kimi ağıllı bir insan bacara bilər. Əgər etiraz eyləməyib qəbul edərsə, məqsəd hasil olar.

Məlik dərhal Teyfuru onun yanına gətirməyə adam göndərdi. Teyfur elə ki şahın hüzuruna gəldi, o ali məqamda yeri öpmək xidmətini yerinə yetirib, dərhal şahın tərifinə layiq bədahətən bir qəsidə oxuyub, bir neçə xoş sözlərlə şahı mədh eylədi. Bununla da ədəb qaydalarına əməl edib, bəndəlik vəzifəsini yerinə yetirdi. Məlik Səmmah Teyfuru dinlədi. Sonra ona yemək ikram etdikdən sonra Əcubə və Məhcubənin haqqında eşitdiklərini söyləyib, onları əldə etmək istədiyini bildirdi və buyurdu:

-Ey Teyfur, sənin zəka və qabiliyyətin, bacarıq və fərasətin mənim yanımda tam təsdiq olundu. Bu məqsədin yerinə yetirilməsində sənin məsləhətinə və savabına möhtacam. Bu saat Misir diyarına gedib, ağıllı və işıqlı bir yol ilə, necə olursa olsun, o iki nazənin, ürəkləri ələ alan qızları bu aşiqi-dildadəyə yetirməyə çarə eylə.

Teyfur qulluq məqamında baş endirib, itaət kəmərini belinə bağladı, sədaqətlə və yüksək səylə bu işin öhdəsindən gəlməyə söz verdi.

Məlik Səmmah əmr eylədi, bir neçə at və dəvə hazır edib, növbənöv mal aldırdı. Çoxlu pul verib Teyfuru Misir tərəfə yola saldılar. Elə ki o, Misirə yetişdi, tacirlərin adəti üzrə bir karvansarayda yerləşdi. Bir neçə gün dincəlib, rahatlandıqdan sonra şəhərə çıxıb gündə bir səmti seyr edərdi. Müxtəlif təbəqədən olan insanlarla söhbət etməyə başladı. Hər adamın

təbiətinə uyğun gözəl sözlər söyləyib, hər kəsin xasiyyətinə uyğun şəkildə danışardı. Belə ki, elm əhli və sadə insanlar cani-dillə onu diqqətlə dinləyib, məftun oldular. Axır ki, Teyfurun belə gözəl qabiliyyəti və xoş söhbətcil olduğunu Əzizi-Misrə xəbər verdilər. İş o yerə çatdı ki, Teyfuru eyş-işrət və kef məclislərinə dəvət eylədilər. Nəhayət,Teyfur Əzizə yaxınlıq əldə edə bildi. O saat o qədər gözəl hekayətlər və gözəl şerlər oxudu ki, Əzizi-Misir o sözlərin şirinliyinin ləzzətindən musiqiçiləri tərk edib, o gözəl sözləri dinləməyə başladı. Axırda şah ona mükafat olaraq əynindəki libaslarından daha bahalı xələtlər verib buyurdu ki, həmişə bizim məclislərimizdə iştirak eylə. Ta ki sənin faydalı elmindən bəhrələnək və insana şövq verən söhbətlərindən ləzzət alaq.

Teyfur həmin dəqiqə Əzizin önündə baş endirdi və yer öpərək dedi:

-Həzrəti Əzizin fərmanına müti və xidmətinə canu-dil ilə boyun əyib, qüdrətli dövlətinə üz sürtməyə çalışaram.

Beləliklə, bu yolda gecə-gündüz Əzizin xidmətinə davam edib, məclislərində iştirak etməyə başladı. Öz söhbətlərini o dərəcəyə çatdırdı ki, Əzizi-Misiri özünün hünərlərinə tabe etdi. Belə ki, padşah bir an və bir saat onun söhbəti olmasa bir yerdə durub, səbrü-qərar etməzdi. Axırda iş o yerə çatdı ki, Teyfur Əzizi-Misirin xüsusi hərəminə yol tapdı. O vaxt ki

Əcubə və Məhcubə Əzizin hüzurunda gözəl kəlmələr və ibrətli lətifələrlə söhbət edərdilər. Teyfur onların hər birinə gözəl hekayələr və məzmunlu şerlərlə cavab verirdi. Nəhayət, onlar üzərində qələbə çaldıqdan sonra Əzizi-Misir hüzurunda ədəb qaydalarına əməl edib, Əcubə və Məhcubəyə arxa çevirib, üzü Əzizə qarşı otururdu. Heç gözünün ucu ilə də qızlara baxmazdı. Bir müddət bu yolla davam edib, tamam dərrakə və hiylə ilə o fikri ki xatirində var idi, tənbəllik eləməyib, iki dənə yel kimi bərk qaçan dəvə aldı ki, onlar qaçarkən səba yeli onlara çata bilməzdi. Şəhərdən kənarda on fərsəx[8] aralı bir yerdə bir karvansaray tapıb, öz adamlarından birini o karvansarayda qoydu. O iki div görkəmli dəvələri həmin karvansarayda gündə bir dəfə yem verib, yenə şəhərə qaytarıb, ayaqlarına qandal vururdu. Heç vaxt şəhərdə onlara yem verməzdi. Bir neçə vaxt bu adətinə davam eylədi. Ta ki, dəvələr belə öyrəşdilər ki, nə vaxt Teyfur onların ayaqlarından qandalları açsa, dərhal baş götürüb o karvansaraydan yola çıxıb, bir göz qırpımında o biri karvansaraya qədər sürətlə qaçardılar.

Teyfur öz adamlarına bir gün yalandan dedi ki, ticarət üçün iki gözəl kəniz satın almışam. Amma yaman dəcəldilər, qorxuram ki onlar qaça bilərlər. Onları bu dəvələrə mindirib sizə göndərəcəyəm. Diqqət

---

[8] Fərsəx – Uzunluq ölçüsü vahidi

və ehtiyatla onları bağlayıb mənim gəlməyimi gözləyərsiniz. Teyfur yel qanadlı dəvələrini yenə şəhərə gətirdi. Əvvəlki adətinə uyğun olaraq ayaqlarına qandal vurdu. Ta yem vaxtına kimi onları ac saxladı. Elə ki dəvələr acdılar və narahat olub, səbirsizlik eyləməyə başladılar. Əgər bağlı ayaqları açılsa idi, dərhal o karvansaraya yem üçün qaçacaqdılar.

Teyfur hər şeyi hazır etmişdi. Fürsət gözləyirdi. Nəhayət, bir gün gördü ki Əziz ov etmək üçün ata minib səhraya doğru üz tutdu. Teyfur həmən o yel qanadlı dəvələri hazır edib, Əzizə məxsus hərəmə gəldi. Əcubə və Məhcubəyə dedi ki, Əziz filan bağda eyşü-işrət üçün hazırlaşıb, kef etməyə başlamışdır. Orada səbirsizliklə sizi gözləyir. Mənə çox inandığından sizi aparmaq üçün məni göndərdi. Əmrə itaət gərəkdir. Padşahın kefinin qaçmaması üçün tələsmək lazımdır.

Əcubə və Məhcubə o adamın Əzizin yaxın dostu olduğunu bilirdilər. Ona görə də əmrə itaət edib getməyə razı oldular. Heç nədən şübhə etmədən çadraya bürünüb hücrədən çölə çıxdılar. Teyfur o iki ay üzlü pərini iki yel qanadlı, divə bənzər dəvələrə mindirib yola saldı. Yel qanadlı dəvələr qəfəsdən çıxmış quşlar kimi yerlərindən tərpənib sürətlə yem üçün bir anda o karvansaraya yetişib, Əcubə və Məhcubəni Teyfurun adamına çatdırdılar. Teyfurun adamı o iki gözəl kənizi dərhal dəvələrdən endirib, əl-

ayaqlarını möhkəm bağladı və Teyfuru gözləməyə başladı.

Əziz şikardan dönüb sarayına gəldi. Teyfur əvvəlki adəti ilə xidmət kəmərini belinə bağlayıb Əzizin atının qarşısında durdu. Gözəl və bəlağətli sözlərlə maraqlı əfsanələrə başlayıb, gülməli məzhəkələr söylədi. Əzizin bu sözlərdən könlü açıldı, sevinc və nəşəsi artdı. Buyurdu ki, Əcubə və Məhcubə gəlsinlər, sənin bu sözlərinə cavab versinlər. Qulluqçular saraydakı bütün otaqları axtardılar, ancaq onları “gördüm” deyən olmadı. Bu hadisədən Əzizin halı pərişan oldu və özündən getdi. Onların ayrılığına dözə bilməyib elə nalə çəkdi, elə ah-zar etdi ki, sədası asimana qalxdı. Teyfur Əzizin bu ah-naləsini görüb özünü qəmgin göstərərək, məhzun bir səslə aram-aram söyləməyə başladı. O qədər maraqlı sözlər danışdı ki, Əzizin ah-fəğanı bir qədər azaldı. Bundan sonra Teyfur dedi:

-Dövlətli məliyimizin ömrü əbədi olsun. Əcubə və Məhcubə doğrudan çox qiymətli kənizlər idi. Amma kim bilir ki qorxaq hiyləgərlər bunları necə məkr və hiylə ilə aldatdılar ki, bu cür işə cürət edib sənin kimi padşahın xidmətindən qaçmağı rəva gördülər. Necə ki demişlər: “Qüsurlu ağıla etibar yoxdur”.

Əziz dedi:

-Bu qədər fərasət və ağıl sahibi olan Əcubə və Məhcubədən heç vaxt belə bir xəyanət gözləməzdim.

Görünür hansısa bir əclafın hiyləsinə uyub, onun fitnəsinə düşdülər.

Teyfur dedi:

-Necə ki məliklər məliyi buyurur, onlar bu qədər ağıl və zəka ilə heç kimsənin hiyləsinə aldanmamalı idilər. Amma nə etmək olar? Aldanmaq Allah tərəfindən insan alnına yazılmışdır. Arvadların yaradılışı sol tərəfdəndir və bunlarda əhdü-vəfa və sədaqət səfası olmaz. Əzizin könlü bunlar üçün pərişan olmağa layiq deyildir.

Teyfur bu cür sözlərdən o qədər söylədi ki, nəhayət Əzizin könlünü ələ aldı. O, Əzizə nəvazişdə heç qüsur eyləməyib, xidməti əvvəlkindən də artıq dərəcədə yerinə yetirdi. Ta ki, Əziz o kənizlərin tapılmasından ümidini tam üzdü. Ölkənin idarəçiliyi ilə məşğul olmağa başladı. Beləliklə, o iki kənizi tamamilə yaddan çıxartdı.

Artıq Əzizdən arxayın olan Teyfur bir gün durub qızları gizlətdiyi karvansaraya gəldi. Əcubə və Məhcubəni də götürüb Əcəm diyarına doğru yola düşdü. Bir müddət sonra gəlib Əcəmə yetişdi.

Məlik Səmmah elə ki, Əcubə və Məhcubənin gətirilməsindən xəbərdar oldu, buyurdu:

-Simü-zərdən hədiyyəlik bağlamalar düzəldin. Müxtəlif növ cəvahirlər hazırlayın. Bir neçə seçilmiş dəvələri zər-zivərlə bəzəyib, çoxlu qiymətli xələtlər və seçmə atları Teyfura göndərin!

Məlik Səmmahın əmri yerinə yetirildi. Teyfur Əcubə və Məhcubəni tam hörmət-izzətlə dəvələrə mindirib, özü də məliyin göndərdiyi qiymətli libaslardan geyinib, bir kəhər ata minərək şəhərə doğru yola düşdü. Məlik Səmmahın əmri ilə əsgərlər də atlanıb, şəhərin kənarında onları qarşılamağa çıxdılar. Teyfuru və kənizləri təm-təraqla şəhərə gətirib şahın dövlətxanasına çatdırdılar. Teyfur gəlib şahın əlini öpdü. Məlik Səmmah Teyfuru bütün məliklərə başçı təyin edib, özünə köməkçi naib eylədi. Bütün əyanlara göstəriş verdi ki, ona itaətdə nöqsan eyləməsinlər. Ondan sonra məlik Səmmah belə bir əmr verdi ki, ölkənin idarə məsələlərini bitirdikdən sonra Əcubə və Məhcubəyə tapşırılsın ki, qızlar hər gün bir ibrətli hekayət və maraqlı rəvayət söyləsinlər. Əvvəlcə Əcubə bir hekayət danışsın, Məhcubə də o mövzuda hala münasib cavab versin.

Bu kitab onların söylədikləri həmin hekayətlər əsasında yazılıb, doqquz babda tərtib olunmuşdur. Ta ki tədqiqatçılar və nəzarətçilər bu söhbətlərin mənasını ətraflıca düşünüb, bir çox faydalardan öz nəsiblərini alalar. Yol göstərən və yardım edən Allahdır.

Birinci bab ------------ Ədalət və insafın sifətləri
İkinci bab -------------- Mülayimlik və ciddiliyin sifətləri
Üçüncü bab ------------ Araşdırma və yoxlamadan sonra siyasətdə oturma
Dördüncü bab --------- İgidlik və sözdən dönməmənin mədhi
Beşinci bab ------------ Səxavət və comərdliyin bəyanı
Altıncı bab ------------- Əmanətin qorunmasının mədhi
Yeddinci bab ---------- Qadınların sirr saxlaya bilməmələri
Səkkizinci bab -------- Qısqanclıq və paxıllığın rədd edilməsi
Doqquzuncu bab ------ Pis adamların söhbətindən uzaqlaşmaq

# BİRİNCİ BAB
## Ədalət və insafın sifətləri

Elə ki şah Səmmah səltənət taxtında oturub, dövlət işlərini yerinə yetirdi. Ondan sonra yenə xüsusi hücrəsinə gəlib nəfsinin istəyiylə məşğul oldu. Sonra da Əcubə və Məhcubənin söhbət və danışıqlarından həzz alaraq soruşdu:

-O nədir ki, dövlətin davamına və qəzəbin sabitliyinə səbəb olar və hansı xasiyyətdir ki, onunla məmləkət möhkəmləndirilmiş olar?

Əcubə dedi:

-Şahın dövləti əbədi olsun. Dövlətin daimiliyi insaf ilə möhkəmlənər və səltənət taxtı ədalət ilə əbədidir. Demişlərdir ki, məliklərin xasiyyətlərində ədalətdən şərəflisi yoxdur. Çünki, ədalətin bərəkətinin nəticəsi cahanda yayılmış və onun ləzzətinin faydasından hər kəs xeyir görmüşdür. Məliklərdən hər kimsəyə ki düzgün mülk və əbədi dövlət gərəkdir, labüddür ki insaf qaydasını əldən qoymayıb, ədalət yolu ilə gedib, əmin-amanlıq yarada. Ədalət dövləti daimi edər, zülm isə yıxıb dağıdar. Mənim bu sözlərimin şahidi o iki şahzadə hekayətidir ki, birisi zülm və əziyyət yolunda olub can mülkündən ayrıldı. O birisi isə ədalət və insaf taxtında oturub, cahan mülkünü hakimiyyətinə aldı.

Məlik Səmmah soruşdu ki, necədir o hekayət?

Əcubə dedi:

**Ədalət və insaf haqqında Əcubənin hekayəti**

Hekayət söyləyənlər belə nəql etmişlərdir ki, iki şahzadə bir diyarda səltənətdə oturub, ətraf mülkləri öz aralarında bölüşdürmüşdülər. Hər birisi bir mülkün səltənət taxtında əyləşib hökm edərlərdi. Böyük qardaş öz hissəsi olan vilayətdə cövrü-cəfa və zülmə başlayıb, xalqı əzaba mübtəla eyləmişdi. Kiçik qardaş isə ədalət və insaf tərəfə üz tutub, öz məmləkətini ədalət və insafla abad etmişdi. Rəiyyət onun ədalət və insafı sayəsində asudə olub bolluq içində, firəvan yaşayırdılar. Bir gün onların mülklərinə güclü bir düşmən hücum etdi. Onlar da məcbur olub müharibə hazırlığı görməyə başladılar. O iki qardaş bir-birinə kömək edib, istədilər ki qoşuna bol mallar və qazanc verməklə müharibəyə cəlb edələr. Hesablayıb gördülər ki, onların xəzinəsindəki pullar bütün qoşuna yetməyəcək. O şəhərdə bir qərib və zəngin bəzirgan var idi. Var-dövləti bol və malı hədsiz idi. Zalım məlik olan böyük qardaş onu gətirdib dedi ki, nə qədər malın varsa onun bir hissəsini bizə ver, qoşuna xərcləyək. İnşaallah, məqsədimizə çatıb, qələbə çaldıqdan sonra o malı geri qaytararıq. Bəzirgan bu təklifə qəti etiraz eylədi. Ədalətli qardaş dedi ki, bu cür xoşagəlməz hərəkətdən uzaq olmaq lazımdır. Çünki, ondan bir neçə zərər əmələ gələr: bu diyardan tacirlər uzaqlaşar, ticarət yolu bağlanar. Ölkədə ziyanlıq üzə çıxar və zahir olur. Zalım

məlik bu sözə əhəmiyyət verməyib bəzirganın mal verməsi üçün israr etdi. Bəzirgan məliyin israrını qəti rədd elədi. Zalım məlik məsələni daha da böyüdüb dedi ki, əgər mənim istədiyim kimi malı gətirməsən, əmr edərəm səni öldürüb, var-dövlətini də talan edərlər. Tacir yenə də onun sözlərini inadla rədd elədi. Zalım məlik qəzəblənib, qılıncını siyirib bəzirganı vurmaq istəyəndə ədalətli şahzadə cəld ortaya girib, özünü qılınca qarşı qoydu. Qılınc enib şahzadının əlinə toxundu və bir barmağını kəsib yerə saldı. Bu halı ilə adil şahzadə acılar içində bəzirganın əlindən tutub öz otağına apardı və ona dedi:

-İndi mal-dövlətini yığışdır və bu diyardan çıx get ki, başın salamat olsun.

Beləliklə, o iki qardaş düşmənə qarşı durdular. Düşmən qoşunu sayca çox idi. Həm də yaxşı silahlanmışdılar. Düşmən bir hücumda şahzadələrin qoşununu darmadağın etdi. Zalım şahı da qətlə yetirdilər. Adil şahzadə çarəsiz qalıb qaçmaq məcburiyyətində qaldı. Bir qədər getdikdən sonra atı yolda yıxılıb öldü. Şahzadə payi-piyada yola düşüb getdi. Bir xeyli müddət uzaq və yad şəhərlərdə dolaşdı. Bir gün bir dövlətli adamın qapısına gəlib, ac olduğunu onlara söylədi. Gözəl bir kəniz çölə çıxıb xacənin xüsusi mətbəxindən müxtəlif yeməklər gətirib ona verdi və dedi:

-Hər gün quşluq[9] vaxtında buraya gələrsən. Sənə yeməklər verərəm.

Məlik Nərah bir neçə gün bu qayda ilə oraya getdi. Axırda cariyə şahzadəyə aşiq olub, dəlicəsinə ona vuruldu. Şahzadə öz dininə sədaqət göstərib, Haqqın ətəyindən tutaraq kənizin xahişinə itaət göstərmədi. Kəniz şahzadənin ona meyl etmədiyini görcək qəlbində ona qarşı kin-küdurət yarandı və düşündü ki, mərhəmət yolunda vəfamı aradan qaldırıb onun başına elə bir oyun açım ki, bütün naz edənlərə ibrət olsun.

Bir gün yenə şahzadə adəti üzrə həmin yerə gəldi. Kəniz ona üz tutub dedi:

-Ey cavan oğlan, bu qəlbim sənin eşqinlə dolmuş, sevimli surətinə mail olmuşdur. Amma səni təqva və zöhdün[10] mənim istəyimdən uzaqlaşdırır. Bu cür böyük əzaba taqətim yoxdur. Savab odur ki, sənə azuqə üçün bir çox şeylər hazır edəm, alıb başqa bir şəhərə gedəsən. Həm sən yoxsulluq əzabından qurtarasan, həm də mən bu böyük günaha batmayam. Sabah mən o şeyləri hazır edəcəyəm. Sən də gəlib onu götür get. Yolda ac-susuz qalma.

Bu söhbətdən sonra şahzadə dönüb məkanına getdi. Kəniz də məkr və hiyləyə məşğul oldu.

---

[9] Quşluq – Səhərlə günorta arası

[10] Təqva və zöhd – Dindarlıq və dünya işlərindən əl çəkib ibadətlə məşğul olma

O xacənin bütün xəzinə və var-dövləti bu qulluqçu kənizin əlində idi. Kəniz dərhal xəzinəyə gedib evin divarını yol tərəfdən dəldi və çoxlu qiymətli atlas parçalar, zər-zibanı bir boxçaya bağlayıb evin ortasına qoydu. İşi tamam etdikdən sonra arxayınlıqla öz otağına çəkildi. Səhər şahzadə adəti üzrə yenə gəldi. Kəniz onun qabağına gəlib min hiylə və mülayimliklə dedi:

-O şeyləri sənin üçün hazırlayıb otağın ortasında qoymuşam. Tez get al və bu diyardan uzaqlaş.

Hər şeydən bixəbər şahzadə o otağa ayaq basıb, boxçaya əl uzadaraq götürdü. Kəniz cəld otağın qapısını möhkəm bağlayıb fəryad eylədi ki, oğru evə lağım[11] atıb, girib evin mallarını aparır. Bu fəryadı eşidən xacənin xidmətçiləri və yaxın adamları sağ-soldan yığışıb şahzadəni evin ortasında əlində boxça, içi dolu zər-qumaş gördülər. Biçarə şahzadə çaşqın halda bu dolaşıq işin həllini çox çətin görüb ağzına sükut möhürü vurdu. Dünyanın bu cür gərdişini düşünüb, kənizin hiylə və məkrini fikir eyləyib, mərdliklə haqqa boyun əyib durdu. Xidmətçilər onun bir oğru kimi əl-ayağını möhkəm bağlayıb, döyə-döyə və təhqirlər edərək, əzab-əziyyət verməyə başladılar. Bu cür zillət və rüsvayçılıq ilə cəza meydanına apardılar ki dara çəksinlər. Şahzadənin yadına düşdü ki,

---

[11] Lağım – Yeraltı keçid

mən alimlər söhbətindən eşitmişəm ki, hər kimsə bir bəlaya kiriftar olsa, möminlərin əmiri həzrəti Əli (Allah üzünü kəramətləndirsin) buyurmuşdur ki, bir kimsə haqqa bir çaşqınlıq üçün şəfa zikri gətirsə yəqindir ki, o qorxunc təhlükədən və həlak olmaqdan xilas olar. Ona görə də Haqqa üz tutub dua etdi:

-Ey hər şeyə gücü yetən Allah, o kimsənin haqqı ki, Xəndək savaşı günü onun bir zərbəsi Məhəmməd ümmətinin bütün gözəl əməllərinə bərabərdir. Necə ki şəriət sahibi buyurur: “Nəbi (Allahın salamı üzərinə olsun) dedi: “Xəndək günü Əlinin bir zərbəsi ümmətimin qiyamət gününə qədər əməllərinə bərabərdir”.

Elə ki, şahzadə ürəkdən bu nurlu dua ilə məşğul oldu, dərhal duası o böyük məqamda qəbul olundu. Dövlət sahibi xacə də bu mənzərəni seyr edirdi. Şahzadəni bu halda görüb ilahidən qəlbində mərhəmət hissi oyandı. Əmr edib onu hüzuruna gətirtdi və şahzadədən soruşdu ki, sən hardansan və bu diyara nə cür gəlib düşübsən? Bu nalayiq hərəkəti ki, sənə münasib deyildi, nə üçün etdin?

Şahzadə dedi:

-Əgər həqiqəti söyləsəm mənim dərdimə ortaq olmazsan, əgər söyləməsəm halım məlum olmaz.

Mərhəmətli xacə dedi:

-“Doğrunu söyləmək lazımdır, yalan söz fitnə törədər” demişlər. Əgər sözün varsa söylə eşidək.

Şahzadə vəziyyətini bəyan edib dedi:

-Biz iki qardaş idik. Birlikdə filan məmləkətə hökm edərdik. Mən ədalət və insaf ilə mülkə rövnəq vermiş idim. Qardaşım isə rəiyyətə zülm və cəfa edərdi. Bir gün ölkəmizə güclü bir düşmən hücum eylədi. Onun qarşısına çıxmaq üçün daha çox var-dövlətə möhtac idik. Zalım qardaşım bir qərib bəzirganı həbs edib, istədi ki onun malının bir hissəsini zor gücü ilə alsın. Tacir malını vermək istəmədi. Qardaşım qəzəblənib ona həmlə etdi. Fikri o qəribi öldürmək idi. Mən rəhm edib əlimi onun qılıncına sipər etdim. Tacirə siyrilmiş qılıncı ondan uzaqlaşdırdım. Ancaq qəzəblə tacirə endirilən qılınc əlimə dəyib bir barmağımı kəsdi.

Şahzadə bu əhvalatı söyləyib bir barmağı kəsilmiş əlini ona göstərdi. Xacə onu tanıdı və dərhal yerindən durub şahzadənin ayağına düşdü və dedi:

-Həmin o qərib bəzirgan mənəm ki, sən bu qədər lütflər və xeyirxahlıqları mənim üçün eylədin. Mənim canımı və malımı xilas etdin. İndi bu nə haldır ki sənin başına gəlib?

Şahzadə dedi:

-Bu çərxi-bəd dövran və qəddar zaman məni taxt başından ayaqlara saldı. Zəmanənin qaydası həmişə belədir. Hər kimin ki ağzına əvvəlcə sevinc şəkəri verir, arxasınca acı zəhər içirir. Axır ki şahzadə əvvəlki

hekayətini və düşmənə məğlub olub, qardaşının da həlak olduğunu, özünün isə qürbət vilayətə düşdüyünü bir-bir nəql eylədi. Cariyə ilə olan əhvalatı da bəyan etdi. Bəzirgan həmin saat kənizi qətl etməyi buyurdu. Şahzadə azad oldu və dedi:

-Nə qədər ki o mənim canıma qəsd etdi, amma biz duz-çörək haqqını itirməyək. Bağışlamaq isə ədalətlilikdir.

Bəzirgan:

-Cəza və mükafat Allahın işidir - deyib, kənizi cəzadan azad etdi. Sonra məliklərə xas libas və daş-qaşla bəzədilmiş tac hazırladılar və şahzadənin min cür əzabına əvəz olaraq ona verdilər. Ondan sonra xacə öz halal pulu ilə satın aldığı dörd yüz rumlu qulamın hər birini at və silahı ilə birlikdə şahzadənin hüzuruna gətirdi. Ta ki qulluq vəzifəsini yerinə yetirsin. Xəzinəsini açıb əmr etdi ki, məliklərə səfərdə və rahatlıqda lazım olan hər cür bəzək əşyaları hazır eyləsinlər.

Elə ki xacə lazımi şərtləri yerinə yetirdi, neçə cür hədiyyələr və çoxlu mallar alıb, o məmləkətin padşahına gedib şahzadənin hekayətini təfsilatı ilə bəyan etdi. Ta cəmi düşmən üçün nümunə olsun. Padşah da on min inanılmış, cəsur igid verdi ki, hər biri qorxmaz pələng xasiyyətli döyüşçü idi. Belə ki, lazım gəldikdə onların hər biri min adamın qabağından qaçmazdı. Bəzirgan o qoşunun bütün yaraq-yasağını

hazır eylədi. Onlar şahzadənin vətənindəki düşmənlərə qarşı mübarizə üçün yola düşdülər. Elə ki o diyara çatdılar, düşmən üzərinə hücum edib, qardaşının qisasını almaq üçün onlara yaxşıca qulaqburması verib, əvəzini çıxdılar. Allahın izni ilə bütün mülk əvvəlki sahibinin özünə qayıtdı. O biri qardaşı Allahdan qorxmadan etdiyi zülmün uğursuzluğundan canından cüda düşdü. Bu qardaş isə ədaləti ilə neçə bəlalarla üzləşdikdən sonra yenidən qüdrətli və adil bir padşah oldu.

Məhcubə dedi:

-Bu gözəl və ruh oxşayıcı hekayəti çox gözəl söylədin. Həm də o adil şahın bu məzmunda bir hekayəti kimidir ki, fürsət sahibi olan düşməni ona mərhəmət edib, mehribanlıq göstərdi.

Əcubə soruşdu ki:

-Necədir o hekayət?

## Ədalət və insaf haqqında Məhcubənin hekayəti

Hekayət söyləyənlər belə rəvayət etmişlər ki, bir adil padşah var idi. Ədalətlə bəzənmiş və insaf yaraşığı ilə zinətlənmişdi. Mülkü haram olan vergilərdən və sitəm yolundan azad edib, işıqlı gələcəyə və gözəl günlərə çatdırmaqda zəmanəsinin məliklərindən fərqlənirdi. Onun çox zalım və yaramaz bir vəziri var idi. Bu vəzirin içi zülm və sitəm etmək həvəsi ilə dolu idi. Həmin şəhərdə çox dövlətli bir tacir var idi. Bir gün əcəl mələyi gəlib taciri apardı. Var-dövləti az yaşlı bir

oğluna qaldı. Həmin zalım vəzir tacirin var-dövlətinə tamah salıb, istədi ki adil şah zülm yolu ilə o malı uşağın əlindən alsın.

Bir gün vəzir padşahın hüzuruna gəlib dedi:

-Şahımızın ömrü əbədi olsun. Filan xacə vəfat etdi. Yüz min dinar sərvəti qalıb. Bir də az yaşlı, kiçik bir oğlu var. Padşah əmr eyləsin, o sərvəti xəzinəyə gətirsinlər.

Məlik dedi:

-Oğlu varsa miras onundur, ona verilməli-dir.

Vəzir dedi:

-O kiçik bir uşaqdır. Ona lazım olan qədəri verilib, qalanını borc adı ilə almaq lazımdır. Ta ki xəzinədə qoruna və padşah o sərvətdən xoşhal ola.

Adil padşah vəzirə acıqlanıb dedi:

-Bu cüzi sərvət ki, yüz mindir. Əgər yüz dəfə yüz min də olsa, mənim insafımda ona həvəs yoxdur. Həm də o, yetim haqqıdır. Bir mal ki haram ola, ondan nə qazanc əldə etmək olar? Əvvəla əgər bu dünyanın saxta nemətləri halal da olsa, əslində haram hesab olunur. Həm də günaha səbəb olur. Özü də qaldı ki haram ola?

Vəzir hiylə işlətməyindən xəcalət çəkdi. Özünü alçaldılmış hesab edərək, kor-peşman çıxıb getdi. Ancaq padşaha qarşı içində kini qaynadı və öz-özünə dedi ki, bir hiylə fikirləşmək lazımdır ki, padşahın ölümünə və ölkənin ziyan görməsinə səbəb ola. Elə ki, bu intiqamı ondan alam.

Bu adil padşahın bir düşməni var idi. Vəzir o saat bir məktub yazıb düşmən padşaha göndərdi ki, bizim şah qəflət məqamındadır. Qoşun da dağılmışdır. Əgər istəsən fürsəti qaçırtmayıb, tez gəlmək lazımdır ki, bu məmləkət sənin ola.

Düşmən olan padşah vəzirin bu sözünə aldanıb, qoşunu ilə adil şahı məhv etmək üçün gəldi. Bu ədalətli padşah da az qoşun ilə qarşı durdu və Allahın adını və kəlamını dilə gətirdi. Allahdan ona və qoşununa elə bir güc gəldi ki, hünərdə düşmən qoşununa bərabər oldu. Səf bağlayıb böyük ruh yüksəkliyi ilə düşmənə hücum etdilər. Allahın yardımı ilə bir həmlədə düşmən qoşununu darmadağın eylədilər. Düşmən şahı da əsir alıb, qələbə sevinci ilə şad-xürrəm, Haqqa şükür edərək, öz səltənət taxtında gəlib oturdu. Bundan sonra əsir düşmən şahı hüzuruna gətirtdi. Fikirləşdi ki, əgər bunu öldürsəm mürüvvət yolunda yaxşı olmaz. Bir qalada məhbus eyləsəm, zəmanənin gözü hiyləgərdir. Ola bilər ki, bunu çox hörmətli təsəvvür edib xilas edələr. Sonra da cürbəcür fitnələr ortaya çıxar. Şahlıq taxtının altında bir sandığa qoyub həbs eylədi. O namərd və vəfasız vəzirin qəlbində şaha qarşı kin-küdurət hələ də soyumamışdı. Bir neçə müddət gecə-gündüz şahın qulluğunda olub, gizlində isə pis əməllərinin xəyalını fikir edirdi. O qədər fürsət gözlədi ki, bir gecə şah məst olub yatdı. Tez açarı gizlincə

götürdü və o sandığın ağzını açıb, əsir şahı azad eylədi. Yatmış şahın qılıncını çıxarıb onun əlinə verdi və dedi:

-Qılınc ki ələ keçdi, öldürmək lazımdır. İntiqam zamanıdır. Fürsəti əldən vermək ağıllı adamların işi deyildir.

Düşmən olan əsir şah qılıncı əlinə götürüb yatmış şahın üstünə gəldi. İstədi ki onu öldürsün, amma mürüvvət hissi üstün gəlib, bir an öz-özünə fikirləşdi ki, bu məlik səmimi, doğru və adil bir adamdır. Mənim canımı bağışlayıb, həyatımı məhv eyləmədi. İndi mən bunu öldürsəm, mərdlik və insafdan deyil. Bu çox gobud və səhv hərəkət olar. Bu çörəkbasan kafir vəzir ki, öz ağası haqqında bu cür xəyanəti rəva görmüşdür, bu qılıncı sınamağa yenə o layiqdir ki, belə işlərə cürət edər.

Əsir şahın duruxduğu nankor vəzirin diqqətini çəkdi. Odur ki, dərhal dilləndi:

-Nə üçün dayanıb durmusan? Tez ol qılıncı işə sal.

Əsir şah dedi:

-Belə münasib görürəm ki, bu qılıncı əvvəlcə sənin üzərində sınayam.

Bunu deyib o zalım vəziri şahın canına əvəz olaraq qurban eylədi. Sonra qanlı qılıncı şahın taxtı önündə yerə qoyub, hörmət və ehtiramla yatmış şahı oyandırdı və dedi:

-Əminliyinə güvənilən adamdan qorxul-maz. Sənin ədalət və mürüvvətin sənin həyatını xilas etdi. Vəzirin isə hiylə və məkri canını aldı.

Elə ki ədalətli məlik bu dəhşətli hadisəni gördü, tez yerindən durub gəldi. Bu hadisənin səbəbinə təəccüb eylədi. Sonra iki məlik bir-biriylə qardaş olub, ortadan düşmənçiliyi götürüb, canü-dil ilə dost oldular.

Əsir şah vəzirin məkrli hiyləsini bir-bir söylədi və üzrlər dilədi.

Ədalətli məlik əmr eylədi, şəhəri bəzədilər. Bol hədiyyələr ilə bərabər əsir şaha böyük ziyafət verdi. Daha sonra əmr eylədi, xəzinəni açıb fəqir-füqəraya da hədiyyələr verdirdi. Əsir şaha da çoxlu mal-dövlət verib, hörmət və təzimlə öz məmləkətinə yola saldı.

Beləliklə, ədalətli şah xoş niyyət və gözəl əməlləri sayəsində böyük bir bəladan xilas oldu. Padşahlıq taxtında bərqərar olub, gününü ədalət və insaf ilə keçirərək düşmənlərin qəzəbindən qurtardı.

Məhcubə dedi:

-Bu məsəli onun üçün gətirdim ki, zəmanə məlikləri və dünya padşahları yəqin bilələr ki, ədalətin nəticəsi və insafın faydaları az deyildir. Bəlkə daha çox və saysız-hesabsızdır. O adam ki ədalət və insafa diqqət göstərə və hər zaman ədalətin və insafın qulluğunda dura, çox böyük mükafat və gözəl savab qazanar. Haqq-Təala məmləkət xalqına ədalət və insaf paltarı geydirər və o paltarları yenə də ədalət bağışlamaqla bəzəkli xələt eyliyər. Müvəffəqiyyət və üstünlüyə layiq edər.

# İKİNCİ BAB
## Mülayimlik və ciddiliyin sifətləri

İkinci gün ki, fələklərin qoruyucusu dördüncü göyün qübbəsini günəş nuru ilə nurlandırdı və zülmət aləminə nurdan paltar geyindirdi, şah Səmmah səltənət taxtında oturub aləmə ədlü-insaf və ədalət bağışlamaqla ziynət vurdu. O gün səhər açılandan ta axşam vaxtının sonuna kimi bütün camaatın məsələlərini yerinə yetirib, ədalət və insafla məşğul oldu. Elə ki nurlu aləmin gül üzünün rəngi zəfəran kimi saraldı və cahanın günəşi batmağa doğru getdi, şah Səmmah öz hücrəsinə gedib Əcubə və Məhcubənin söhbətlərini dinləməyə başladı. Ta ki, onların danışdıqlarından və gözəl söhbət-lərindən faydalana.

Onlardan soruşdu:

-Məliklərin əxlaq adətlərindən hansı əməllər şərəflidir ki, onun vasitəsi ilə dövlətin davamı hasil ola, o dövlətə bir zaval olmaya?

Əcubə dedi:

-Şahımızın hökmranlığı daimi olsun. Hikmət sahibi məlikdə heç mülayimlikdən göyçək bəzək və vüqardan faydalı sifət yoxdur. Ona görə ki, üstün və aşağı təbəqə adamları o xasiyyətlərin səbəbinə mədəni olurlar və məliklər onun nəticəsinin ləzzətindən xoşlanırlar. Əgər bir hökm edən padşahın qəzəbli vaxtında bir az sakitləşib, özlüyündə yumşaqlığa qərar

verib, günahkarların cərimə-lənməsindən bağışlanma yolunu tutub göz yumsa, xalq qəlbində onun hərəkətlərinə məftun olurlar və ona o qəzəbdən ziyan dəyməz. Yox, əgər onun əksinə, Allahdan qorxmaz bir padşah ki, acıqlı vaxtında cəsarət edib, təcavüzkar siyasətində tələsikliyə yol versə və ağır cərimə üçün təftiş və axtarış etməyib, işgəncə siyasətində həddini aşsa, xalq ondan inciyər və pərişan olarlar. Rəiyyət onun xidmətinə rəğbət göstərməz. Həm də padşahlara lazımdır ki, ümumi siyasəti xalqın üzərindən qaldırmaya. Ta ki yaramaz adamlar baş qaldırıb, fitnə-fəsad törətməyələr. Həm də cəza işində çox irəli getməyə. Xalq da onun mərhəmətindən ümid kəsməyələr və şər-böhtanın ortadan qaldırılması üçün başqa adama pənah aparmayalar. Məliklərdə səbirlə vaxtı gözləmək incə yaraşıqdır və mütləq gözü bunların üstündə olmalı, siyasəti sonraya saxlayıb, vaxtı gözləməli və səbirlə sakitliyə çalışmalıdır. Ta o müqəssirlərin gizli əməlləri ortaya çıxdıqdan sonra çox faydalı mənfəətləri müşahidə olunar. Necə ki o qazi şah mülayimliyinin bərəkəti ilə nahaq qandan xilas oldu və zəhmətsiz xəzinə əlinə geçdi.

Məlik Səmmah soruşdu ki, necədir o hekayət?

Əcubə dedi:

## Mülayimlik və ciddilik barədə Əcubənin hekayəti

Hekayət söyləyənlər belə nəql etmişlər ki, İran ölkəsində Qaysum adında bir padşah var idi. Xoş

simalı, gözəl əxlaqlı, ağıl və zəkada çox üstün, əsl səltənət taxtına layiq bir adam idi. O, saf əqidəli və dininə sədaqətli idi. Ancaq Allah yolunda kafirlərlə müharibə etmək onun adəti idi. Bir gün yenə adətinə uyğun olaraq kafirlərlə müharibəyə hazırlıq görüb, qoşununu qəza[12] üçün hazır vəziyyətə gətirib düşmən üzərinə səfər etdi. Yolda gedərkən təsadüfən bir zahidin ibadətgahına yaxın yerdə dayandılar. Padşah bir neçə yaxın adamı ilə o zahidin hüzuruna getdi və dedi:

-Mənə nəsihət eylə və elə bir şey öyrət ki, dünyada hörmətə səbəb və axirətdə günahların bağışlanmasına vasitə olsun.

Zahid dedi:

-O şey ki dünyada və axirətdə faydalıdır, mülayimlik və vüqardır. Qüdrətli vaxtında hirs və qəzəbi özündən uzaqlaşdırıb, səbrə itaət etməkdir. Bu nəsihəti yadında saxla. Nə vaxt ki bir günahkara acıqlansan, o halda bir az nəfsinə hökm eylə. Ta ki, gələcək zamanda onun zövqü-ləzzətindən həzz alasan.

Məlik Qaysum o nəsihəti qəbul etdi və zahidlə vidalaşıb düşmən diyarına tərəf yola düşdü. Kafirlərin padşahı elə ki məlik Qaysumun gəlməsindən xəbərdar oldu, onun qətiyyət və qüdrətini eşitdi, bildi ki onunla bacara bilməyəcək. Xəzinəsində nə qədər malı var idisə, hamısını yığıb bir möhkəm yerdə gizlətdi. Belə

[12] Qəza – Dini müharibə

ki, öz qızından başqa heç kəs onun yerini bilmədi. Bunu ona görə elədi ki, əgər müharibədə məğlub olsa, düşmən əsgərləri o mala sahib olmasınlar.

Elə ki məlik Qaysum öz qüdrətli qoşunu ilə din düşməninin qoşununa həmlə etdi, hamısını qılıncdan keçirdi və yerlə bir elədi. O müharibədə kafir şahı bütün əhalisi ilə birgə məhv etdilər və şahın qızını alıb, sağ qalanlarla birgə məlik Qaysum üçün töhfə apardılar. Məlik Qaysum qıza nəzər saldı. Onun bir gözəl üzlü məhbub, bir qəşəng qamətli dilbər və bir pəri üzlü sənəm olduğunu gördü. Elə ki, məlik onu bu hüsnü-camalda gördü, yüz can ilə ona aşiq oldu. Həmin saat qazılar hüzurunda nikah edib özünə arvad eylədi və döyüş zamanı düşmən məlikdən əldə edilən malını yerbəyer elətdirdi.

Qız atasının qətlə yetirildiyini yadına salıb daima ah-zar edirdi. Qəlbində məlik Qaysuma kin-küdurəti möhkəm idi. Fürsət gözləyirdi ki, bir məkrü-hiylə ilə məlik Qaysumu öldürüb, atasının qisasını ala.

Bu qızın bir dayəsi var idi. Bir gün xəlvət bir otaqda dayəsi ilə söhbətə məşğul ikən, dayə qızın söhbətində qəm-qubar, gül rəngli camalında bir dəyişiklik gördü və mehribanlıq edib dedi ki, bəndələr bir-biri ilə ona görə dost olurlar ki, Allahın yolunda cəhd göstərib, dost üçün şirin canı əsirgəməyələr. Könlündəki qubara və gül camalının pozulmasına səbəb

nədir? Mən cariyənə bildir. Ta ki nə yol ilə mümkün olsa bir gözəl tədbir ilə səni muradına çatdıraram.

Qız dedi:

-Bu dünyada qəm-qüssəyə məndən artıq layiq olan varmı? Var-dövlətimiz və şan-şöhrətimiz tələf oldu. Könlümün nuru və gözümün işığı atam min bir əzab-əziyyətlə öldürüldü. Mən isə onun qatili ilə bir yastığa baş qoyuram. Günlərim bu minvalla keçəcəksə, necə qəmgin olmayım?

Dayə dedi:

-İndi ki bu sirdən məni agah etdin, içində olan dərdinə düşməni məhv eyləməklə və sinəndə olan yaraları düşmənini öldürməklə çarə eyləyim və bu çox çətin iş sənin bəxşişlərinlə şübhəsiz müyəssər olur. Məlik Qaysum ləvzinəyi[13] çox sevir. İki dənə ləvzinəyə bir az həlahil zəhəri qatıb, bir neçəsini də onun yanına qoyub bir sinidə öz əlinlə məlikin hüzuruna apar. Xoş əhval-ruhiyyə ilə məliklə birlikdə yeyin. Elə et ki məlik şübhələnməsin. Ancaq sən o iki zəhərli ləvzinəyə toxunma ha. Məlik Qaysum ləvzinələrin ləzzətindən və sənin camalının şövqündən məst olub iştahı açılar və o iki ləvzinəni yeyər. O saat da zaval üzəngisinə ayaq basıb ölüm atına minər. Sən də atanın qisasını almaqla könül sakitliyi taparsan. Allahu-Təala da həyatda qisası halal buyurur.

---

[13] Ləvzinə - Şirniyyat növü

Məlik Qaysumun xüsusi xidmətində olan bir kəniz var idi. Bunların gizli söhbətlərini eşidib, niyyətlərini və çirkin hərəkətlərini uzaqdan izləyib o iki zəhərli ləvzinənin nişanlarını bildi. Bunlar isə arxayınlıqla öz işlərini gördülər. Elə ki onların bu çirkin işləri hazır oldu, məlikə həmin sinini götürüb yüz işvə-nazla şad-xürrəm Qaysumun hüzuruna gəldi. Bu hərəkət məlik Qaysumun o qədər xoşuna gəldi ki, heç nədən ehtiyat eyləmədən xoş münasibətlə ləvzinələri yeməyə başladılar. Kəniz də bir kənarda durub onlara fikir verirdi. Elə ki gördü məlik o iki zəhərli ləvzinəni götürmək istəyir, yerindən sıçrayıb sinini ortadan qapdı. Məlik kənizin bu hərəkətinə bərk hirslənib, sinini tələb eylədi. Kəniz əmrə itaət eyləməyib ləvzinələri yerə atdı.

Qız dedi:

-Bu həyasıza nə oldu ki, bu cür ədəbsizliyə cürət etdi? Yəqin ki bizim mehribanlığımıza paxıllıq edir.

Məlik Qaysum o hərəkətdən çox sinirləndi və acıqlı halda qılıncı əlinə aldı ki, zalımlıqla kənizi öldürə. Bu an o zahidin sözləri yadına düşdü. Hirsi soyuyub, qəlb rahatlığı ilə mərhəmət edib biçarə kənizin günahından keçdi və yanına çağırıb bu hərəkətinə nəyin səbəb olduğunu soruşdu:

-Sən heç bir vaxt bu cür həyasızlıq etməzdin. İndi bu ədəbsizliyə səni nə vadar etdi?

Kəniz cavab verib dedi:

-Nə qədər ki sənin kəbinində olan bu məlikədə atasının qisasını almaq kini var, mən bu cür səfehlikləri çox edəcəyəm.

Məlik bu sözdən çox heyrətlənib buyurdu ki, bu söz çox fitnə törədən və ağlagəlməzdir. Bu işin səbəbini bizə izah eylə.

Cariyə dedi:

-Məlikənin dayəsi sənə hiylə və məkr quraşdırıb, yeməyinə zəhər qatıb, canına qəsd etmək istədi. Əgər bu hadisəni mən görməsəydim səni öldürüb, düşmənlərini sevindirərdilər.

Məlikə ah-nalə edib dedi:

-Bir bu cadugərə bax. Şahın acıqlanmasına necə də həvəslə təkan verir. Özünün həyasızlığını isə ört-basdır edərək istəyir ki, bu yolla şaha xoş gələ.

Kəniz dedi:

-Bütün mübahisələr dəlil-sübutla aşkarla-nar və müəyyən olar. Əgər məlik dayəni hüzura gətirdib bu iki ləvzinəni ona yedirirsə, haq ortaya çıxar və şah da mənim doğru olduğuma inanar.

Məlik dayəni hüzuruna gətirdib əmr eylədi ki, o iki dənə ləvzinəni yesin. Xain dayə qorxusundan onları yedi və elə oradaca canını haqqa təslim eylədi.

Qaysum vəziyyəti belə görüb, istədi ki məlikəni öldürsün. Yenə o zahidin sözləri yadına düşdü. Dərhal acığı soyuyub sakitləşdi və məlikəyə dedi:

-Baxmayaraq ki sən bizə bu cür böyük bir bəlanı rəva gördün, amma bizim mülayim-liyimiz bu təhlükəli cinayətdən bizi xilas etdi. Mən isə sənin bu qaniçənliyini bağışladım.

Şahın bu mərdanəliyindən təsirlənən məlikə peşmançılıq və hörmətlə taxt önündə səcdə etdi və dedi:

-Sən ki mənim günahımı əfv edib canımı bağışladın, mən də bundan sonra ikiüzlülükdən əl çəkib, səninlə barışmağı qəbul etdim. Odur ki sənə bir sirr açım. Mənim atam filan yerdə çoxlu mal və bol xəzinə gizlətmişdir. Səninlə nikahlı olsam da bu sirri səndən qapalı və gizli saxlayırdım. İndi ki səninlə sədaqətlə barışdım, lazımdır ki o xəzinəni çıxarasan və lazım olan yerlərə xərcləyəsən.

Məlik Qaysum o hədsiz-hesabsız malı və xəzinəni deyilən yerdən çıxartdırıb, xeyli hissəsini o sədaqətli kənizə hədiyyə eylədi. Qalanını isə xəzinəyə qoyub məlikəyə dedi ki, bu mal sənin haqqındır. İstədiyin kimi götürüb xərcləyə bilərsən.

Beləliklə də, mülayimlik və sakitliyin bərəkətindən dostluq, sevgi, birlik və məhəbbət hasil olub, kin və qərəz ortadan qalxdı. Məlik Qaysum da birdəfəlik qan tökməkdən aralandı.

Məhcubə dedi:

-Bu çox gözəl bir söhbət oldu. Bu maraqlı hekayətin və könül oxşayan rəvayətin bir bənzəri də o məlik hekayətidir ki, öz mülayim-liyinin gücü ilə öz

mehriban və günahsız qulamının ölümündən keçib, xain günahkarı haqqına görə edam eylədi.

Əcubə dedi:

-Məhcubə, o hekayət necədir? Danış görək.

Məhcubə dedi:

## Mülayimlik və ciddilik barədə Məhcubənin hekayəti

Xəbər söyləyənlər belə rəvayət etdilər ki, Bədəxşan diyarında bir padşah var idi. O, hədsiz dərəcədə təmiz ürəkli və gözəl xasiyyətli idi. Onun adına Çəhram deyirlərdi. Ölkə onun varlığı ilə şərəfli və əxlaq qaydalarını gözləmələri ilə tərifə layiq bir şəkildə rahat olmuşdu.

Bir gün məlik Çəhram ov etmək üçün ata minib səhraya getdi. Bir müddət səhrada at sürüb, hər tərəfi dolaşdı, sağına və soluna diqqətlə baxdı. Gözünə heç bir şikar dəymədi.

Bir odunçu həddən artıq kasıb olduğu üçün ceyran dərisini özünə bürüncək eyləmişdi. O gün həmin çöldə bir qədər odun kəsib yorulmuşdu. Bir az dincini almaq üçün bir ağac dibində yatıb qalmışdı. Məlik Çəhram uzaqdan onu gördü. Elə düşündü ki bu bir ceyrandır. Ox-kamanı əlinə götürüb, odunçunu nişan alıb atdı. O biçarəni vurub yaraladı. Padşah ov bilib vurduğu odunçunun yanına gəldi. Yazıq odunçunu bu halda görüb çox peşman oldu və dedi:

-Bu cəsarət mənə çox baha başa gəldi. O fağıra min dinar qızıl pul verib ondan üzrlər dilədi və əhd

eylədi ki, bir daha heç bir işə tələsməsin, heç bir halda tələsikliyə yol verməsin.

Məlik Çəhramın gözəllikdə tayı-bərabəri olmayan bir cariyəsi var idi. Bu cariyə həm də xoş üzlü və könülaçan idi. Məlik Çəhram o kənizin vurğunu olmuşdu. Belə ki, öz kəbinli arvadının və başqalarının söhbətlərindən ayrıldıqdan sonra həmişə onunla sevişməklə məşğul olurdu. Məliyin arvadı isə qeyrət atəşi ilə ciyərini kabab edib, daim gözlərindən həsrət yaşını axıdırdı. Bir gün bu vəziyyəti bir qadına söylədi, ona bu möhnətin şiddətindən xəbər verdi və dedi:

-Məlik o cadugər kənizə dəlicəsinə aşiq olmuşdur. Mən də bu həsrətin atəşindən taqətdən kəsilib, yəqin ki axırda həlak olacağam.

Qadın ona təsəlli edərək cavab verib dedi ki, könlündən qəm-qüssəni çıxart. Sən ki məni bu iş üçün sir dostu eylədin, mən səni o cariyənin sənə verdiyi əzablardan xilas eylərəm. Mənə söylə görüm, məlik o cariyənin harasını daha çox sevib- oxşayır?

Məliyin qadını dedi ki, bir xəlvət vaxtı gördüm ki, məlik onun gümüşü rəngdə olan çənəsini daha çox öpərdi. Onun ağ bədəninin qoynunda məst olub, ürəkləri ovlayan böyük xəta edərdi.

Qadın dedi:

-İndi iş ona qalır ki, gərək mən qız-gəlinə bəzək vuran məşşatələr[14] kimi bəzək qutusunu zinət əşyaları ilə dolduram və məliyin hərəmxanasına girəm. O kənizin hüzurunda xidmət şərtlərini yerinə yetirəm. Çox həvəslə mənim bəzək vurmağıma sevinəcək. Rənglərin içinə bir qədər həlahil zəhəri doldurub saxlayam. Bəzək işini qurtardıqdan sonra o zəhərli rənglərlə onun çənə çuxurunda bir zəhərli xətt çəkəm. Elə ki, məlik məst halda ona dodaq vurub, çənəsindən busə aldı, o saat zəhər ağzına gedib onu öldürəcək. Sən də bu qüssə və qəmdən qurtularsan.

Bu yolla məkrinə hiylə qarışdırıb, o tərtibi necə demişdisə, tamam hazırlayıb zəhərli rəngləri kənizin çənəsinə sürtdü.

Məliyin bir qulu var idi ki, həmişə hərəmxanada olardı. Məliyə məxsus xidməti işləri ancaq o görərdi. Pərdə arxasından bunların bu gizli söhbətlərini eşidib istədi ki cariyəni bu təhlükəli hiylədən xəbərdar eyləyə. Ancaq heç cür fürsət tapa bilmədi. Məliyi də məst halda görüb, bu sirri agah etməyə bir yol tapa bilmədi.

Məlik həmişəki adəti üzrə kənizlə yataq otağına girdi. Məst idi, dərhal kənizi qucaqlayıb yuxuya getdi. Həmin qulam yavaş-yavaş cariyənin yanına gəldi. Başı ucunda durub dəsmal ilə o zəhərli xətti onun çənəsindən silməyə başladı. Qəfildən məlik Çəhram

[14] Məşşatə - Şahların hərəmxanasındakı qadınlara bəzək vuran

yuxudan oyandı. Baxıb gördü ki qulam əlini kənizin çənəsinə uzadıb. Bu Məlik Çəhramı bərk qəzəbləndirdi və qılıncı çəkib istədi ki tez bir zamanda qulamın başını bədənindən ayıra. Bu vaxt odunçu ilə olan əhvalat yadına düşdü. Mülayimlik və səbrlə nəfsinə təskinlik verib o qulamın günahından keçdi və soruşdu:

-Bu nə cürət idi sən elədin? Bunun səbəbi nədir ki, bu kənizə şəhvət yolu ilə mənim yatağımda və mənim yanımda təcavüzə cəhd edirsən?

Qulam cavab verib dedi:

-Şah sağ olsun. Sizin xanımınızın məşşatəsi rənglərə zəhər qarışdırıb bu kənizin çənəsinə sürtdü. Belə ki, bəzəkli surətdə pislik və hüsn pərdəsində qəbahət özünü göstərə. Mən də istədim ki o zəhərli xətti onun çənəsindən silib təmizləyəm.

Məlik dərhal arvadını yanına gətirdib bu məsələnin izahını ondan tələb eylədi.

Məliyin arvadı dedi:

-Mən neçə kərrə görmüşəm ki, bu qulam o kəniz ilə bir-birinə necə aşiqdirlər. Bu cür əməlləri çox etmişlər. Lakin mən məlikdən bunu gizlədərdim. Düşünürdüm məliyin ağlına belə gələr ki, bunu mən iftira üçün deyirəm. Elə ki məliyin özü bu işi müşahidə eylədi, daha nə deyə bilərəm? Əmr padşahındır.

Qulam dedi:

-Mən inanıram ki, o zəhərli rəng hələ məşşatənin qutusundadır. Əgər məlik buyurub məşşatəni bura gətirtsə bu şübhədən qurtarar.

Odur ki məlik əmr eylədi, məşşatəni qutusu ilə birlikdə şahın hüzuruna gətirdilər və təkid etdilər ki, o rəngi agzına alsın. Qadın can qorxusundan aman dilədi və günahını etiraf eylədi.

Məlik Çəhram buyurdu:

-Arvadımı boğun, məşşatəni də odda yandırın!

O qulama da gözəl xələtlər bağışlayıb, bir neçə böyük şəhərin əmirliyini ona tapşırdılar. O məlik böyük səbir və dəyanətlə o işdə araşdırma apardı. Mülayimlik və ciddiyyətin bərəkətiylə haq nahaqdan ayrıldı. Allah-Təala buyurur: “Haq gəldi və batil yox oldu!”

Məhcubə dedi:

-Bu məsəli onun üçün gətirdim ki, ta zəmanə hakimləri və cahan padşahlarına məlum olsun ki, vüqarlı olmanın və mülayimliyin nəticəsinin sonu yoxdur. Hər kim bu xasiyyətlərə diqqət göstərsə həmişə qəlbi şad və fərəhli olar. Xalq içində də qəbul olunar və nəzərə alınar. Haq-Təala səltənət mülkünün sahiblərini vüqar bəzəyi və gözəlliklərlə müzəyyən eyləsin. Həmişə könül muradı və qəlb səfası hasil olsun.

# ÜÇÜNCÜ BAB
## Araşdırma və yoxlamadan sonra siyasətdə oturma

Üçüncü gün ki aləmin günəşi zərli qübbədən baş götürüb cahanı özünün ağ bəzəkli şüaları ilə nurlandırdı, şah Səmmah da səltənət taxtında oturub aləmi öz ədaləti ilə bəzədi. O gün axşama kimi xalqın məsələləri ilə məşğul olub, insaf və ədalətlə mülkə rövnəq verdi.

Elə ki günəş gəlini gecə pərdəsi ilə üzünü örtdü, şah Səmmah xüsusi hərəmxanasına gedib nəşələnmək və şənlənmək üçün Əcubə və Məhcubənin yanına gəldi. Ta ki onların ləzzətli nitqlərindən və incə kəlmələrindən faydalana. Elə ki söhbətə məşğul oldular, söz arasında şah soruşdu ki, o hansı xasiyyətdir ki ölkələr almaqda məliklərə gərək ola və onu işlətməklə zalım üsyançıları müti və tabe eyliyələr?

Əcubə dedi:

-Şahın mülkü daimi olsun. Ölkələr almaqda zor gücünə təcavüzdən və fitnə-fəsadçıların qəmindən siyasətdən başqa heç nə ilə müyəssər olunmaz. O cəhətdən ki, dünyada xalqlar cürbəcürdür və bunların yaradılışları da müxtəlifdir. Bəzisi surətdə insan, daxilən mələkdir. Bəzisi də yırtıcı heyvan təbiətlidir. Belələrini itaətə çəkmək xeyli çətindir. Ta ki məliyin qorxusu, vahiməsi və dəhşəti bunların qəlbində yerləşməyə. Əmrə itaət edib, müxa-lifəti ortadan

götürməzlər. Əgər şahların siyasəti bunların ayağını bağlamasa, fəsad qapılarını açıb, neçə əsilsiz və xoşagəlməz işlər görərlər. Lakin məliklərin siyasəti evlərə əmin-amanlıq rahatlığı gətirər və onun himayəsi ilə aləm sakit olar. Necə ki padşahlara mülayimlik və ədalət gözəllik və yaraşıqdır, siyasət də eləcə zinətdir. Amma siyasəti də səbr və sükun yolu ilə buyurmaq gərəkdir. Tələm-tələsik işgəncə yolu ilə etməməlidir. Xain günahkarlar haqqında o iki şərti araşdırma və təhqiq etmə dərdi ilə tələsikliyə yol verməyə. Ta ki, günahsızlar günahkarlardan seçilələr və günahsıza günah-karlar əzab-əziyyət edib, nahaq qana bais olunmaya. Necə ki o mərd zərgər günahsız yerə bəla oduna kiriftar oldu, amma ağıllı padşahın ehtiyat ilə araşdırması sayəsində günahsız olduğu üzə çıxdı. Fitnə-fəsad salan günahkar isə haqq-ədalətlə əzab-əziyyət çəkdi.

Məlik Səmmah soruşdu ki, necədir o hekayət?

Əcubə dedi:

## Araşdırmadan sonrakı siyasətin bəyanı barədə Əcubənin hekayəti

Hekayət söyləyənlər belə nəql etmişlər ki, Bəsrədə bir neçə fırıldaqçı var idi. Bir gün padşahın hərəmindən bir gözəl qızı bər-bəzəkli əşyaları ilə aldadıb evlərinə gətirdilər. Məqsədləri hasil olduqdan sonra o biçarəni öldürdülər. Bütün əşyalarını və qiymətli cəvahirlərini nə ki vardı, hamısını aldılar və öz

aralarında bərabər böldülər. O cəvahiratın arasında bir dənə çox gözəl dürr var idi ki, onun qiymətində zəmanənin ən bahalı əşyası qüsurlu idi. O yaramazların bir başçısı vardı ki, adına Təbbat deyirlərdi. O çox hiyləgər və məkrli bir adam idi.

Bir gün bu Təbbat yoldaşlarına dedi:

-Gəlin filan zərgərin yanına gedib bu dürrü baha qiymətə sataq. Həm biz maldan həzz alaq, həm də günah onun üzərinə düşsün.

Bu fikirlə qiymətli paltarlar geyinib o zərgərin yanına getdilər. Təbbat dürrü çıxarıb zərgərə verdi və dedi ki, biz varislərik. Bu dürr bizə atamızdan mirasdır. Biz səndə gözəl insanlıq və əmanətə həddən artıq sədaqət müşahidə edib gəldik ki, bu dürrü bizə parçalayıb bərabər şəkildə aramızda böləsən.

Zərgər belə xəyal eylədi ki, bunlar bir neçə axmaqlardır. Bilmirlər ki dürr parçalanmaqla qiymətsiz olar. Bunun əlacı budur ki, ucuz qiymətə bunların əlindən bunu alam və baha qiymətə satam.

Odur ki zərgər dedi:

-Ey qardaşlar, cəvahiri satmaq olmaz. Çünki, şəriətə görə məkruhdur[15]. Əgər istəyir-sinizsə, baha qiymətə satarıq və məbləği də sizin aranızda bölərik. Siz də mübahisə etməkdən xilas olarsınız.

Təbbat dedi:

[15] Məkruh – Haram olmayıb, xoş da qarşılanmayan

-Biz bu işə razı deyilik. Çünki, cəvahirin evdə olması çox bərəkətə səbəb olur. Biz o cəvahirə möhtacıq. Malımız və mülkümüz onun bərəkəti ilə çoxalır. Xülasə, fırıldaqçılar zərgərin həvəsini artırdılar və xırdaçılıq edib, o qədər sırtıqlıq göstərdilər ki, axırda xeyli baha qiymətə dürrü zərgərə satıb, pulunu da alıb öz işlərinə getdilər.

Zərgər tamahlanıb dürrü padşahın hüzuruna apardı ki, ondan lap çox qazanc əldə edə. Padşah o dürrü görüb tanıdı və əmr etdi, zərgəri tutub həbs edin. Dərhal zərgəri tutub bağladılar və soruşdular ki, bu dürrün sahibini neylədin? O qız haradadır?

Zərgər bu hadisənin sirrindən xəbərsiz idi. Mat-məəttəl qaldı və dedi:

-Bu müşgül suala nə cavab verim? Qız hadisəsi nədir ki, mən onun sirrindən xəbərsizəm.

Məlik dedi:

-Bir neçə gündür ki mənim xüsusi hücrəmdən bir qız itgin düşüb. Onun üzərində bir çox daş-qaşla bəzədilmiş zinət əşyaları və nəfis cəvahirlər var idi. Bu gümüşü dürr də onlardan birisidir. Əlbəttə, o cövhərləri digər cəvahirlərlə birlikdə tapmaq lazımdır.

Yazıq zərgər heyrətə düşdü və yalvararaq aman diləyib dedi:

-Mən o dürrü bir neçə varisdən satın almışam. Harada olduqlarını da bilirəm. Əgər məlik onlardan birini gətirməyi əmr edərsə, bu gizli sirrin açılması çox

da gec olmaz. Həqiqət ortaya çıxar, mən də məlikin qəzəbindən qurtararam.

Məlik dərhal zərgərə bir neçə adam qoşub o quldurları tutub gətirməyə göndərdi. Onların başçısı Təbbat evdə idi. Onu tutub gətirdilər. Təbbat gördü ki bəla qapıları üzərinə açıldı. İşi inkar eyləməyə qərar verdi. Elə ki Təbbatı hökumət məclisinə gətirdilər, zərgər dedi:

-O oğurlanan dürrü mənə bu kişi satdı.

Təbbat inadkarlıqla etiraz eylədi:

-Mənim bu işdən xəbərim yoxdur. Bu araqarışdıran mənə böhtan atır.

Elə ki məlik zərgərin yalvarmağını və Təbbatın inkar eylədiyini müşahidə eylədi, qəzəb və hiddətini boğub dedi:

-Bu halı tam araşdırmayınca hökm etmək olmaz.

Əmr eylədi, ikisini də həbsxanaya saldılar.

Məlik şəxsən özü bu hadisənin araşdırılması ilə məşğul oldu və vəziri ilə məşvərət edib dedi:

-Sən bu iki oğru-quldurun haqqında nə deyirsən? Heç bir razılığa gəlmirlər. Şübhəsiz ki, bunların ikisindən biri xəyanətkardır. Bu gizli sirrin bəndini səndən başqa heç kim aça bilməz. Bir yol fikirləş ki, bu müşgül məsələ mənim yanımda həll olunsun və ədalət öz yerini tapsın.

Vəzir dedi:

-Sabah məclis çağıraq. Qazılar, imamlar, şeyxlər və şəhər camaatını meydana dəvət edək. Orada mən bir hiylə və məkr edib bu iki müttəhimdən suçlu olanı müəyyənləşdirib, əhali qarşısında rüsvay edim. Amma indi əmr edin ki, o oğurlanan dürrü on ədəd dürr ilə mənim xüsusi hücrəmə gətirsinlər. Mən elə bir hiylə edəcəyəm ki, aləm padişahının dövlətində uğurlu qələbə üz göstərsin.

Vəzirin o zərgər ilə yaxınlığı var idi. Dəqiq bilirdi ki bu cür münasibsiz hərəkət o zərgərdən gəlməz. Xalqın qəlbində ona qarşı töhmət yaranmasın deyə, zərgəri xəlvəti evinə gətirib dedi ki, sabah o dürdanəni on ədəd dürr ilə birlikdə sənə gətirəcəklər. Nə vaxt məlik sənə: - Öz dürrünü al – desə, ehtiyatlı ol, o dürrü alma, başqasını götür və bu sözlərimi yaxşı yadında saxla – deyib, yerinə göndərdi.

Elə ki gecənin qara rəngli qarğası cahan yuvasından uçub getdi və sübhün al saçaqlı günəşi öz qızıl şüalarını aləmin üzərinə tökdü, aləm günəş nurundan öz zərli xələtini geyindi. Məlik bütün hörmətli təbəələri və xidmətçiləri ilə şah sarayında hazır oldu. Təbbatı və zərgəri meydana gətirdilər və bir-birinə yaxın yerdə oturtdular. Vəzir buyurdu ki, o dürrləri qızıl tabaq içərisində zərgərin önünə qoysunlar. Padşah uca səslə çağırıb dedi:

-Ey cəvahirlər xacəsi, öz dürrünü gətir bizə ver.

Zərgər vəzirin sözlərinə əməl edib, əl uzadıb istədi ki başqa dürr götürsün, Təbbat özünü saxlaya bilməyib qəfildən yerindən səslənib dedi:

-Öz dürrünü götür. O cövhər sənin deyildir.

Padşah dərhal dedi ki, ey vəzir, haq yerini tapdı.

Sonra Təbbata üz tutub dedi:

-O dürrü ki, sən ona satmadın. Bəs nədən bildin ki o dürr onun deyildir və görmədiyin cövhərə nədən şahidlik edirsən?

Təbbat acizliyindən susmaq məcburiyyə-tində qaldı və xalq qarşısında rüsvay oldu. Padşahın sərt əmri ilə cinayətkar bu fəsad işdə onunla şərik olan yoldaşlarının hamısını ələ verdi. Şah soruşdu ki, qızı neylədiniz?

Bu tamahkar quldurlar da qızı öldür-düklərini etiraf etdilər. Şah dərhal əmr eylədi, onların hamısını şəhərdə əzab-əziyyətlə və siyasətin hökmü ilə dara çəkdilər. Biçarə zərgər də şər və böhtanın böyük bəlasından xilas oldu. Bunlara olan məhkəmədən bütün aləm ibrət dərsi aldı. Beləliklə də, o ağıllı məliyin siyasəti ilə araşdırma və yoxlamanın nəticəsindən sonra fitnə-fəsadın səbəbi ortaya çıxdı və rəiyyətin rifahına səbəb oldu.

Məhcubə dedi:

-Nə gözəl, nə yaxşı gətirdin bu çox faydalı hekayəti və bu nadir məsəli. Həm də o məliyin hekayəti buna oxşayır ki, bəzirgan qızı ilə həyasız qulam

arasında ehtiyat ilə hökm eylədi və araqarışdıran günahkar qulamın günahı üzə çıxdıqdan sonra onu edam etdirdi.

Əcubə dedi:

Necədir o hekayət?

Məhcubə dedi:

## Araşdırmadan sonrakı siyasət barədə Məhcubənin hekayəti

Hekayət söyləyənlər belə rəvayət etmiş-lərdir ki, Kəşmir diyarında bir bəzirgan var idi. Çox səxavətli, həm də çox dövlətli olan bu bəzirganın bəxşişlər vermək üçün qapısı hər zaman açıq idi. O bəzirganın dünya gözəli, mələklərə bənzər, ay üzlü bir qızı var idi. Belə ki, gözəl surəti dünyanı işıqlandıran vəfalı səhər günəşi kimi işıqlı, yasəmən ətirli saçları aşiqlərin ürəklərini yandıran gecə kimi qara idi. Çin müşkünə bənzər gözəl ətri quldurbaşı kimi çarəsiz qulların sinəsini dağlayır, dodağının Misir nabatı kimi şirin gülüşünə əsir edirdi. Kəşmir padşahı o gözəl ulduza bənzər həmin qızı öz oğluna nişanlayıb, nikah yolu ilə bağlamışdı. Elə ki qovuşmaq vaxtı bəlli oldu, zəmanə qaydasınca şəhəri bəzədib, gəlinin otağını qızılı xalçalarla zinətləyib, daş-qaşla bəzədilmiş zərif və ipək parçalarla qızıl kimi bəzəyib hazır eylədilər, o huriyə bənzər qızı şadlıq və sevinc içində şahzadənin görüş taxtına gətirməyi qərara aldılar.

O bəzirganın bir qulu var idi ki, o qızın üzünün gözəlliyinə aşiq olmuşdu. Neçə vaxt idi bu sirri ürəyində gizli saxlayırdı. Elə ki padşahın niyyətini və qızın vəziyyətini, bunların gördüyü işləri müşahidə eylədi, gözlərindən sel kimi yaş axıdıb dedi ki, əgər bu ayrılıq baş tutarsa, o zaman vüsal ümidi kəsiləcək. Ən yaxşı yol odur ki, şahzadə qızı özünə aparmamışdan əvvəl bir hiylə eyləyəm. Həmin hiylənin səbəbi ilə arzuma çatıb, o qızdan muradımı alam. O çörək itirən qəddar kafir şərəfli bəzirganın evində bu fikirlə xəyanət eylədi.

Bəzirgan bütün var-dövlətini ona etibar edib, onu xəzinədar eyləmişdi. O qulam gizlincə xəzinənin içində bir quyu qazıb, oradan da öz hücrəsinə bir yol açmışdı. O quyunun ağzını cürbəcür şeylərlə örtüb, üzərinə də təmiz palazlar salmışdı. O palazın kənarına içərisində zər-ziba dolu, ağzı bağlı bir kisə qoymuşdu. Fürsət gözləyirdi. O vaxt ki xacə padşah sarayına getdi, qızı da öz yaxın adamlarından aralı gördü, tez qızın yanına gəldi. Xəzinənin açarını qıza verib dedi:

-Atan sənin üçün bir kisə qızıl doldurub xəzinədə palazın kənarına qoydu. Tez get götür, şəxsi işlərinə sərf eylə. Mənim işlərim çox olduğu üçün gətirə bilmədim.

Qız bu sözləri eşidib dərhal açarı aldı və xəzinənin qapısını açdı. İşdən xəbərsiz, qafil halda palaza doğru gedib, qızıl dolu kisəni götürmək istədi.

Qəflətən həmin quyuya düşdü. Bu çirkin fikirli qulam tez xəzinəyə girib quyunun ağzını əvvəlki kimi bərkitdi və sakitcə öz hücrəsinə gəldi ki, o hurimisal və pəriyə bənzər qızı zirzəmidən çıxara. Qız özünü qulamın şəhvət qəzəbinə düşdüyünü görüb fikirləşdi ki, bu məsələdə təşvişə düşmək və qəmlənmək ağıllı iş deyildir. Bunun çıxış yolu odur ki, onun hiyləsinə qarşı məkr eyləyəm. Necə ki demişlər: “Fəsadçıya fəsadla cavab ver”.

Elə ki qulam onu zirzəmidən çölə çıxartdı, o aya bənzər qız gül kimi açılmış halda onun üzünə gülüb dedi:

-Ey dost, neçə müddətdir ki, mən sənin gözəl görkəminə mail olmuşam. Belə bir günü göydə axtarırdım, yerdə əlimə düşdü. Əgər sənin vaxtında mənə meylin olduğundan xəbərim olsaydı, bu qədər möhnət və məşəqqət çəkməzdim. Belə olan halda mənim səninlə dostluğumdan o vaxt ləzzət alarsan ki, məni bu diyardan alıb başqa bir uzaq diyara aparasan. Elə ki xəlvət bir yerdə sakin olduq, ayrılıq əzabından qurtarıb, könlümüz necə istəyirsə o cür də bir-birimizdən kam alarıq.

Bu cür sözlərlə qulamı aldadıb sakitləş-dirdi. O zaman ki axşamın vaxtı gəldi, ayla günəşi bir-birinə qovuşdurmaq üçün padşahın hərəmxanasından qızı aparmağa gəldilər. Nə qədər axtardılarsa, qızdan xəbər-ətər olmadı. Heç kim onun yerini bilmədi. Bəzirgan bu

tezliklə bədbəxtliyin hücumundan çox pərişan oldu və incindi. Tezliklə xalqın içərisində söz-söhbət yayıldı və hamı hüznlənib, təəssüf etdi.

Bu tərəfdən də qız aşiq qulamı hər cür mehribanlıq və yalanlarla aldadıb, xəzinənin açarını ondan oğurladı. Gizlicə açarın üstünə yazdı ki, "Ey xacə, sənin qızın qulamın otağındadır. Bu həyasız qulun məqsədi odur ki, xacənin halını və məlik tərəfin vəziyyətini yoxlaya. Qızı çox ehtiyatla həbs eyləyib". Sonra açarı yenə də oğurladığı yerə qoydu. Qulamın bu işdən xəbəri olmadı. Xacə bir iş üçün qulamı çağırıb, xəzinənin açarını ondan aldı və istədi ki gedib xəzinəni açsın. Açara baxanda o yazını görüb oxudu. O saat vəziyyəti padşahın adamlarına söylədi. Padşaha xəbər çatan kimi dərhal əmr eylədi, qulamı tutdular və qızı onun saxladığı yerdən tapıb çıxartdılar. Qəddar qulam ah-fəğan edib dedi:

-Bu işdə mənim günahım yoxdur. Bu qız mənə aşiq olmuşdu və mən bu işdə gör ki, Yusif[16] kimi günahsızam.

Məlik dedi:

-Bu iş çox müşkül və şübhəlidir. Tamamilə araşdırılıb müəyyən olmayınca hökm çıxarmaq olmaz.

Qız dərhal dedi:

---

[16] Yusif peyğəmbərin macərası nəzərdə tutulur. Quranda deyildiyinə görə, hz. Yusif Misirdə Züleyxanın fitnəsi ilə günahsız olaraq zindana atılmışdı.

-Allah qorusun. Əgər bu xəyanət məndən olsa idi, bu həyasız qulamın bu cür əməlini bildirməzdim və onun xəyanətkar əlini ismət ətəyimdən uzaq eyləməzdim. Bu lağımı ki bu bədbəxt öz çörək xəzinəsində qazmışdır və açarı mənə verib, məni oraya göndərməsinin özü mənim günahsızlığıma şahiddir.

Məlik dedi:

-Əgər doğrudan da onun evində bu cür lağım olsa, şəksiz aydın olur ki bu xəyanət o qulamdandır.

Araşdırıb yoxladılar və gördülər ki qız düz deyir. Qulamın xəyanətkar olduğu ortaya çıxdı.

Padşah dərhal əmr eylədi, o qızı dəbdəbə ilə şahzadənin otağına apardılar. Xain qulamı neçə gün xalqın qınağına məruz qoyub, sonra da bir çox əzablarla incidib, cəza meydanında dar ağacından asdılar.

Məhcubə dedi:

-Bu məsəli onun üçün gətirdim ki, aləm mülkünün sultanı siyasət tərəfi ehtiyatsız qoymayıb, əxlaqsızın zülmünə qarşı işi diqqətlə yoxlasınlar. Ta ki, sonralar peşmanlıq atəşi ilə yanmış olmayalar. Fitnə-fəsad əhli bunların qorxusu səbəbindən pis əməllərdən və zülmü-inaddan özlərini uzaq edələr. Mehriban Allah bütün xalqı günahlardan və fitnələrdən həmişə qorusun.

# DÖRDÜNCÜ BAB
## İgidlik və sözdən dönməmənin mədhi

Dördüncü gün ki böyük nur qaynağı şərqin üfüqündən baş qaldırdı və cahanın qara paltarını çıxardıb qızılı xələtlər geyindirdi, şah Səmmah padşah taxtında qərar edib, məmləkətin xeyir-karını işıqlı yolların şərtləri üzərində tamama yetirdi. Elə ki bu dünyanın günəşi qərb diyarına səfər eylədi, şah Səmmah öz hücrəsinə gəlib bir saat Əcubə və Məhcubənin xoş söhbətlərini dinlədi və bunların bir-birindən seçilməyən gözəl ağıllarından sual etdi ki, igidlik və şücaətin faydası nədir və bu şücaətin forması hansı xasiyyətdir?

Əcubə dedi:

-Şahın ömrü əbədi olsun. Şücaət şərəfli xasiyyətdir. Ona görə ki, hər kimin yaradılışında sözündən dönməməyə bir nişan olsa, mütləq onun nəfsinə bir ziyan yetişdiyi vaxt özünü saxlamağa qüdrəti çatar. İgidlik və şücaət necə ki xalqın yanında bəyəniləndir, Haqq yanında da sevimlidir. Necə ki həzrəti peyğəmbər bir hədisi-şərifində buyurur: "İnsanlara ziyanlıq verən bir ilanı öldürmək qədər də olsa belə, cürətli və comərd olan insanı Allah-Təala sevər". Bu işləri yerinə yetirməklə də neçə bəlalar uzaqlaşar və neçə xeyirlər hasilə gələr. Necə ki o

sərkərdənin[17] oğlu şücaəti səbəbiylə ehtiyac və kasıblıqdan sonra çoxlu var-dövlətə qovuşdu.

Məlik Əcubəyə dedi:

Necədir o hekayət? Söylə eşidək.

Əcubə dedi:

**İgidlik barədə Əcubənin hekayəti**

Hekayət söyləyənlər belə nəql etmişlər ki, Şam bölgəsində bir igid sərkərdə var idi. Neçə illər şahlara qulluq etmişdi. Onların əmrlərinə can-başla əməl etdiyindən çox varlanıb, özünə hədsiz-hesabsız var-dövlət yığmışdı. O sərkər-dənin gözəl surətli və şirindil bir oğlu var idi. O oğlunu məktəbə qoyub elm və ədəb öyrətdikdən sonra silahlardan istifadə etmək qaydalarını da tamam öyrətmişdi. Axırda bütün var-dövlətini onun öhdəsinə verdi və dedi:

-Ey oğul, bundan sonra ömrüm olduqca heç bir şeyə ehtiyacım yoxdur və bu əsgərlikdən təqaüdə çıxdım. Ona görə ki, işimdən mənə külli miqdarda var-dövlət gəldi. İndi isə belə məsləhətdir ki arzun varsa, istədiyin qədər mal alıb ticarətlə məşğul olasan.

Oğlan atasının məsləhətinə əməl edib və tapşırığına boyun əyib, xeyli mal alıb ticarətlə məşğul olmağa başladı. Elə ki cənub dənizinin sahilinə çatdı, çoxlu qazanc xəyal edib, dəniz səfərinə həvəs eylədi. Bir gəmi satın alıb, o ölkənin malları ilə gəmini

[17] Sərkərdə - Qoşun başçısı

doldurdu. Xoş əhvalda o gəmiyə oturdu. Bir-iki gün gözəl səmt küləyi olduğu üçün gəmi xeyli yol getdi. Gecə qəfildən tufan başlayıb, dəniz təlatümə gəldi. Əks istiqamətdə külək başlayıb gəminin yelkənlərini dağıtdı və lövbərləri qırıb dalğaların öhdəsinə buraxdı. Dəniz quldurları bu başını itirmiş ticarət gəmisini görüb, hücum eylədilər. Onları qarət edib, gəmini də dənizdə batırdılar. Çarəsiz qalan sərkərdənin oğlu özünü min bir əzab-əziyyətlə başqa bir gəmiyə çatdırıb xilas oldu. Bütün mal-dövləti əlindən çıxıb, tamam müflisləşdi və gətirdiyi böyük miqdarda zəngin sərvəti əlindən çıxdı. Belə məlum olur ki, mal-dövlətin bolluğuna etibar etmək olmaz.

Elə ki sərkərdəyə xəbər çatdı, oğlu dəniz səfərinə çıxıb, başına da bu cür işlər gəlib, çox pərişan oldu. Oğlundan bir soraq almaq məqsədi ilə hazırlıq görüb arxasınca yola çıxdı. Ta ki, cənub dənizinin sahilinə çatıb, oğlundan bir xəbər öyrənə. Bədbəxtlik üst-üstdən gəldi. O yerlərdə bir neçə kafir quldur var idi. Quldurlar çarəsiz sərkərdəni tutub əsir eylədilər. Əvvəl oğlunun düşdüyü fəlakət, ikinci var-dövlətin əldən çıxması, üçüncü qürbət diyar və dördüncü kafirlər əlində əsir olmaq.

Sərkərdənin oğlu fəlakət zamanı mindiyi gəmidə olan tacirlərin hər birinə mehribanlıq göstərir, onların yemək artıqlarını yığıb öz nəfsini öldürürdü. Qəfildən dənizin üzündə uzaqdan bir gəmi peyda oldu.

Dənizçilər təcrübə və məharət yolu ilə bildilər ki, bu quldur gəmisidir. Qəsdi odur ki bunların gəmisini alıb, özlərini əsir və mallarını da tarac edələr. Odur ki, gəmidəki adamların qorxusundan taqəti kəsilib bihuş oldular. Acizlik və heyrət içərisində qalıb, onların çoxluğunun qorxu-sundan az qaldı ki nəfəsləri kəsilsin. Elə ki sərkərdənin oğlu bunların iztirab çəkdiklərini gördü, onlara ürək-dirək verib dedi ki, neçə ki mən həyatdayam, qoymaram o həramilərdən sizə bir zərər yetişə. Tacirlər yığılıb dedilər ki, əgər bu həramilərin hücumundan bizi xilas eyləsən, malımızın bir hissəsini sənə verərik, halalın olsun. Onlar sözü bir yerə qoyub, əhd eylədilər.

Sərkərdənin oğlunun ox atmaqda kamil məharəti var idi. Sərt yay çəkib, oxu çox uzağa atardı. Havada uçan quşu uzaqdan nişan alıb, ox ilə dimdiyini iki yerə bölərdi. Öz-özünə fikir edib dedi ki, bu işdə ox-kamandan başqa bir şeyə imkan yoxdur. O saat ox-kamanı hazır eylədi. Elə ki quldurlar ticarət gəmisinə hücum etdilər, sərkərdənin oğlu kamanı əlinə alıb onlarla döyüşməyə başladı. Hər oxu atdıqca onlardan birini öldürürdü. Bu minvalla o, şücaəti sayəsində quldurların çoxunu məhv eyləyib, onlara qələbə çaldı. Talançıların var-yoxlarını və gəmisini ələ keçirdi. Tacirlər ona dua edib, əllərindən nə gəldisə yardım etdilər.

Nəhayət, gəmidəkilərin hamısı sağ-salamat sahilə çıxdılar. Gəmidə verdikləri sözlərinin üstündə durub, mallarının bir hissəsini ona verdilər. Sərkərdə oğlunun əlindən alınan malından daha çox mal əlinə gəldi. Fikir eylədi ki, Allahın lütfü-kərəmindən və igidliyim sayəsində daha çox dövlət qazandım. Artıq tamahlıq eyləməyib, vətənə dönmək lazımdır. Olmaya ki, xam xəyal edib, yenə belə bir bəlaya düşəm. – deyib, əlindəki mal-dövləti də götürüb vətənə doğru getməyə başladı. Odur ki, bir neçə gün yol gedib, xeyli mənzil qət eylədi. Qəfildən yol kəsən həramilər karvanın yolunu kəsib, istədilər ki bütün mallarını qarət edələr. O cavan və şirindil cəngavər silah bağlayıb, yel qanadlı bir ata mindi. Qeyzə gəlib şücaətlə yay-ox və nizəylə ildırım kimi onların üzərinə şığıdı. Çoxunu qətlə yetirib yerə sərdi. Bu davadan sağ qalan quldurlar qaçıb-dağıldılar. Onların başçısı yaralanıb əsir düşdü. Sərkərdənin oğlu istədi ki yer üzünü bu pis yaramazın şər hərəkətindən təmizləyə. Qılıncı çəkib öldürmək qəsdi ilə üzərinə gəldi. Kafir aman diləyib dedi:

-Əgər mənim canımı bağışlasan, sənin yolunda çoxlu mal-dövlət qurban edib, əlimdə nə qədər əsir varsa hamısını həbsdən azad eylərəm.

Sərkərdənin oğlu dedi:

-Sənin həyatının davamı bir neçə adamın xilasına səbəb olacaqsa, sənə aman verdim. Amma gərək o dustaqları təcili gətirdəsən.

Kafir bir məktub yazıb adamlarına göndərdi. Məktub yerinə çatan kimi bütün əsirləri gətirdilər. Sərkərdənin oğlu sözünə əməl edib quldurbaşını azad eylədi.

Sən demə, bu əsirlərdən biri oğlanın öz atası qoca sərkərdə imiş. Oğul elə ki atasının üzünü gördü, bihuş olub özündən getdi. Huşu özünə gəldikdə ağlayıb atasının əlindən-ayağından öpüb, hörmət-izzətlə hal-əhval soruşub, bu vəziyyətin necə baş verdiyini xəbər aldı.

Atası cavab verib dedi ki:

-Sənin məhəbbətin məni bu dözülməz əziyyətə saldı.

Oğlu da öz başına gələn bütün sərgüzəştləri atasına danışdı. Ticarətə göndərdiyi malın tələf olub, gəmisinin qərq olduğunu bir-bir bəyan eylədi və dedi:

-Ey ata, sənin uğurlu qeyrətinlə Haq-Təala yardım edib, mənə başıma gələn o müsibət-lərdən sonra bu qədər çox mal və dövləti qismət eylədi.

Sərkərdənin oğlu şücaətin bərəkəti və təhlükələrdən ağılla qurtulmanın qüvvəsi sayə-sində saysız-hesabsız var-dövlət qazanıb, atasını da dustaqlıq əziyyətindən və ölüm təhlükəsindən xilas eylədi.

Məhcubə dedi:

Çox gözəl dedin bu xoş hekayəti və könül açan məsəli. Həm də bu, o şahzadənin hekayəti kimidir ki, igidliyi səbəbiylə qardaşının qanını qatildən aldı və

neçə müddət qul olduqdan sonra yenə məlik dövlətxanasına yetişdi.

Əcubə dedi:

-Necədir o hekayət?

Məhcubə dedi:

**İgidlik barədə Məhcubənin hekayəti**

Hekayət söyləyənlər belə rəvayət etmişlərdir ki, Bağdad şəhərində bir padşah var idi. Ölkə xalqı onu çox sevər və hər bir əmrinə can-başla əməl edərlərdi. Hökmü hər yerdə keçərdi. O padşahın bir oğlu var idi. İgidlik məqamına çatıb, bacarıqlı bir oğlan olmuşdu. Padşah oğlunun ağıl-kamalına hədsiz dərəcədə mail olmuşdu. Həmişə onu sevib-əzizləyər, xatirini əziz tutub, gözü önündə saxlayardı.

Padşahın iki dənə "gecə çırağı" adlanan mirvarisi[18] var idi ki, hər birinin qiymətinə Qarunun[19] xəzinəsi belə yetməzdi. Həmin gövhərləri qızıl halqalarla bağlayıb oğlunun qulağına taxmışdı ki, oğlu bu bəzəklərdən xoşhal olsun. Bu şahzadə həmişə ovçuluğa həvəs edib, kef və nəşə içərisində şikara çıxardı. Şahzadədən başqa heç kəsin o ov yerinə

---

[18] Bu mirvarilər gecə işıq saçdığı üçün bu adı almışdır. İran şahlarının əfsanəvi almazı.

[19] Qarun – Dini rəvayətə görə, Musa peyğəmbərin zamanında yaşamış çox dövlətli bir adam. Dini rəvayətlərdə onun xəzinələrinin açarları bir qatar dəvənin yükü olduğu söylənir. Xəsisliyi ilə məşhurdur.

getməyə ixtiyarı yox idi. Ora elə bir yer idi ki, xoş ətirli və cürbəcür çiçəklərlə cənnət bağçası kimi bəzənib, insanda gözəl hisslər oyadırdı. Hər tərəfə elə bil ki, tovuz quşunun lələkləri kimi naxış vurulmuşdu.

Bir gün şahzadə o gözəl məkanda ov eyləmək üçün şikara çıxmışdı. Qəfildən bir qorxunc şir çıxıb dəhşətli hücumla şahzadənin üzərinə cumub, dəmir kimi qüvvətli pəncələri ilə bir anda tutub şahzadəni parçalayıb yedi. Bu faciəli hadisəni padşaha xəbər verdilər. Padşah min bir ahu-zar edib, o şiri öldürmək üçün qoşunu da götürüb yola düşdü. Hər tərəfdən qəhrəmancasına, şirə hücum eylədilər. Ancaq şir pusquda dayanıb, adamları və atları bir-bir öldürüb yerə atırdı. Bu qayda ilə qoşunu tamam qırıb-çatdı. Heç kim ona əl yetirib, hətta bir yara belə vura bilmədi. Padşah bu işə aciz qalıb geri döndü. Ondan sonra heç kimsənin həvəsi olmadı ki bir də o yerlərə ayaq basa.

Padşah oğlunun şirdən qalan parçalarını dəfn eylədi. Qulaqlarındakı o iki dənə gövhəri alıb şəhərdə car çəkdirdi ki, hər kim o şiri öldürüb mənim sinəmin yarasına məlhəm eyləsə, bu iki gövhəri çoxlu hədiyyələrlə birlikdə ona verərəm. Şah nə qədər vəd eylədi, igidləri həvəsləndirməyə çalışdı, ancaq heç kimin cürəti olmadı ki o gövhərlərə tamah edib, şirin həndəvərinə yaxınlaşa.

O sıralarda Bağdad şahının arvadından bir oğlu da dünyaya gəldi. Gözəl xasiyyətlilik və mərdlik

yaradılışından bəlli oldu. Sir-sifətindən igidlik yağırdı. Elə ki, vaxt tamam oldu, fağır-füqəra və miskinlərə çoxlu hədiyyələr verib, onları sevindirdilər. Oğlanın anası qiymətli gövhərləri o uşağın qulağına taxdı. Padşah arvadı ilə söhbət edərkən kefinin saz vaxtı bunu gördü. Qeyrət atəşi ciyərini yandırıb, o ölən oğlunun ayrılıq həsrəti yenidən ürəyini dağladı. Hirslənib, acıqla körpənin qulağını gövhər-qarışıq kəsib anasının əlinə verdi. Padşah bu işə o qədər qəzəblənmişdi ki, həmin uşağın hətta atalığından belə imtina edib, onu qul sifəti ilə hardansa gəlmiş bir bəzirgan tapıb satdı. Bəzirgan həmin şahzadə uşağı da götürüb Səmərqənd tərəfə apardı. Orada uşağı bir qalanın başçısına satdı.

Elə ki uşaq bir qədər böyüdü, tərbiyəsinə xüsusi fikir verib, hərb qaydalarını və silahlarla rəftar eyləmək elmini təlim eylədilər. Həddi-büluğa çatanda elə bir igid, qoçaq və şir kimi bir oğlan oldu ki, oralarda tayı-bərabəri tapılmadı.

Bir gecə qalada olan adamlar yuxuda ikən bir quldur dəstəsi o qalaya yol tapıb, qalanı zəbt eylədilər. Şahzadəni uzaqda görüb, ona heç əhəmiyyət vermədilər.

Şahzadə qala əhalisinin bu cür acizlik və zəifliyini gördü, qeyrət damarında qanı cuşə gəldi. Bir göz qırpımında oddan törəmiş div kimi özünü quldurların ortasına atdı. Güclü bir yumruq zərbəsi ilə o quldurların birini öldürüb, onun qılınc-qalxanını əlinə

aldı. Sağdan-soldan hücum edib öldürdüyünü öldürdü, sağ qalanları isə qorxudan yaralı halda ətrafa səpələndi.

Qalanın başçısı onun bu qəhrəmancasına döyüşünü seyr edirdi. Düşmənləri təkbaşına darmadağın etdiyini görüb çox sevindi, kefi açıldı. Xəzinəsini açıb ona çoxlu bəxşişlər verdi, özünü də qoşununa başçı təyin eylədi. Şahzadənin gücü-qüvvəti və ad-sanı o diyarda hər tərəfə yayıldı.

Aradan xeyli zaman keçdi. Bir gün bir tacir karvanı Çin tərəfdən gəlib Bağdada doğru getmək istəyirdi. Amma o yollarda bir dəstə quldur peyda olub yolları kəsmişdi. Tacirlər həmin oğlanı pulla tutub karvanı quldurlardan qorumasını və Bağdada kimi onlara yoldaşlıq etməsini istədilər. Həmin oğlanın qorxusundan quldurlar karvana toxunmadılar. Karvan sağ-salamat gəlib Bağdada çatdı. Padşah karvanın sağ-salamat gəldiyini eşidib çox təəccüb eylədi. Tacirləri çağırıb, necə gəldiklərini soruşdu:

-Belə bir təhlükəli zamanda sizi nə məcbur etdi ki, bu yollarla səfər etdiniz, bəs o təhlükəli yerlərdən necə keçdiniz?

Tacirlərdən biri dedi:

-Bir cavan igid pəhləvan bizə yoldaş olub, karvanımızı sağ-salamat bu diyara gətirdi. O elə bir pəhləvandır ki, özünü bir qoşuna vursa onun heybətindən o qoşun qaçıb dağılar.

Bağdad şahı dedi:

-Bizim buralarda bir qoruq ov yeri vardır. Orada bir böyük şir peyda olub. Neçə illərdir ki onun qorxusundan heç kim o tərəflərə ayaq basa bilmir. Həmin şirlə bizim aramızda bir qan məsələsi vardır. Bu şir mənim ömür bağımın ilk meyvəsini zülm ilə məhv eyləmişdir. Əgər bu cavan oğlan o şiri öldürə bilsə nəzir dediyim o iki gövhəri həmin igidə verərəm, həm də mal-dövlətdən bacardığımı ondan əsirgəmərəm.

Bəzirgan şahzadəyə bu işi xəbər verdi. Şahzadə tez yerindən durub şiri ovlamaq üçün həmin yerə tələsdi. Hər cür döyüş silahları götürdü, atına minib şir olan yerə gəldi. Elə ki şir göründü, şahzadənin atı ondan qorxub qaçdı. Şahzadə atdan enib özünü yırtıcının üzərinə atdı. İgidcəsinə əl uzadıb yırtıcıya hücum eylədi. Şir də bu tərəfdən pəncəsini gərib, ağzını açdı və şahzadəyə hücum etdi. Şahzadə əlini dirsəyinə kimi şirin ağzına soxdu. Bir anda çəkib hülqumunu qopardı. Şir dərhal gücdən düşüb yerə yıxıldı. Şahzadə şirin başını kəsib Bağdad şahının önünə gətirdi. Şah bu işdən şad olub əmr eylədi, şəhəri bəzədilər. Fağırlara və miskinlərə sədəqələr payladı. Ondan sonra padşah şahzadəni taxtına oturdub çox böyük rəğbətlə tərif eylədi. Sonra da istədi ki, o iki qiymətli halqaları öz əli ilə onun qulağına keçirə. Elə ki oğlanın kəsilmiş qulağını gördü, o saat tanıdı ki bu onun öz oğludur. Ağlı başından gedib, huşsuz halda yerə yıxıldı. Ayılıb özünə gəldikdə belə dedi: "Gözəllik gözəlliyə

qovuşdu!” Oğlunu yüz nazü-işvəylə bağrına basıb, üz-gözündən doyunca öpdü. Bu qəfil hadisə bütün Bağdad şəhərinə bir anda yayıldı. Anası da onu görüb tanıdı. Şad olub, çox nəzir-niyaz dağıtdı.

O şahzadə igidliyinin sayəsində qardaşının qatilindən qisas aldı. Həm də qürbət zəlilliyindən və ata-ana ayrılığından qurtardı.

Məhcubə dedi:

-Bu məsəli onun üçün gətirdim ki, dünyada mərd olan kəslər həqiqətən biləlvarlar ki, şücaət və igidliyin təsirləri çoxdur. Onun səbəbiylə bir çox murada çatarlar. Haqq-Təala bütün xalqı o xasiyyətin səmərəsindən bəhrələndirə və səltənət mülkünü o hünərin nəticəsindən faydalandıra.

# BEŞİNCİ BAB
## Səxavətin bəyanı

Elə ki beşinci gün oldu, dörd cəhət qübbəsinin şahı olan günəş şərq üfüqündən üz göstərib, dünya aləminə qızıl tabaq ilə simü-zər bağışladı. Cahanın zülmət paltarını çıxarıb, ağ xələt ilə şərəfləndirdi. Şah Səmmahın taxtını gözəl atlaslarla bəzədilər. Şah şan-şövkətli və heybətlə səltənət taxtında təmkinlə əyləşdi. Səhərin başlanğıcından  ta axşam vaxtına kimi rəiyyətin məsələlərini icra edib, ədalətlə məşğul oldu. Əmirlər, vəzir-vəkillər və qoşun başçıları cürbəcür bəxşişlər və hədiyyələrlə mükafatlan-dırıldı.

Elə ki ulduzların şahı bu aləmdən üz döndərdi, qərb ordusunun əskərləri şərqin üzərində qələbə çaldı. Şah Səmmah əvvəlki adəti üzrə məmləkətin mühüm məsələlərinin həllini tamam edib, Əcubə və Məhcubənin yanındakı məqamına gəlib əyləşdi. Şah özünün rahatlıq şərəfi ilə onları şərəfləndirdi və söhbət zamanı onlardan soruşdu ki:

-Alicənablıq və əliaçıqlıq kimlərin adətidir və o xasiyyət kimə daha çox layiqdir?

Əcubə dedi:

-Şahın ömrü əbədi olsun. Əliaçıqlıq bir qiymətli libasdır ki, hər yerdə rast gəlinir və bir gözəl bəzəkdir ki, bütün xalqın yanında sevimlidir. Hər kim əliaçıqlıq eyləsə çox gözəl olur. Amma səltənət məlikləri o sifətə

daha çox layiqdir. Ona görə ki, şahlar səxavətdən və bəxşişlərdən əl çəkib, ənam və hədiyyə qapılarını xalqın üzünə bağlamayalar. Əgər şahlar qəddarlıqla xəsislik eyləsələr, onların mülkünə pozğunçuluq və nöqsanlar gələr. Bəlkə də dağılma və məhv olmanın qorxusu yaranar. Belə bir söz demişlər ki; "O vaxt ki məliklər qızıl kimi olmadı, dövlət də qızıl kimi olmaz!"

Bu sözlərdən sonra aydın olur ki, səxavət peyğəmbər yoludur və məliklər üzərində Allahdan əmr olunmuşdur. Xalqdan hər kim ki alicənablıq zinətini özünə bəzək eyləsə, xalq içərisində həmişə əziz və möhtərəm olar. Comərdlik və səxavətdən neçə xeyirlər qazanar. Hər cür rahatlıq müşahidə olunar. Necə ki, o bəzirganın qulamı səxavətin bərəkəti ilə böyük şahlığa çatdı.

Məlik Səmmah soruşdu:

-Necədir o hekayət?

Əcubə dedi:

**Səxavət barədə Əcubənin hekayəti**

Hekayət söyləyənlər belə nəql etmişlər ki, bir bəzirganın bir alicənab qulamı var idi. Bəzirgan həmin qulamı da yanına alıb bir iş üçün dəniz səfərinə çıxmışdı. O gəmidə hər tərəfdən çoxlu adam vardı. Gəmi bir müddət yol getdikdən sonra səmt küləyi əks istiqamətdə əsməyə başladı. Bu səbəbdən gəmi xeyli zaman dənizdə lövbər salıb, dayanmalı oldu. İş o yerə çatdı ki, gəmidə yemək-içmək azalmağa başladı.

Səyyahlar ərzaq qıtlığından əziyyət çəkib, ah-fəryad eylədilər. Bəzirganın isə yemək ehtiyatı bol idi. O adamlar çarəsizlikdən bəzirgandan baha qiymətə yemək-içmək satın alıb nəfslərinin istəyini öldürürdülər. Bəzirgan da həddən artıq varlı idi. Amma xəsislikdə heç kim ona çata bilməzdi. Öz qulamına gündə bir parça çörək və bir qədər su verirdi. Ərzaq ehtiyatını çox ciddi şəkildə qoruyurdu. Gözləyirdi ki, müştərilər daha çox pul versinlər.

Gözəl bir qız da öz yaxınlarından bir adamla o gəmidə idi. Onların azuqəsi tamamilə qurtarıb, cah-cəlallı dövlətdən yoxsulluq zillətinə düşmüşdülər. Küləyin tərs əsməyi onlara da acı şərbət içirmişdi. Bəzirganın qulamı həmin qızın bu cür aciz qaldığını görüb, alicənablıqla öz yemək-içməyini ona verər, özü isə çox vaxt ac-susuz qalardı.

Qız bir gün mehribanlıqla qulama dedi:

-Ey qulam, sənə çox zəhmət oldu. Ağan sənə yüz minnət ilə bir loxma çörək verir, sən də alicənablıq və qəlbi genişliklə onu mənə verirsən. Belə görünür ki, sən çox səxavətli adamsan. Əlbəttə bu əliaçıqlıq da səni hörmət etməyə meyl etdirir. Heç olmasa arabir öz nəfsinin ehtiyaclarına da əməl eylə. Mən sənin qismətindən bir içim suya da qane olaram.

Qulam dedi:

-Yaxşılıq və xeyirxahlıq barədə hər nəyə ki qadirəm, bacardığımı insanlardan əsirgəmərəm.

Bir neçə müddət qulam bu yolla öz xeyirxahlığına davam eylədi. Ta o vaxta qədər ki, xəsis bəzirgan bu sirri bildi və hirslənərək qəzəbli halda heç nə düşünmədən o qulamı dənizə atdı. Allahın sonsuz lütfü dənizdə köməksiz qalan o qulamı qorudu. Bir parça taxtanın üstünə çıxıb, dənizin üzündə qaldı. Könlünü Haqqa bağlayıb, bir neçə müddət dənizdə üzdü. Nəhayət, böyük Allahın mərhəməti ilə bir sahilə yetişdi. Kənara çıxıb bir qədər dincəldikdən sonra yemək tapmaq ümidi ilə sahildə gəzməyə başladı. Təsadüfən çox qiymətli bir yaquta rast gəldi. Çəkisi təxminən yüz misqal[20] olardı. O qiymətli yaqutu da götürüb bir yaşayış məskəninə doğru getməyə başladı.

Bu tərəfdən də bəzirgan tutduğu işə çox peşman olmuşdu. Təəssüflənərək ah-zar eylədi. Ancaq peşmançılığın nə faydası olacaqdı ki? Artıq gec idi.

Axır ki, səmt küləyi əsməyə başladı və gəmi sağ-salamat sahilə yan aldı. O diyarın padşahı ov üçün həmin sahilə gəlmişdi. Sahildəki gəmi diqqətini cəlb elədi. Gəlib gördü ki, bu bir ticarət gəmisidir. Tacirlər də sahilə çıxıb dincəlirlər. İstədi ki onlardan bir qədər mal ala. Qəfildən gözləri o qızın aya bənzər üzünə tuş oldu. O gözəl əndamın qəmzə oxu padşahın ürəyini hədəfə alıb kirişindən qopdu və kölünü ovladı. Padşah onlarla məsləhətləşib, qızı şəriət yolu ilə özünə nikah

---

[20] Misqal- 4.68 qrama bərabər qədim çəki vahidi

eylədi. Böyük dəbdəbə və təmtəraqla vüsal otağına gətirdi. O qıza yenə də səadət üz göstərdi. Günbəgün var-dövləti artmağa başladı. Bir neçə müddət bu qayda ilə yaşadılar. Axırda ölüm vəkili və heçlik mələyi o padşaha hücum eylədi. Padşah bu möhnət evindən köç eyləyib, axirət evinə yola düşdü. Ancaq padşahın heç bir varisi yox idi ki ölkəyə sahib və rəiyyətə hakim ola. Xalq həmin qızı məcbur edib hakimiyyət taxtında oturtdular. Bütün qoşun və rəiyyət hamılıqla o qızın padşahlığını qəbul edib, ona tabe olub itaət eylədilər.

Yazıq qulam tək-tənha o qiymətli gövhəri də götürüb alver məqsədi ilə şəhərbəşəhər bir müddət gəzib-dolaşdı. Bir gün bir yığıncaqda tacirlər söhbət edib, öz mallarını bir-birinə göstərirdilər. Qulam gəzə-gəzə gəlib onların məclisinə çıxdı. İstədi ki o qiymətli gövhəri onlarla sövdələşib sata. Əlində sərmayə edib, onunla başını dolandıra. Qəfildən xəsis bəzirgan oraya gəldi. Qulamı görüb tanıdı. Onun sağ qalmağına çox təəccübləndi. Qulamın əlindəki gövhəri görüb, ona tamahı düşdü və istədi ki onu qulamın əlindən alsın. Birdən nalə və fəryad eyləyib dedi:

-Ay camaat, neçə illərdir ki, bu qəddar və hiyləgər mənim ciyərimə həsrət atəşi vurub, mənə zülm eyləmişdir. Mən də dəli külək kimi əsib-coşuram. Gözlərimdən sel kimi yaşlar axır. Neçə zamandır ki, aləmi gəzib-dolaşıram. Bu qiymətli gövhəri hələ neçə nəfis cəvahirlərlə birlikdə məndən oğurlayıb qaçmışdır.

Qulam onun bu sözlərini inkar eylədi. Hər ikisi o qədər mübahisə etdilər ki, axırda iş vuruşmağa gəlib çıxdı. Bəzirganlar onları sakitləşdirib, belə məsləhət eylədilər ki, onlar bir hakim yanına getsinlər. Hakim onların mübahisəsini ədalətlə həll eyləsin. Tacirlər onları başa salıb dedilər ki, bu yaxında bir böyük şəhər vardır. Oranın padşahı çox ədalətli bir qızdır. Bunun kimi davalar onun hüzurundan başqa yerdə həllini tapa bilməz. Onun hüzuruna getməyiniz məsləhətdir. Ta ki, haqqı batildən ayırıb qəzəbinizə hökm eyləyəsiniz. Orada sizin əlinizə gözəl dəlillər veriləcək. Haq və nahaq ortaya çıxacaq.

Bəzirgan və qulam onların məsləhəti ilə padşah olan şəhərə doğru yol alıb getdilər. Elə ki padşahın hüzuruna gəldilər, bəzirgan öz şikayətini dilə gətirdi. Padşah pərdə arxasından diqqət edib, yəqinliklə qulamı tanıdı. Bir az tərəddüd edib fikirləşdi ki, bu qulam dənizə düşmüşdü. Görəsən nə yolla xilas olmuşdur? Yenə düşündü ki, Haq-Təala səni möhtac ikən padşah eylədi. Onu dəryadan xilas eyləmək Allahın əlində çoxmu çətin işdir? Bu fikirlərlə pərdə arxasından dedi:

-Ey qulam, xilas doğru söyləməkdədir. Qorxma, hal-qəziyyəni doğru söylə görək, bu qiymətli gövhəri necə əldə eylədin? Harada əlinə keçdi və bu bəzirgan səndən nəyə görə gövhəri tələb edir?

Qulam başına gələnləri danışmaq üçün bir qədər duruxdu. Ondan sonra tam cürətlə cavab verib dedi:

-Ey məlikə, mən bu bəzirganın qulu idim. Bir dəniz səfərində vəziyyətimiz pisləşmiş, gəmidəki adamlara aclıq üz vermişdi. Bu bəzirganın isə ehtiyatı bol idi. Mən öz yemək payımı gəmidə çarəsiz qalan bir qıza verirdim. Mənim o qıza mərhəmət eylədiyimi görüb, xəsisliyindən mənə əzab-əziyyət edib, sonra da dəryaya atdı. Axırda Allahın inayəti ilə nicat tapıb, xilas oldum. Sahildə gəzərkən o gövhəri tapdım. İndi bu bəzirgan azğın tamahı ilə bu cür acgözlük edib, istəyir ki fırıldaq yolu ilə o gövhəri məndən ala.

Bəzirgan fəryad edib dedi ki:

-Bu qulam yalan və hiyləgərliklə mənim malıma yiyələnmək istəyir. Onun sözlərinin doğruluğuna iki ədalətli şahid gərəkdir.

Məlikə dərhal cavab verib dedi:

-Bu hadisəyə şahid bir qulamın öz nəfsi və bir də mən. Mənəm o qız ki, o gəmidə sizə yoldaş olmuşdu. O qulamın səxavət və yaxşılığını, sənin isə xəsislik və paxıllığını müşahidə etmişəm. Bu gün qisas günüdür! – deyib, əmr eylədi, o xəsis bəzirganın əl-qolunu bağlayıb dənizə atdılar. O comərd qulamı isə öz dövlətxanasına göndərdi. Əmr verib, qazıları və imamları hüzuruna dəvət eylədi. Məlikəni şəriət qaydası ilə o qulama nikah eylədilər. Odur ki, mülkün idarəsini və səltənətin işlərini ona təhvil verib, bütün xəzinə və dəfinələr, nə varsa hamısını qulamın öhdəsinə buraxdı. Qulamı taxt-tac sahibi edib dedi; "Yaxşılığın

əvəzi ancaq yaxşılıqdır!”[21] Həmin qulam uğurlu alicənablığının sayəsində o məmləkətə başçı olub, şan-şöhrətli padşahlıq məqamına çatdı.

Məhcubə dedi:

-Çox gözəl söylədin bu xoş hekayəti və nadir məsəli. Həm də o arşın mal satanın oğlunun hekayətinə bənzəyir ki, səxavəti səbəbiylə əzab-əziyyətdən xilas olub vəzirlik mənsəbinə və əmirlik məqamına yetişdi.

Əcubə dedi:

-Necədir o hekayət?

Məhcubə dedi:

## Səxavətlə bağışlama və yaxşılıq barədə Məhcubənin hekayəti

Hekayət söyləyənlər belə rəvayət etmiş-lərdir ki, padşah vəzirlərindən birisi həcc ziyarətinə getmişdi. Elə ki məqsədinə çatıb, əzəmətli Kəbənin camalını müşahidə eylədi, şəriət qaydalarını yerinə yetirdi, vətəninə dönmək üçün hazırlıqlarını görüb yola düşdü. Xeyli yol getmişdi ki, quldurlar qarşısını kəsib, bütün malını və cəmi var-yoxunu əlindən alıb, vəziri bir qara qəpiyə möhtac etdilər. Vəzir bu müxənnət zəmanənin şiddətli əzabından və o hadisənin məyusluğundan hədsiz dərəcədə xəstəhal və ürəyi sınmış oldu. Biçarə aciz qalıb, iztirablar içərisində dilənçi kökünə düşdü. O diyarda şəhər-şəhər gəzib-dolaşdı. Bir gün bir

[21] Rəhman surəsi - 60

arşınmalçının dükanı qarşısına gəlib gördü ki cavan, yeniyetmə bir oğlan o dükanda oturub. Gözəl surətli, xoş əxlaqlı, əsl insanlıq nişanələri yaradılışından bəlli və əmirlik görkəmi hərəkətlərindən üzə çıxır.

Bir zamanlar dövlətli vəzir indi bir qismət çörəyə möhtac olmuşdu. Amma bir kimsəyə ehtiyaclarını söyləməkdən həya edərdi. Necə ki demişlər; "Yaradılmışların içində həyadan xeyirlisi yoxdur!"

O arşınmalçının dükanı yanında sakitcə oturdu və dərin fikirlərə qərq oldu. Arşın-malçının oğlu fərasəti və ağlının gücü ilə o adamda böyüklük əlamətləri və şan-şöhrətlilik izlərini müşahidə edib, bildi ki o kişi hörmət-izzət mərtəbəsindən yoxsulluq və zəlilliyə düşmüşdür. Ancaq onun şərəfli nəfsi sirrini açmağa qoymur. Gərək mən əlimdən gəldiyi qədər bu biçarəyə yaxşılıq eyləyəm – deyə öz-özünə fikirləşdi. Atası ona ehtiyat üçün əlli qızıl vermişdi. Arşınmalçının oğlu min üzrlə o qızılları vəzirin önünə qoyub dedi:

-Bu qızılları al, ehtiyaclarına sərf eylə.

Vəzir qızılları aldı. Bu yandan da arşınmalçı gəldi və oğlundan qızılları istədi. Sən demə bu arada arşınmalçı yeni mal alıbmış, haqqını ödəməliydi.

Oğlu dedi:

-Qızılları möhtaclara verdim və axirət üçün azuqə eylədim.

Arşınmalçı xəsisliyin üzündən o dərəcəyə gəldi ki, atalıq hissini bir kənara qoyub əmr eylədi, əlli qızılı

odda qızdırıb, oğlunun əllərini onunla dağladı. Bununla da o, guya öz dərdinə əlac eylədi. Vəzir bu vəziyyəti görüb çox peşman oldu və istədi ki qızılları qaytarsın. Oğlan əzab-əziyyət içində qıvrılarkən, gizlicə işarə edib vəziri bu fikrindən daşındırdı və dedi:

-Mən o yaxşılığı geri almaq üçün eyləmədim ki, sən onu geri qaytarasan.

Vəzir o qızılları yemək-içməyinə və yola xərcləyib, bir təhər öz vətəninə gəlib çıxdı.

O xəsis arşınmalçı bir neçə müddətdən sonra oğlunun xətirini xoş edib, könlünü almaq üçün xeyli maya verdi və ticarətə göndərdi. Günlərin bir günü vəfasız zəmanə o cavanı bədbəxtlik və möhnət girdabına salıb, bütün malını əlindən aldı. Oğlan çarəsizcə yoxsulluq zillətinə və miskinliyin şiddətinə kiriftar oldu. Fikir eylədi ki, indi ki bu fağırlıq və miskinliyə düşdüm, məsləhət odur ki bir sənət öyrənib, onunla özümü saxlayım. Bəlkə bəxtim yenə gətirdi, vəziyyətim düzəldi və yenidən var-dövlətə qovuşdum. Bu fikirlə bir şəhərə gəlib çıxdı.

Bu oğlanın çox gözəl xətti var idi. Bir küncdə oturub mirzəliklə məşğul oldu. Ondan gələn cüzi qazancla bir təhər yaşadı. Bir gün bir şəxs onun yanına gəlib, əlinə bir vərəq kağız verib dedi ki, filan möhür boyunbağının yazısını bu kağıza köçür. Mən də o yazı ilə məşq edim. Sənin bu gözəl yazı xəttini mən də öyrənim. O səmimi oğlan bu şəxsin qəlbini qırmağı

insafdan görməyib, onun istədiyi kimi o möhürdəki kəlmələri yazıb əlinə verdi. O bəd əməlli məkrli hiyləgər möhür yazısının altına saxta bir barat[22] yazdı. Sən demə bu möhür yazısı vəzirin imiş. Onun vasitəsi ilə ölkənin bir vilayətindən fırıldaq yolu ilə dövlət vergilərini yığmağa başladı. Axırda bunun əməllərindən vergiyı-ğanlar divana şikayət etdilər. Vəzirlər araşdırıb gördülər ki, bu iş saxtadır. O hiyləgər saxtakarı tutub baratını tələb eylədilər. Belə məlum oldu ki, o baratda olan möhür yazısı vergilər vəzirinin yazısına tam oxşayır. Əmr eylədilər, şəhərdə olan bütün xəttatları divanxanaya çağırıb araşdırma apardılar. Arşınmalçının oğlu həmin yazını görən kimi inkar eyləməyib vəziyyəti etiraf eylədi ki, bu yazını mən yazmışam. Padşah qanunlarına əsasən o cavanın əlini kəsmək əmr olundu. Cəlladlar gəlib cavanın qolunu açıb kəsmək istəyəndə vəzir onun qolundakı yanıq yerlərini görüb, yəqinliklə arşınmalçının oğlunu tanıdı. Tez yerindən durub cavanı bağrına basdı. Ona çox böyük hörmət və ehtiram göstərdi. Vəzirlikdə ona böyük vəzifə verib, ad-san sahibi eylədi. O məlun saxtakarı dar ağacına çəkib, edam etdilər.

Vəzir xalqa üz tutub o cavanı çox təriflədi və dedi:

---

[22] Barat – arayış, icazə vərəqi

-Bu cavan çox alicənab və mərhəmətli oğlandır. Səxavətdə və sədaqətdə səhabəyə bərabərdir. Mənim möhtac olub, miskinliyə düşdüyüm zamanda mənə yaxşılıq və hörmət etmişdir. İndiki halda da o hörmətin əvəzini çıxmaq və mükafat vermək vaxtıdır!

Vəzir öz qızını məliklərə xas cehizlərlə ona verdi. Bütün mal-mülkünü və vəzifəsini onun öhdəsinə buraxdı.

Arşınmalçının oğlu vaxtilə etdiyi yaxşılıq səbəbinə qalan ömrünü bolluq və var-dövlət içində keçirib, əmin-amanlığa çatdı.

Məhcubə dedi:

-Bu məsəli onun üçün gətirdim ki, səxavətli və insaflı adamlara məlum olsun ki, yaxşılıq və xeyirxahlıq heç vaxt hədər və zay olmaz. Səxavətlilik və insaflı olmağın əvəzini Allah hər iki dünyada da verər. Allah-Təala öz qüdrəti ilə bütün xalqı və səltənət mülkünü bu sifətlərlə bəzəsin.

# ALTINCI BAB
## Əmanətin qorunması

Altıncı gün ki dünyanın günəşi qaranlığın pərdəsini yırtıb üzə çıxdı, zülmət qoşunu ağ atlı əsgərlərin hücumu ilə dağıldı. Şah Səmmahın taxtını ədalət meydanında qurdular. Şah taxtda oturub dövlət adamlarını və əyan-əşrəfi barigahda cəm eylədi. O gün ta axşam vaxtına kimi rəiyyətə ədalətlə hökmranlq edib, şahlıq vəzifəsini insafla yerinə yetirdi. Elə ki axşam oldu, şahlıq taxtından qalxıb istirahət otağına üz tutdu. Əcubə və Məhcubəni hüzuruna çağırıb buyurdu ki, sözündə bütöv olmağın əhəmiyyə-tindən və əmanətin şərəfindən bəzilərini izah edələr.

Əcubə dedi:

-Şahımızın mərtəbəsi daimi olsun. Bu əmanət tərifə layiq xasiyyət və çox gözəl sifətdir. Hər kim ki bu sevimli zinətlə özünə bəzək vura və sözü bütövlüyün şərtlərini yerinə yetirə, hər iki dünyada xoşbəxtliyə müyəssər olar. Bu dünyada Allah-Təala ona bol ruzi verər, axirətdə də cənnət əhlindən olar. Ancaq qəribə olan odur ki, bir kimsə bir inanılmış adama xəyanətlə qəsd eyliyə, axırda o əməlinin günahı onun özündə üzə çıxır. Yəni əməli öz ayağına dolaşır. Oğru qadınla etibarlı adamın hekayəti buna misaldır.

Məlik Səmmah soruşdu ki:

-Necədir o hekayət?

Əcubə dedi:

**Əmanətin qorunması barədə Əcubənin hekayəti**

Hekayət söyləyənlər belə nəql etmişlərdir ki, Mərv şəhərində bir həkkak[23] var idi. O diyarın padşahı onun əmanətə möhkəm olduğunu çox sınamışdı. Həkkak sözünə və əməlinə sədaqətli olduğunu layiqincə sübuta yetirmişdi. Padşah hərdən ona cəvahirlər göndərib, üzərində yazılar həkk etdirirdi. Əmirlər və vəzirlər də onun hörmətini saxlayırdılar.

Bir gün padşah bir gümüş rəngli dürrü üzərində yazılar yazmaq üçün ona göndərdi. Etibarlı həkkak dürrü dükanına gətirib bir dürr qutusunun içinə qoydu ki, vaxt eləyib üzərində işləyər.

O şəhərdə oğurluğu ilə məşhur bir qadın var idi. Bir gün təsadüfən həkkakın dükanına gedib o dürrü gördü. Tamahı zor gətirib fikirləşdi ki, bir hiylə ilə o dürrü həkkakdan ala. O saat vaxt itirmədən bir xarrat dükanına gedib bir dürr qutusu aldı ki, rəngində və oxşarında həkkakın şahın dürrünü içinə qoyduğu qutunun tam eynisi idi.

Qadın evinə gəlib, gözəl və bər-bəzəkli paltarlar geyindi. Özünə min cür zinət verib, tovuz quşu kimi bəzəndi. Ehtişam və əzəmətlə həkkakın dükanına gəlib, özünü elə göstərdi ki, guya cəvahirat almağa gəlmişdir.

---

[23] Həkkak – Metal lövhə üzərində rəsm əsərləri çəkən sənətkar

Qadın həkkaka dedi ki, cəvahirlərinə baxım, görüm bəyəndiyim varmı?

Xülasə, qadın o dükanda olan bütün cəvahirləri alıb bir-bir baxır, sonra geri qaytarırdı. Elə ki sıra o qutuya gəldi, həkkak dedi ki o əmanətdir.

Qadın yüz nazü-işvəylə dedi ki, baxmaq gözəldir. İnsaf eylə, o gümüşü dürrə mən də tamaşa edim.

Həkkak qadının sözlərinə etibar edib qutunu ona verdi. Bu yalançı və oğru qadın qutunu əlinə alıb, cəldliklə özündəki boş qutu ilə dəyişib yerinə qoydu. Həkkak bu oğurluq əməlindən xəbərsiz halda boş qutunu alıb əvvəlki yerinə yerləşdirdi.

Qadın evinə gedib ərinə bu işi söylədi və dürrü ona verdi. Bu kişi o dürrü görüb, nəşə və sevinclə qabağına qoydu. Kişi hər gün bu qiymətli dürrü qabağına qoyub tamaşa edərdi. Ona baxmaqla sanki qəlbinə qüvvət, gözlərinə işıq gələrdi.

Bunların yekə bir xoruzu var idi ki, hər gün evin içində və həyət-bacada gəzib-dolanırdı. Kişi bir gün yenə dürrü qabağına qoyub tamaşa edərkən bərk yuxu tutub, olduğu yerdəcə yatdı. Bu zaman xoruz oraya gəlib dürrü gördü. Onu iri bir dən hesab eləyib dərhal ağzına alıb uddu.

Kişi yuxudan oyanıb gördü ki dürr yerində yoxdur. Nə qədər axtardısa tapa bilmədi. Arvadını çağırıb soruşdu. O da bu işdən xəbərsiz olduğunu dedi.

Nə isə, hər tərəfi nə qədər axtardılarsa, nəticəsi olmadı ki olmadı. Dürr yoxa çıxmışdı.

Elə ki gecə oldu, xoruz vaxtsız banlamağa başladı. Kişinin ürəyinə qorxu düşüb, təlaşla arvadına dedi:

-Keçmiş adamlar vaxtsız xoruz banla-masını yaxşı hal hesab eləmirdilər. Bu xoruzun başını kəsmək lazımdır ki, bizə ziyanı dəyməsin.

Arvad dedi:

-Uzun zamandır ki, bu xoruz günlərini bizim evimizdə keçirib, bizə isinişmişdir. Bu qədər vəhşiliklə onu boğazlamaq münasib və mürüvvət deyil. Lakin keçmiş böyüklərin sözlərinə əməl edib bunun vaxtsız banlamağını da ona bağışlamayaq. Ona əzab da verməyək. Bazara aparıb sataq.

Bunlar bu tərəfdə bu cür söhbətlərinə məşğul olsun, o tərəfdə də həkkak dürrün getdiyindən xəbərsiz.

Elə ki gecə keçdi, sübhün dayəsi ulduzları uğur quşları kimi uçurtdu. Günəş göy fələklərini öz qızılı ipəyinə sarıb sevgi beşiyindən qanadlanaraq cahanı öz parlaq camalı ilə nurlandırdı. Şahın xidmətçilərindən bir nəfər etibarlı adam o dürrü həkkakdan almaq üçün onun yanına getdi. Həkkak qutunun ağzını açıb gördü ki dürr yerində yoxdur. Ağlı başından çıxdı. Damarında qanı, bədənində canı qalmayıb, qorxusundan az qaldı ki dəli olsun. Çarəsizcə şahın adamından üzr istəyib dedi ki, hələ dürrün işi qurtarmayıb. İnşaallah, hazır olan

kimi mən özüm aparıb şahın məxsusi hərəminə təslim edərəm.

Biçarə həkkakın bu işdən üzərinə qəm çöküb, nəfəsi bağlanıb, ciyəri dağlanıb, iflic xəstəliyinə mübtəla oldu. Müalicəsi üçün bir bacarıqlı təbib gətirdilər. Təbib nəbzinə əl vurub, xəstəliyini təyin elədi. Yaxşı bir xoruz ətiylə bişmiş şorbanı dərman buyurdu. Dərhal bazara adam göndərdilər.

Həkimlər həkimi olan Allah izin versə, hər xəstəliyin dərmanı öz vaxtında yetişər. Oğru arvad dürrü udan xoruzu bazara göndərmişdi. Həkkak üçün xoruz almağa gedən adam da təsadüfən o xoruza rast gəlib, alıb gətirdi. Həmin xoruzu o saat boğazlayıb, dənciyini çıxartdılar. Həkkak ona tamaşa edib dururdu. Təsadüfən dürrü xoruzun qursağında görüb, dərdə vida edib, o iflic azarından xilas oldu və dedi:

-Kaş ki həmişə mərd insanlar öz işlərində müvəffəq olub, şad olalar. Xain adamlar xor və zəlilliyə düşələr.

Məhcubə dedi:

-Çox gözəl gətirdin bu əcaib məsəli. Zahidlə qəssabın hekayəti də bunun kimidir.

Əcubə dedi:

-Necədir o hekayət?

Məhcubə dedi:

## Əmanətin qorunması barədə Məhcubənin hekayəti

Hekayət söyləyənlər belə rəvayət etmişlər ki, bir zahid var idi. Əxlaqının paklığı, ədəbinin gözəlliyi və imanının kamilliyi ilə məşhur idi. Bir gün

müridlərindən birisi malının zəkatı üçün yüz dinar gətirib zahidə verdi. Zahidin başı mühüm bir işə qarışdığı üçün həmin dinarları saxlamaqda diqqətsizlik edib boş su qabının içinə qoydu ki, namazını qılandan sonra etibarlı bir yerdə saxlayar. Zahid namaza hazırlaşan vaxt qadını su qabını boş görüb, istədi ki zahidin abdəst alması üçün su hazırlasın. Bu vaxt evin önündə bir nəfər adam gördü. Bu adam uzaq yerdən gəlmiş bir qəssab idi. Məqsədi də buradan bir öküz alıb başqa şəhər və kəndlərdə ətini satmaq idi. O gün təsadüfən həmin zahidin evinin yanına gəlmişdi. Zahidin qadını gördüyü adam həmin qəssab imiş. Qadın boş su qabını qəssaba verib dedi:

-Əgər kərəm edib zahidə abdəst almaq üçün bir qədər su gətirsən, zəhmətin axirətdə zay olmaz və bu işin bərəkətiylə axirət savabı hasil olar.

Qəssab içində dinar olan su qabını qadından alıb su gətirmək üçün yola düşdü. Yolda gedərkən hiss etdi ki, su qabının içində nə isə vardır. Dərhal su qabını kürəyindən endərib içinə baxdı. İçindəki dinarlarla dolu kisəni görüb, fərəh və sevinclə götürüb dedi:

-Xoş səadət taleyi ki gözəl və bol ruzini bu tezliklə əlimə verdi. İndi məsləhət odur ki, bu pulu israfdan qoruyaraq, lazım olan şeylərə sərf edəm. Əlimdə sərmayə edib, qəssablığı inkişaf etdirəm.

Bu fikirlə özünün əvvəldən olan pulunu verib bir kök öküz aldı və fikirləşdi ki, bu dinarları götürüb

kəndə getsəm, yolda bəlalardan və yol kəsici həramilərdən qurtula bilmərəm. Şəhərin bir yerində gizləsəm də, vəsvəsə və əndişə məni rahat qoymaz. Bunun ancaq bir yolu vardır ki, o da bu kisəni öküzün boğazına soxub udduram. Beləliklə, öküzü kəndə aparıb boğazlayaram. Kisə salamatlıqla əlimdə qalar. – deyib, biçarə öküzü bu əziyyətə mübtəla edib, onun qarnını özü üçün xəzinə eylədi.

İş tamam olduqdan sonra oğlu ilə bərabər öküzü də yanlarına alıb vətənlərinə doğru getməyə başladılar. Şəhərdən çıxıb bir səhraya çatdılar. Bir az dincəlmək üçün əyləndikdə, qəssab mühüm bir əşyasını şəhərdə unutduğunu xatırladı. Öküzü oğluna tapşırıb, məsələdən agah eylədi ki, burada məni gözlə. Şəhərə dönüb, unutduğum əşyanı götürüb qayıdaram.

Qəssabın oğlu öküzü burada saxlamaqda ikən, zahidin bir müridi qurbanlıq üçün öküz almağa çıxmışdı. Təsadüfən yolda qəssabın oğlunu görüb ona yaxınlaşdı. Hal-əhval soruşduqdan sonra dedi:

-Əgər bu öküzü satmaq üçün aldınsa, istəyirəm mənə satasan. Ürəyindən keçdiyi qədər nəğd pulunu verərəm. Həm sən artıq məşəqqət və zəhmətdən qurtararsan, həm də mən gecikməyib, işimə gedərəm. Bu minvalla mürid öküzü oğlandan satın alıb zahidin evinə apardı.

Zahid isə o namazdan sonra dinarları tamam unutmuşdu. Çünki, qurban bayramı yaxınlaşmışdı. O

gün ərəfə[24] günü idi. Evinə gəlib adəti üzrə namaza durmuşdu ki, birdən su qabına qoyduğu dinarlar yadına düşdü. Fikirləşdi ki namazdan sonra götürüb saxlayar. Namazını bitirdikdən sonra su qabını yerində görməyib, halı pərişan oldu. Təşvişlə qadınından su qabını soruşdu. Qadını hadisəni söyləyib, adamın su qabını gətirmədiyini dedi. Zahid peşman olub, bu hadisədən qəmgin oldu. Nəhayət, qəzaya təslim olub, Haqqa şükür eylədi.

Qurban bayramı günü idi. Zahid müridinin gətirdiyi öküzü kəsib, ətini fağır-füqəraya dağıtdi. Qadınına dedi ki, bu öküzün qarnını və bağırsaqlarını mənim yanımda təmizlə. Ta ki, onların təmizlənməsində dinə görə bir qüsur olmasın. Qadın zahidin əmriylə öküzün qarnını yardı. Bu vaxt zahidin gözü dinar dolu kisəyə sataşdı. Bu işə təəccübündən mat qaldı və dedi:

-Bu öküzün hekayəti Samiri hekayətindən maraqlı və bəni İsrailin inək hekayətindən də qəribədir[25]. O qızılları alıb haqqa çoxlu dua və şükür eylədi. Həm də o hadisənin əzabından xilas oldu.

Məhcubə dedi:

-Bu hekayəti onun üçün gətirdim ki, Allah bir kimsəyə halal mal qismət eyləyəndə, heç bir xəyanət

---

[24] Qurban bayramından bir gün əvvəl

[25] Quranın Bəqərə surəsindəki rəvayətlər nəzərdə tutulur

ona təsir etməz. Etsə də, halal mal yenə də sahibinə qayıdar. Halallığa zaval yoxdur. Haramlıqla əldə edilən mal isə asanlıqla əldən çıxar və ancaq öz halal malına sahib ola bilərsən. Necə ki, qəssabın öküzə verdiyi halal pulu və zahidin dinarları özlərinə qayıtdı.

## YEDDİNCİ BAB
## Qısqanclıq və paxıllığın rədd edilməsi

Yeddinci gün ki günəş ulduzu, yəni gur işığın qaynağı yer üzünü nurlu camalı ilə öz nuruna boyadı, şah Səmmah məmləkət taxtında oturub həqiqət və doğruluq yolu üzərinə dövlət məsələlərini yerinə yetirdi. Kefi açıldı. Bütün işləri tamam olduqdan sonra istirahət otağına gedib yerini rahatladı. Əcubə və Məhcubənin rahatlıq verən söhbətlərindən könlü açıldı. Söhbət zamanı soruşdu ki, paxıllıq və həsəddən necə fəsad və zərər əmələ gəlir və o pis xasiyyətə tabe olub, ona inanmaqla ortaya nə çıxır?

Əcubə dedi:

-Şahımız hər bəladan uzaq olsun. Həsəd və qısqanclıq canda fitnə və cəsəddə bir bəla, xəstəlikdir. Bu cəhətdəndir ki, qısqanc adamın üzü həsəddən həmişə xəstə kimi zəif, arıq və cansızdır. Qısqanc adamın canı həmişə arzusuna çatmamağın qorxusu ilə əzab-əziyyət çəkər. Ona-buna həsəd aparan adam hər iki dünyada məğlub olar. Həsəd və qısqanclıqdan heç kim yüksək məqam və ali dərəcə əldə edə bilməz. Necə ki demişlər; “Qısqanc adam xoşbəxt olmaz!” Hər kimsə ki həsədi səbəbiylə paxıllıq eylədiyi haqqında fikri inkar edə, mütləq özünü pis bir qədərə kiriftar eyliyər. Necə ki o şahın arvadı öz hiyləsi ilə iki saç hörüyünü bada verdi və məqsədinə çatmayıb rüsvay oldu.

Məlik Səmmah soruşdu:

-Necədir o hekayət?

Əcubə dedi:

**Paxıllığın məzəmməti barədə Əcubənin hekayəti**

Hekayət söyləyənlər belə nəql etmişlərdir ki, bir zərgər bir padşahın qonşuluğunda yaşayırdı. Bu zərgərin bir ay üzlü, gümüş bədənli qızı var idi ki, cəlbedici gözəl gözlərinin hiyləsi görənləri aldadıb öz toruna salmaqda Samiri sehrini aciz buraxırdı. O padşahın həmin qıza gözü düşüb, eşqini ona bağladı. Baxmayaraq ki tayı deyildi, amma heç bir yaş fərqinə əhəmiyyət vermədən, iradəsinin gücü ilə şəriət qaydasınca nikah edib zərgərin qızını dəbdəbəli şəkildə öz sarayına gətirdi. Elə ki bu qızla ünsiyyət edib yanında oturdurdu, gözəl qoxusu və əxlaqı ilə padşahın ruhuna rahatlıq gəlib incə və gözəl hərəkətlərini, gözə işıq verən təravətini görür, hər an meyli onun hüsnünə artıq dərəcədə bağlanırdı. Ona aşiqliyi qat-qat artırdı. Padşahın əvvəlki arvadı bu hala qısqanclıq edib zərgər qızına həsədindən və paxıllığından qəlbini qəm atəşinin kürəsi edib, özünü qəm-qüssə və həsrət odunda əritdi. Fikir eylədi ki, bu işə səbr eyləmək olmaz. İndi məsləhət odur ki, bir hiylə eyləyib zərgər qızının hüsnü-camalını bir hiylə ilə çirkinləşdirmək lazımdır. Ta o qüsurlu, çirkin surət və pis, mütənasibsiz bədəni səbəbiylə şahın qəlbindəki eşqi ondan bir qədər aralana və şahın gözündən düşə. Beləliklə, şahın ürəyi ondan

soyuya və sevgi ülfəti və məhəbbət istəyi onun haqqında kəm ola.

Belə fikirləşib dərhal şahın xüsusi pərdədarını yanına çağırdı. Ortaya pərdə salıb, pərdənin arxasında sözə başlayıb, əvvəlcə hiylə və məkrdən bir qədər söz edib, pərdədara gözəl bir dillə fikrini bəyan edib dedi:

-Ey pərdədar, sən mənim yaxşı xidmətçim və xoş qədəmli, ən yaxın və çox etibar etdiyim adamımsan. Həmişə mənim qayğı nəzərim sənin üzərindədir. Məkrlə mənim etmək istədiyim hər şeyə sevinirsən. Bizim qulluğumuzda sənin çoxdan bəri hüququn sübut olunmuşdur. İndiki halda sənin bizim xidmətimizdən ayrılmağına çox təəssüf edirəm. Dünən gecə bu zərgər qızı şahın hüzurunda o qədər sənin haqqında pis danışdı ki, uyğunsuzluq və qəbahət söyləmə-yində heç nəyi əskik qoymadı və əlavə etdi ki, bizim pərdədarımız elə olmalıdır ki, gözəl görünüşlü və xoş simalı ola. Ona görə ki bu tayfa şah dərgahında yaxınlıq mərtəbəsində dururlar. Əgər bunlardan bir kimsə hər şeyi tez qavrayan ağıldan nəsibsiz, düşüncə və dərrakədən bəhrəsiz, cin kimi bir surətlə yaramaz ola, mülkün dövlətsizliyinə səbəbdir. Filan şəxs gözəl əxlaqla məşhurdur. Bu işi ona vermək lazımdır – deyib, bu qayda ilə çox sözlər söylədi. Şah da o hiyləğər qadının sözünü səmimiyyətlə qəbul eylədi. Nəbadə ki onun o sözləri yerini ala. Mən qorxuram ki sənin kimi sədaqətli dostun xidmətindən məhrum və bəhrəsiz qalam.

Pərdədar bu sözdən çox qəmlənib iztiraba düşdü və pərişan oldu. Şahın arvadı gördü ki, o təsirli sözlər pərdədarın içərisinə atəş salıb, ciyərini kabab etdi. Yenə dönüb nəzakətlə pərdədarın könlünü ələ alıb dedi:

-Qəmlənmək lazım deyil. Zərgər qızının sözü şahın yanında qəbul olduğu onun üçündür ki, şah onun qoşa hörüklərinə məftun olmuşdur. Əgər fürsət tapıb onun gərdəninə kəmənd kimi dolanan saçlarını kəssən, o saat şahın o qıza eşqi-həvəsi azalacaq və ona daha hörmət göstərməyib, onun istədiklərini qəbul etməz. Mən də sənin xidmətindən məhrum olmaram. Sənin bu işin də əvəzsiz qalmaz.

Pərdədar dedi:

-Ağıllı adamlar şərdən uzaq olmaq üçün can qoymuşlar. Yaxşı bir iş olar ki, ağanın yanında öz təhlükəsizliyini təmin edə və nəfs məsələlərinə bir vasitə ilə yaxınlaşa. İndi mənə söyləyin görüm, mən nə edə bilərəm?

Qadın ona əvvəlcə bir qədər qızıl verib dedi ki, nə vaxt o cadugəri məst halda örtüksüz gördün, taxtın ardından gəlib o gözəl saçları qayçı ilə kəsərsən. Şəksiz-şübhəsiz o ayıbın səbəbiylə şah onu rədd edəcək. O zaman sən də, mən də rahat olarıq.

Pərdədar o məkri qəbul edib, fürsət vaxtını gözləməyə başladı.

Bir gün zərgərin qızı bir iş üçün atasının evinə getdi. İş elə gətirdi ki, o gecə orada qalmalı oldu. Elə ki

şah gecə yataq otağına getdi, məşuqəsinin orada olmadığını gördü. Öz arvadını yanına gətirib, ikisi birlikdə yatağa uzanıb yuxuya getdilər. Bu olanlardan pərdədarın xəbəri yox idi. Danışılan qayda üzrə o, ehtiyatla, taxtın arxasından, o tərəfdən ki şah yatmışdı, gəlib elə bildi ki zərgərin qızdır. Qayçını çıxardıb şahın saçlarını kəsdi. Gecə qaranlıqda görə bilməmişdi. Amma dərhal səhv elədiyini başa düşdü. Bildi ki şahın saçlarını kəsib. Tez fikirləşdi ki daha keçib. İşi tam yerinə yetirməmiş dönmək qorxaqlığa dəlildir. O biri tərəfə keçib, tələsik qadının müşk ətirli iki saç hörüyünü dibindən kəsdi və sürətlə oradan uzaqlaşdı. Pərdədar vahiməsinin çoxluğundan və bərk qorxduğundan başmağını orada unudub getmişdi.

Səhər tezdən qadın oyanıb hörüklərinin kəsilmiş olduğunu gördü. Başa düşdü ki, özünün məkrli əməli öz ayağına dolaşıb. Fikir eylədi ki bu hadisənin altından necə çıxsın. Dərhal ağlına gəldi ki, bu günahı zərgər qızının üzərinə atsın. O zaman bəlkə şah qisas hökmü ilə onun saçlarını da kəsdirə. O saat ahu-zar və fəryad edib dedi ki, bir gecə şah mənə iltifat eylədi, o insafsız da mənə intiqam üçün bu cür xəyanəti rəva gördü.

Bu cür fəryad səsindən şah oyandı və öz saçının da kəsildiyini gördü. O bu vəziyyətdən çox pərişan oldu və ilk ağlına gələn o oldu ki, belə bir xəyanətə zərgər qızı qərar verib. Bərk qəzəblənib zərgər qızını tez hüzuruna tələb eylədi. Özü isə yerindən durub istədi ki

başmağını geysin. Pərdədarın başmağı orada idi. Elə ki ayağını başmağa qoydu, hiss elədi ki, o başmaq onunku deyil. Hərəmxananın xüsusi xidmətçilərini bir yerə cəm edib bu hadisənin necə baş verdiyindən sorğu-sual eylədi və dedi:

-Heç şübhəsiz bu cürətə qərar verən bu başmağın sahibi olmuşdur. Sizlərdən hansınız bu başmağın sahibini tanıyırsa tez desin. Ta ki xain günahına görə cəzasını alıb, günahsız xilas olsun.

Bütün xidmətçilər o başmağa diqqətlə baxdılar. Pərdədar da orada idi. Qorxusundan günahını etiraf edib, şahdan aman dilədi və dedi:

-Bu çirkin işi mənə məlikə öyrətdi. Onun məqsədi zərgər qızının saçlarını kəsdirmək idi. Şahın saçını kəsmək isə səhvən oldu.

Şah dedi:

-Sən bu işdə bu xətanı səhvən etdinsə, bu işi də cəzasız qoymaq olmaz.

Əmr eylədi, pərdədarın iki əlini şahın saçlarına əvəz olaraq kəsdilər. Arvadına da çoxlu əzablar verib, talaq yolu ilə boşadı və hüzurundan rədd etdi. Həmin qadın paxıllığının səbəbi ilə eyibli, rədd edilmiş və yolundan azmış biri kimi tanındı.

Məhcubə dedi:

-Çox gözəl münasib gətirdin bu yaşanmış hekayəti və təbii məsəli. Həm də bu o vəzir hekayəti

kimidir ki, paxıllığının nəticəsində canı yerindən oynadı və öz hiyləsilə ölümünə getdi.

Əcubə dedi:

-Necədir o hekayət?

Məhcubə dedi:

**Paxıllığın məzəmməti barədə Məhcubənin hekayəti**

Belə rəvayət etmişlərdir ki, Qəzvin şəhərində hünər sahibi bir oğlan peyda olmuşdu. Bütün elmləri bilməkdə və tərifə layiq davranış və xasiyyətində yeganə, gözəl sözlər söylə-məkdə kamil və incəlikdə onun tayı-bərabəri yox idi. Hər sözündə min nöqtəli mövzu gizli və hər nöqtəsində min dil nöqtələrə məftun idi. Kəlmələri ağıllı, şer və hekayələri eşidən hər kəsdə sevgi oyadacaq dərəcədə füsunkar idi. Hər bir məclisi ürəyəyatan, insanlara söz deməkdə mülayimliyinin əvəzi yox idi. O xoş üzlü cavanın və gözəl insanın fəzilətlər dolu sorağını zamanın padşahı eşidib, onun söhbətlərinə rəğbəti artdı və istədi ki onun gözəl xasiyyət və görüşünün səmərəsindən bəhrələnə. Odur ki o şöhrətli cavanı təzim və hörmətlə öz hüzuruna gətirdib yüksək məqamda əyləşdirdi, onu özünə yaxın eylədi. O oğlan uzun müddət şahın yaxın adamı və dostu olub, yüksək mərtəbəylə məşhur oldu. Dövlətin yüksək təbəqəli adamları sırasında böyük rütbələrlə irəlilədi. Şahın vəziri elə ki onun şöhrətinin ucaldığını və böyüklük dərəcəsini hiss etdi, yüksək mənsəb sahibi olduğunu və şahın ona çox hörmət eylədiyini gördü,

ona qarşı paxıllığı artdı. Həsədi onu məkrə və müxtəlif hiylələrə doğru aparıb, cinayətə məcbur eylədi. Fikirləşdi ki, bu söhbətcil oğlan şahın nəzərində çox əzizdir və bizim izzəti-şərəfimiz və mənsəb mərtəbəmiz onun həddən artıq şaha yaxınlığı səbəbindən xələl və nöqsan görəcək. Bir hiylə fikirləşmək lazımdır ki, o, aradan götürülsün, bizim isə hörmət və mərtəbəmiz əvvəlki kimi artıb, şahın gözündə daha da yüksəlsin. Fürsət gözləyib, bir gün şahı xəlvətdə görüb dedi:

-Bu söhbətcil oğlanın baxmayaraq ki tayı-bərabəri yoxdur, elm və hünərdə hamıdan üstün, zəka və ağılda çox kamallıdır, lakin padşahın ona həddən artıq üstünlük verməsindən onun könlünə artıq şeylər dolmuşdur. Bu barədə Qurani-Kərimdə belə deyilir; "Xeyr, şübhəsiz ki özünün dövlətli olduğunu gördüyü üçün insan mütləq azar!"[26] O, qulluq yolundan azmışdır. Həm də axmaqlığından mümkün olmayan şeyi xəyal edər ki, padşaha yad olduğu halda ona bərabər ola.

Məlik soruşdu ki, nədən deyirsən?

Vəzir dedi:

-O hörmətin nə olduğunu anlamayan üsyançı dünən belə bir söz söylədi ki, onun o it xəyalındakıları ölkə padşahı olanlar belə heç ağlına da gətirməz.

Məlik dedi ki, necə sözlər söylədi?

---

[26] Ələq surəsi – 6-7

Vəzir söylədi ki, o mənə belə dedi: “Səndən xahiş edirəm ki məliyə deyəsən, mənimlə qohum olmaq üçün qızını şəriət qaydası ilə mənə versin”.

Vəzirin bu sözləri şahı bərk qəzəbləndirdi. Vəzir o saat şah hüzurundan qalxıb oğlanın otağına gəldi. Özünü elə göstərdi ki, guya şahın arvadı onu oraya göndərib. Şahın arvadının dilindən belə söylədi; İstəyim odur ki, lazım olanlardan bəzi şeylər alıb verəsən ki, sənin şah yanında sözün keçərlidir. Məsləhəti odur ki, şahın qızı həddi-büluğa çatmışdır. Nişanlanmaq və ərə getmək vaxtıdır. Şah onun qızda gözü olduğunu bilir, lakin özünü qəsdən bilməməz-liyə vurur. Əgər onu padşaha layiq bir şəklidə tam cehizlə şəriət qaydasınca nikahını arzu eyləsən bu, onlar üçün də böyük şərəf olar.

Vəzir bu cür yalan sözlərlə oğlanı hiylə toruna saldı. Oğlan bu sözlərin təsiri altında şahın hüzuruna gəlib mehribanlıqla qızın evləndirilməsinin səbəbləri haqqında bir qədər söyləyib dedi ki:

Allaha həmd və şükürlər olsun. Şah həzrətləri zehni-zəkada və qavrayış qabiliy-yətində bütün xalqdan üstündür. Heç kimsənin öyüd-nəsihətinə möhtac deyildir. Lakin mən təəccüb edirəm ki, məlik öz tabeliyində olan qadınlar haqqında düşünmürlər. Şahın qızının sərv qaməti həddi-büluğ yaşının çəmənində şax çəkib, gözəl üzlü cavan olmuşdur. Layiq budur ki,

padşahın fikri bu işə yönəlib, təcili surətdə o gözəl qızı evləndirməklə məşğul olsun.

Oğlan bu sözləri deyib öz mənzilinə getdi.

Elə ki şah ondan bu sözləri eşitdi, vəzirin sədaqətinə inandı. Oğlanın bu cür cahilliyinə təəccüb edib dedi ki, bu hörmətsiz naşükürü ən aşağı dərəcədən ən yüksək dərəcəyə və ehtiyac bataqlığından var-dövlət şərəfinə yetişdirdim. Odur ki çaşqın azğınlıq onu bu cür yaramaz hərəkətlərə təhrik edər ki, bizimlə qohum olmaq həvəsi qəlbində yerləşmişdir. Onun qəlbində olan belə azğın fikirləri ölümdən başqa bir şeylə təmizləmək olmaz.

Şah bunu düşünüb şərbət qabına bir qədər həlahil zəhəri töküb öz xüsusi şərbəti ilə qarışdırdı və şərabdara verib şərəf və uğur üçün oğlana hədiyyə göndərdi. Bu işi şahdan başqa heç kim bilmədi.

Şərabdar tam arxayınlıqla o şərbəti alıb həmin oğlanın evinə doğru getdi.

Vəzir hamama gedib, yaxşı yuyunub-təmizləndikdən sonra, hamamdan çıxıb öz evinə gedərkən yolda şərabdara rast gəldi. Hamamın istisi onun hərarətini qaldırıb, bərk susatmışdı. Şərabdardan soruşdu ki, bu şərbəti kimə aparırsan?

Şərabdar dedi:

-Məlik hədiyyə üçün nədim oğlana göndərdi.

Vəzir dedi:

-İndi sən o şərbəti mənə ver içim. Bərk susamışam. O oğlan üçün başqa şərbət hazırlayıb apar.

Şərabdar vəzirin sözünə etiraz eyləməyib, tərəddüdsüz qədəhi vəzirin əlinə verdi. Vəzir çox susadığından qədəhi axıra kimi başına çəkib içdi. O saat həyat minəyindən düşüb piyada oldu və ölüm mənzilində qərar tapdı.

Vəzirin ölüm xəbərini padşaha dedilər. Padşah soruşdu:

-Vəzirin ölümünə səbəb hansı xəstəlik oldu?

Dedilər ki:

-Sözün kəsəsi, hamamdan çıxıb evinə gedirmiş. Yolda padşahın şərabdarına rast gəlir. Şərabdar əlində şərbət aparıb gedirmiş. Vəzir o şərbəti ondan alıb dərhal hamısını birnəfəsə içib. Ondan sonra yıxılıb ölüb.

Şah bu hadisəni eşidən kimi öz-özünə düşünüb fikir eylədi ki, bu siyasət oxunun nişanı oğlanın ciyəri idi. Səbəb nədir ki hədəf vəzirin həyatına yetişdi? Şübhəsiz ki bu dəyişikliyin içində bir sirr vardır. Dərhal oğlanı çağırıb dedi:

-Neçə illərdir ki bizim mötəbər hüzuru-muzla şərəflənibsən. Hələ indiyə kimi ehtiyatsız bir söz belə söyləməmişdin. Filan gün qızın evləndirilməsi haqda cürət edib bir neçə söz söylədin. O sözün açılmasına səni nə vadar etmişdi?

Oğlan vəziyyəti danışıb dedi ki, vəzir şahın arvadının dilindən bu cür sözlər danışdı. Məlik dedi:

-Haq yerini tapdı! Məlum oldu ki, vəzir sənin haqqında böyük xəyanət fikirləşib, hiylə ilə səni bizim siyasət qurbanlığımıza çevirmək istəyirmiş. Odur ki qəzəbimdən şərbətə həlahil zəhəri qatıb sənin ölümünə qəsd etmək istəyirdim. Amma sənin günahsızlığın paxıl vəzirdən intiqam alıb, onun hiylə və məkrinin nəticəsi öz başında çatladı.

Məhcubə dedi:

-Bu məsəli onun üçün gətirdim ki, dünyanın ağıllı adamları belə bir mənanın alovuna dözüb və onun istifadəsindən əziyyət çəkib, hiylə və məkrdən ürəklərini təmizləyib rahat olalar. Bağışlayan Allah bütün xalqı bu cür yaramaz işlərdən hifz eyliyə.

## SƏKKİZİNCİ BAB
## Qadınların sir saxlaya bilməmələri haqqında

Səkkizinci gün ki dörd fələyin sultanı səadət şərqindən doğdu və üzünün nuru ilə zülmət aləmini nurlandırdı, şah Səmmah məmləkət taxtını şərəfləndirib, şahlıq məsələ-lərini tərtib eylədi və böyük şahlıq imzası ilə möhür vurdu, sonra xüsusi xəlvətsarayına gəlib Əcubə və Məhcubəni yanına çağırtdırıb onlardan soruşdu ki, kimlərdir ki, sirr saxlamaqda möhkəm iradəli, eyni zamanda bu barədə öz işini yaxşı bilən olalar və onların vüqarlı dəyanətinə və sədaqət əxlaqına etimad oluna? Yenə kimlərdir ki, onlardan gizli tutula və onların yanında sirr açmaq lazım bilinməyə və uzaqgörən adamlar onların sirr saxlaya bilməmək kimi pis xasiyyətlərindən ehtiyat etmək və çəkinməyi vacib sayalar?

Əcubə dedi:

-Şahın ömrü əbədi olsun. Düşüncəli ağıl yolu odur ki, gizlədilməsi lazım gələn şeyləri hamıdan saxlayalar və sirri faş etməyə ağıllı adamlar izin verməmişdir.

Əgər bir sirrin açılması lazım gələrsə bu, məsləhət yolu ilə olmalıdır. Amma çox ehtiyatlı olmaq lazımdır ki, sinə xəzinəsindəki sirr gövhəri sədaqətli yara düşüb, ağıl möhürü qazana. Ta ki axırda xeyirxahlığa səbəb ola. Sirri arvadlara söyləməyə heç

izin verilməmişdir. Ağıllı və aydın fikirli adamlar hər vaxt bunların içindəki çirkin məkrin zatından çəkinmişlər. Əgər adətinin əksinə olaraq bir arvad ola ki, nə qədər dünyagörmüş, təcrübəli işlər ilə nə qədər xeyir-şər yola salmış ola, onun da sinəsini sirr xəzinəsi hesab eləmək doğru deyildir. Əgər səhv olaraq hər adamın yanında sirrini üzə çıxarıb, söyləməli söz də olsa, söyləyib onu özünə yaxın hesab edə, xüsusilə də sirrini arvada söyləyə, həmişə heyrət bataqlığına düşüb peşmançılıq çəkər. Sonradan iztirab cəzası çəkmək də ona bir fayda verməz. Necə ki o vəzir öz məqsədinə çatmışkən, arvada sirr söyləməyi səbəbiylə başını yelə verdi.

Məlik Səmmah soruşdu ki, necədir o hekayət?

Əcubə dedi:

**Qadından sirr saxlamaq barədə Əcubənin hekayəti**

Hekayət söyləyənlər belə demişlər ki, Çin diyarında bir padşah var idi. Bir gün çox qüvvətli bir düşmən ortaya çıxıb ona müharibə elan eylədi. Çin padşahı kömək üçün Xarəzm şahından yardım istədi. O da mərhəmət edib bu xahişi qəbul eylədi. Bir qədər qoşun düzəldib öz oğlunu da o qoşuna sərkərdə qoyaraq o tərəfə göndərdi. Çin padşahı o qoşunun gəlməyindən çox şad olub fərəhləndi. Bu qoşunu da öz qoşununa birləşdirib düşmən üzərinə hücuma keçdi. Düşmən qoşunu bu hücumun şiddətindən qorxuya düşüb məğlub oldu və dağılaraq geriyə qaçdı. Müharibə qurtardıqdan

sonra Xarəzm şahzadəsi qoşunu ilə bir səhrada dayanıb növbənöv ziyafətlər təşkil eylədi. İgidliklərinə görə əsgərlərə rütbələr verdi. Qoşun başçılarını çoxlu xələtlərlə mükafatlandırıb, sərkərdəlik vəzifəsini bol mal ilə şahzadəyə layiq bir şəkildə yerinə yetirdi. Mərasim başa çatan kimi Xarəzm şahzadəsi qoşuna yola düşmək üçün hazırlıq əmri verib vətəninə üz tutdu.

Çin padşahının qızı köməyə gələn bu qoşuna tamaşa eyləmək üçün qəsrindəki eyvana çıxıb onlara baxırdı. Təsadüfən Xarəzm şahzadəsinin gözü o qızın ürəklər ovlayan gözəl surətinə sataşdı. Elə bir surət gördü ki, günəş onun parlaqlığından ziya alır və qara saçlarının əksi zülmət gecələrə elm öyrədir. O cənnət gülü kimi açılmış şən ruhu və üzünü bəzəyən gözəl saçları kəmənd kimi şahzadəyə dolandı və onu candan eylədi. Şahzadə bu gözəlliyi görüb bir könüldən min könülə ona vuruldu. Çin şahının bu qızı isə öz istəyi ilə şəriət qaydasınca əmisi oğluna nişanlanmışdı. Şahzadə bunu bilmirdi. Araşdırıb bu işi öyrəndikdə fikirləşdi ki, bu məqsədə ancaq hiylə və məkrdən başqa bir şeylə çatmaq olmaz. Dərin iztirablar içində, çox pərişan halda yoluna davam edib getdi.

Elə ki öz məkanına gəlib yetişdi, eşq atəşinin alovu ciyərini kabab eylədi və qəmlərin dalğası vücudunu iztirab qapısına doğru apardı. Gecə-gündüz təəssüflər edib şadlıqdan və sevinc nəşəsindən üz döndərdi.

Nəhayət, Xarəzm şahı bu sirdən agah olmaq və oğlunun düşdüyü bu vəziyyəti araşdırmaq üçün onun yanına gəldi. Şahzadə gördü ki gizlətməyin mənası yoxdur. Hadisəni olduğu kimi atasına söylədi. Xarəzm şahı dedi:

-Bu gizli və çox çətin məqsədin həlli vəzirin tədbirindən başqa heç nəylə mümkün deyildir. Odur ki şah vəziri bu hadisənin sirrindən xəbərdar etdi və dedi:

-Bir tədbir eyləmək lazımdır ki, bu iş yerinə yetsin.

Vəzir fikirləşib dedi:

-Doğru yol budur ki, şah məni elçi (səfir) sifəti ilə o diyara göndərə və mənə bir xidmətçi verə ki, əlindən hər iş gələn olsun. Belə bir adamı şah gərək öz xüsusi hərəmindən çıxarıb mənimlə göndərə. Həmin xidmətçini mən hədiyyə kimi Çin şahına aparam. O adam Çin şahının hərəminə yol tapmalıdır. Onun oraya girməsi bizə bütün qapıları açacaqdır. Şahın misilsiz dövlətiylə bu yolla məqsəd quşu ovlanacaqdır.

Şah vəzirin tədbirini bəyəndi. Belə bir xidmətçini tapıb vəzirlə birlikdə o diyara göndərdilər.

Vəzirin bir qadını var idi. Üzünün gözəlliyi günəş və müştəri[27] kimiydi. Vəzir bir an onsuz dura bilmədiyi üçün onu da özü ilə götürüb apardı. Elə ki Çin diyarına yaxınlaşdılar, Çin padşahı vəzirin gəldiyini eşitdi. O

---

[27] Müştəri – Yupiter. Klassık ədəbiyyatda gözəllik simvolu

dəqiqə hörmət və ehtiram qapılarını açıb vəziri qarşıladı. Vəzir xidmətçini başqa hədiyyələrlə birlikdə şaha göndərdi. Şah bu xidmətçini imtahan edib qızına layiq mükəmməl bir xidmətçi olduğunu gördü və dərhal onu qızına xüsusi xidmətçi təyin eylədi. Bir neçə müddət xidmətçi qızın xidmətində olub başqa xidmətçilərindən artıq kəramətlərlə məşhur oldu.

Axır ki bu xidmətçi şah qızına xoş gəlib, ona söhbət yoldaşı ola bildi. Məkr və hiyləyə baş vurub hər gün gizlicə vəzirin yanına gəlir, baş verən sirlərdən onu xəbərdar edirdi. Həm də o hiyləni ki fikirləşmişdilər, baş tutması üçün vəzirdən məsləhətlər alırdı. Bir gün söhbət zamanı vəzirə dedi:

-O qızı nitqimin gözəlliyi və dilimin şirinliyi ilə elə ələ almışam ki, bir an da mənsiz dura bilmir. Məndən başqa ayrı bir adamla şadlıq edib, ürək rahatlığı tapmır. Əgər bu işin yerinə yetirilməsini istəyirsənsə, necə bir hiylə eyləmək lazımdır, mənə öyrət.

Vəzir dedi:

-Mənim işim qızı bu diyardan alıb getməkdir. Amma madam ki, qız şahın qardaşı oğluna nikah yolu ilə nişanlanıb, elə belə alıb getməkdən bir xeyir qazana bilməyəcəyik. Çünki, şahzadə qanuni nikah olmayınca onun vüsalına çatmağa rəğbət göstərməz. Bir tədbir eyləmək lazımdır ki, qız ilə şahın qardaşı oğlu arasında qanuni boşanmaqla ayrılıq yarana.

Bu söhbətdən sonra qızı aldatmaq üçün xidmətçi dərhal şahın qardaşı oğlunun hüzuruna gəldi. Evi xəlvət etdirib, özünü elə göstərdi ki, guya onu şahın qızı göndərib. Sözə başlayıb dedi ki, qız sənə onun çox şiddətli məhəbbətini elan etməmi istədi. İndiki halda hər gecə-gündüz səninlə vüsala yetişmək xəyalını həmdəm və yaxınlıq eyləmək ümidini özünə dost eyləmişdir. Məni göndərib sənə çatdıram ki, əgər mənim sevgimə və eyş-işrətimə rəğbətin varsa, bu işin meydana gəlməsində onun da istəyi varsa, vaxt itirməyib mənimlə gəlib görüşəsən. Ta ki vüsalın şirinliyi ilə mənim sevgi dolu könlümə bir az təskinlik yetişə. Əgər bu işin meydana gəlməsi üçün ehtiyat eylərsə, bizə o qədər intizar çəkdirər ki, səbrə taqətimiz qalmayıb, axırda həlaka səbəb olacaq. İndi məsləhət belədir ki, fürsət bilib şahın harasa getməsini gözləyəsən. Nə vaxt ki elə fürsət düşdü, mənim hücrəmin qapısına gəlib görüş üçün xahiş edəsən. Əlbəttə o görüş istəyi dərhal qəbul olunmayacaq. O vaxt sən də and içib üç dəfə boşanma talağı[28] ortaya gətirəsən. O zaman xidmətçilər məcbur olub səni içəri buraxarlar. Mən də bu əziyyət üçün açıq-aydın üzr və dəlil-sübutu qəbul edərəm.

---

[28] İslam şəriətinə görə, əgər bir kişi arvadına üç dəfə "səni boşayıram" desə, o nikah pozulur.

Xidmətçi o yazığı bu hiylə ilə tora salıb, tez qızın yanına gəldi və dedi:

-Məlikənin əmisi oğlu baxmayaraq ki gözəl, cavan və zərif şahzadədir, amma ağıldan çox kasad və zəif tədbirlidir.

Qız dedi:

-Sən bunu nədən deyirsən və necə təcrübə eylədin?

Xidmətçi dedi:

-Məni bu gün dostluq şərəfi ilə şərəfləndirib dedi ki, əmim bizə qəmxar olmaz. Qızını bizə şəriət yolu ilə nikah eylədi və özünü bizim əhvalımızdan qəsdən xəbərsiz kimi aparıb, görüş üçün yolumuzu bağladı. İndi mən fikirləşirəm ki, bir gecə özümü məlikənin hərəminə salam. Əgər fürsət əl versə vüsal meyvəsindən ləzzət alıb, ayrılıq qəmindən xilas olam.

Məlikə bu sözdən çox inciyib, qəm dəryasına batdı. Xidmətçi məlikəni sakitləşdirib dedi:

-Məlik çılğın oğlandır. Cavanlar bu cür halları çox edərlər. Ona bu işdə kömək eyləmək olmaz. Lakin ehtiyatı da əldən qoymamaq lazımdır.

Xidmətçi belə bir yalan atəşi ilə qızın qəlbinə od saldı və hazır vəziyyətdə oturub fürsət gözlədi. Elə ki Çin padşahı bir iş üçün səfərə çıxdı, o saat xidmətçi fürsət tapıb şahın qardaşı oğlunun yanına gedib dedi ki:

-Məlikə deyir ki, qərar vaxtıdır. Bu gecə elə bir gecədir ki, talib mətluba, aşiq məşuqa yetişə.

Elə ki gecə vaxtı gəldi, çılğın məlik şövq ilə məlikənin hücrəsinin qapısına gəldi. Ortadakı hiylə sirrindən də xəbəri yox. Qız əmr eylədi, qapıları möhkəm bağladılar. İçəridən oğlana qəbahət iş gördüyünü elan etdi. Ta ki bu həvəsdən keçib, geri evinə qayıdıb öz işi ilə məşğul olsun. Oğlan təkidlə içəri girmək istədi. Ancaq qız etiraz eylədi. Axırda oğlan çox hirsləndi. Bu iş üçün həddən artıq israr edib dedi:

-Bil ki, əgər bu görüşümüz baş tutmasa, ortada üç boşanma talağı olacaq.

Qız ondan bu sözləri eşidib bərk qəzəbləndi və onun xahişini rədd eylədi. Buna görə də oğlan üç talaqla qızı boşadığını bildirdi. Bu yad adamların istədiyi oldu və məlikzadə məhzun və məhrum dönüb getdi. Qız da işin belə şəkil almasının fikrindən çaşqın vəziyyətə düşdü. Xidmətçi qızı o halda görüb mehribanlıq və yumşaqlıq göstərib dedi:

-Məlikənin mövqeyinə bu hərəkətdən heç bir ziyan gəlməz. Amma məlikzadə bu səhvə yol verməsindən bu cür ayrılıq atəşinə düşdü. Daha heç bir yolla bu işi yoluna qoymaq mümkün deyildir. İndiki halda bütün dünya şahları sənə qovuşmaq arzusundadırlar.

Məlikə dedi:

-Bu diyarda bizə tay olan adam yoxdur. Bu sözü necə başa düşək?

Xidmətçi dedi:

-Mənim ağlıma bir iş gəlir. Əgər məlikə söyləmək şərəfini buyursa deyərəm.

Məlikə dedi:

-Mərhəmətli adamların işarətindən imtina etmək olmaz. Hər nə ki ağlında var, söylə eşidək.

Xidmətçi dedi:

-O vaxt ki Xarəzm şahzadəsi bu diyardan dönüb öz yerinə getdi, həmişə özünün burada çox hörmət-izzət gördüyünü, sənin möhtəşəm görünüşünü və mülkünü hekayət edərdi. Belə görünürdü ki, sənin vüsalına yetişməyə böyük rəğbətlə hazırdır. Həqiqətən də Xarəzm şahzadəsi bir ağıllı cavan, gözəl üzlü, yaraşıq və incəlikdə əvəzsiz, mərifət sahibi bir oğlandır. Əgər onun vüsalına məlikənin rəğbəti olarsa, bir yol fikirləşərəm ki, qəlb sakitliyi ilə məlikə rahat ola. Xarəzm şahının vəziri hələ buradadır. Əgər icazə versən ona xəbər verəm, bir neçə yel qanadlı atlar hazırlatsın. Vəzirlə mən də məlikənin xidmətində bir gecə çıxıb o tərəfə gedək. Nə vaxt ki o taxtgaha yetişdik, həm sənin hökmün o diyarda rəvan olar, həm də biz sənin sayəndə rahat olarıq.

Xidmətçi o qızın könlünü iztiraba salıb, hiylə toruna çəkdi. Sonra da tez vəzirin yanına gedib bütün olan hadisələri, boşanma məsələsini və qızdan razılıq aldığını xəbər verdi. Getmək haqqında müəyyən bir

vaxt təyin eylədilər. Xidmətçi yenə qızın yanına qayıdıb, öz işində oldu.

Vəzir öz arvadını yanına çağırıb dedi:

-Bütün əşyalarımızı hazırla. Ta ki filan vaxta qədər hər şeyin qaydasında olsun. Öz vilayətimizə getməliyik.

Qadın dedi:

-Bu diyara gəlib getməkdən mən heç bir şey anlamadım. Bu nə sirdir ki, sən onu məndən gizli saxlayırsan?

Qadın acıq edib vəzirə əziyyət etməyə başladı və hətta onunla məhəbbətini kəsmək istədi. Axırda vəzir dözməyib həqiqətləri necə vardı, hamısını qadına açıb söylədi. Qızı aldadıb aparacağını təfsilatı ilə izah eylədi və bərk-bərk tapşırdı ki, bu sirri möhkəm saxla. Çünki, bu sirr açılarsa, bizi ölüm gözləyir.

Vəzirin olduğu ev şahın şərabdarının evi ilə qonşu idi. Buna görə də vəzirin qadını ilə şərabdarın qadını çox yaxın dost olmuşdular. O saat onun yanına gedib dedi ki, vidalaşmaq üçün gəldim. Bizim burada işimiz tamam oldu. Əgər sirr saxlaya bilirsənsə, sənə deyərəm. Əhdi-peyman etdilər ki, bu sirr ikimizin arasında qalacaq. Bu əhdə görə vəzirin qadını bütün sirri ona söylədi və vidalaşaraq bir-biri ilə görüşüb ayrıldılar.

Şərabdar evinə gəlib gördü ki arvadı ağlayır. Ondan bu ağlamağının səbəbini soruşdu. Qadın cavab

verib dedi ki, ağlamağıma səbəb o dost olduğum qadının həsrətidir ki, onlar köçüb gedirlər.

Şərabdar dedi:

-Hələ onlara şah icazə verməyib. Onlar üçün hədiyyələr də hazırlatmayıb. Bu necə sözdür ki söyləyirsən?

Qadın dedi:

-Onların işləri tamam olub. Nə üçün gözləsinlər?

Şərabdar soruşdu ki, necə tamam olub?

Qadın dedi:

-Əgər bu sirri açmasan, sənə bir-bir izah edərəm. Sonra da eşitdiyi sirri bütünlüklə şərabdara söylədi. Şərabdar dərhal gedib bütün əhvalatı məlikin önündə bəyan eylədi. Məlik dedi:

-Əgər bu işin içində məkr və hiylə olmasa onlar inkar edəcəklər. Mən də sübut eyləməkdə aciz olacağam. O yolun üstünə qoşun göndərib gözlədək. İş doğru olarsa, onları tutub gətirsinlər. O zaman inkar edə bilməyəcəklər.

Odur ki, elə də etdilər. Xarəzm vəziri də bir gecə şahın qızını da götürüb çıxıb getdilər. Şahın göndərdiyi qoşun bunları yolda tutub gətirdi. Elə ki şah bunları gördü, qızı həbs edib, vəzirlə xidmətçini məhkəməyə göndərdi. Biçarə vəzir işi tamam edib, məqsədi hasil olmuş ikən, sirri arvada söylədiyi üçün həm vəzirlikdən oldu, həm də şirin canını bada verdi.

Məhcubə dedi:

-Çox gözəl gətirdin bu əcaib hekayəti və qəribə məsəli. Həmən o arşınmalçının hekayətinə bənzəyir ki, arvada sir verdiyi üçün neçə bəlaya kiriftar olub, axırda sədaqəti səbəbiylə xilas oldu.

Əcubə dedi:

-Necədir o hekayət?

Məhcubə dedi:

## Qadından sirr saxlamaq barədə Məhcubənin hekayəti

Hekayət söyləyənlər belə rəvayət etmişlər ki, var-dövlətli bir arşınmalçı bəzzaz var idi. Onda bir ləl vardı ki, çəkisi əlli misqal olardı. Bu ləlin xoş rəngi və parlaqlığı görəni valeh edirdi. Ləl ətrafa alov kimi işıq saçırdı. Onun belə parlaq görünüşü uzaqdan baxana Mərrixi[29] xatırladırdı. Arşınmalçı onun xoş rənginə mail olub, həmişə ona baxmaqdan ləzzət alırdı.

Bir gün təsadüfən ölkənin padşahına o qiymətli inci haqqında xəbər verdilər. Padşah bəzzazı yanına çağırtdırıb ləlin saraya gətirilməsini tələb etdi. Bəzzaz çarəsiz qalıb ləli padşaha gətirdi.

Padşah buyurdu:

-Bunun qiymətini söylə, çünki bu cövhər padşaha layiqdir.

---

[29] Mərrix – Mars planetinin qədim adı. Klassik ədəbiyyatda həm də qırmızı işıq rəmzi

Ancaq bəzzaz onu satmağa etiraz eylədi. Bəzzazı nə qədər razı salmağa çalışdılarsa da, mümkün olmadı. Ləl də padşahın çox xoşuna gəlmişdi. Bəzzaz yola gəlməyəndə şah ədaləti bir kənara qoyub, zorla ləli ondan aldı.

Şahın xüsusi hərəmində bir kənizi var idi. Gözəllikdə tayı-bərabəri yox idi. Elə bil ki Firdövs[30] cənnətinin hurisi, ürəkləri məftun edən gözəl qıvrım saçları müşk ətirli, qəmzəsi can alan idi. O, incəlikdə əvəzsiz, zəriflikdə yeganə idi. Onun bu gözəlliyi şahın çox xoşuna gəlirdi. O, bu ləli həmin kənizə hədiyyə edib buyurdu ki, başqa cəvahirlərlə birlikdə boynundan asıb, özünü onunla bəzəsin. Elə ki şah ona baxanda, bu gözəllikdən ləzzət alsın. Kəniz əmrə boyun əyib, şahın istədiyi kimi o ləli başqa cəvahiratla birlikdə boynundan asdı.

Bəzzaz bildi ki o ləli padşah kənizə verdi. Biçarə bəzzaz hər gecə-gündüz o ləlin sevdası ilə oturub-dururdu.

Bəzzazın bir qoca qarı tanışı var idi. Qarı yaman çoxbilmiş idi. Onun başından çox hadisələr gəlib keçmişdi. Həyatı boyunca çox təcrübələr eyləmiş, çox sirdən də agah olmuşdu. Bəzzaz o qarını özünə ana

---

[30] Firdövs – İslam dinində deyildiyinə görə, cənnətin ən üst təbəqəsi

hesab eyləyirdi. Gedib başına gələn əhvalatı qarıya söylədi. Axırda da ah-zar edib dedi:

-Sənin bacarıq və qabiliyyətinə tam inanıram. Mehriban analığınla lütf eylə, bir hiylə fikirləş ki, o ləl yenə mənim əlimə qayıtsin. Bu işi yerinə yetirsən çox savab qazanarsan, həm də analıq borcunu yerinə yetirmiş olarsan.

Qarı dedi:

-Bu asan məsələdir. Sən könlündən qəmi çıxart və bax gör ki, yaxın zamanda o kənizi o ləl ilə birlikdə sənin otağına necə gətirəcəyəm. İcazə vermərəm ki yaramaz casuslar fələk olsalar belə, hətta min gözləri də olsa, o sirri bilələr.

Qarı o saat hiyləgərlik libasını geyinib, falçılar kimi padşahın sarayına gəldi. Qapıda durub tədbirlə və gözəl sözlərlə oradakıları özünə məftun edərək, şahın xüsusi hərəmində olan pərdadarlara mehribanlıqla yol tapdı, onlarla yaxınlıq əldə eylədi. Axır fürsət tapıb, şahın xüsusi hərəminə girib, kənizi xəlvətə çəkdi. Onun sağ-soluna baxıb, çox ehtiyatla dedi:

-Allah saxlasın. Bəd gözlər sənin mübarək üzündən uzaq olsun. Bu zərif yaradılışa və incə üzə min əhsən ki, Haq-Təala sənə vermiş və hər zinətə sənin vücudunu layiq görmüşdür. Bu gün filan bəzzazın evində idim. Onun arvadına ulduzların hökmü ilə fal

açırdım. Bəzzazın özü səfərdə imiş. Xita[31] tərəflərdən üç növ qızılı parça göndərib ki, çox gözəl toxunmuş və yaqutla, dürrlə bəzədilmişdir. Sənin bu qəşəng qədd-qamətinə layiq və gözəlliyinə münasibdir. Əgər qədəmlərinə zəhmət verib, gizlicə o bəzzazın evinə getsən, həmin parçaları sənə satın alaram. Onlar ki sənin əlinə keçə, şahın sənin vüsalına həvəsi daha artıq olacaq. O biri gözəllərdən sevgi və məhəbbətini kəsib, bütün həvəs və istəyini ancaq sənə bağlayacaq.

Bu yolla daha bir neçə ovsun oxuyub kənizi həvəsləndirdi və məftun eylədi. Özü isə o saat bəzzazın yanına gəldi və dedi:

-Filan günə vədə verdi ki, o günə hazır ol. Elə ki kəniz o hiylənin səbəbiylə tora düşdü, qeyd-şərtsiz və tərəddüdsüz onun sağlığından keçib, ləli o biri cəvahirlərlə alarsan. Dəvə gördünmü? – deyənə də, izindən də xəbərim yoxdur, - deyərsən.

Bəzzaz bu deyilənlərdən çox şad oldu. Nəhayət, deyildiyi kimi, bütün hazırlıqlar görüldü. Lakin o, bu hiylənin sonrasından çox narahat oldu. Öz-özünə fikirləşdi ki, bu əməli yerinə yetirməyi qadınından gizlətmək olmaz. Çünki, bu iş mənim evimdə olacaq. Ona görə də onu da bu sirrdən agah etməliyəm – deyib, sevinc içərisində arvadının otağına girdi. Arvadı soruşdu ki, bu sevinc və şadlığına səbəb nədir?

---

[31] Xita – şərq ölkələrinin birində yaşayış yeri

Bəzzaz cavab verib dedi:

-Allah-Təala əziz adının bol mərhəməti ilə bizi qazanc çətinliyinin əziyyətindən xilas etdi. Filan ortağım bizə bir kimyagər qulam göndərir ki, əlindən bir saatda min misqal qara misi xalis qızıla döndərmək gəlir. Amma ay arvad, yadında bərk saxla, bu sirri heç kimə demək olmaz. Yoxsa zülmkar padşah qəsd eyləyib ləli zorla aldğı kimi, qulamı da əlimizdən alar.

Bu işin üstündən bir neçə gün keçdi. Bir gün bəzzazın arvadı bir yaxının toyuna getdi. Bu toy xanlar yığnağı və sultan qadınlarının məclisi idi. Bəzzazın arvadı kimyagər qulamın qüruru ilə şah və vəzirin qızlarının baş tərəfinə keçib oturdu. Onun bu hərəkətini tənqid edib, ədəbsizliyini üzünə vurdular. Onun bu məclisdəki hərəkətlərini çox hörmətsiz qarşı-ladılar. Qadın qəzəbin hiddətindən səsi gəldiyi qədər çıgırıb dedi ki, kimyagər qulamın vasitəsilə mənim ərimin bir günlük qazancı min şah və vəzirin sərmayəsi qədərdir. Onların qızları mənim kimi adamın üzərinə çıxması və onlara məndən üstün fərq qoyulması düzgün deyildir.

Bu söz qulaqlara düşüb, xalq arasında tez yayıldı. Axırda gedib şaha da çatdı. Dərhal bəzzazı tutub saraya gətirmək əmr olundu. O qulam haqqında sorğu-sual etdilər. Bəzzaz iztiraba düşüb nə qədər inkar etdi, and içdi, inanmadılar. Axırda məcbur olub evi axtardılar. Heç bir şey tapa bilmədilər. Şah o işdən məyus olub, bəzzazı azad etdirdi.

Kim ki arvada sirr versə, başını yelə verər. Bəzzaz da arvadın sir saxlamağına etimad etdiyi səbəbdən günahsız yerə neçə zəhər şərbəti içdi.

Məhcubə dedi:

-Bu məsəli onun üçün gətirdim ki, ta fərasətli adamlar yanında bilinə ki, arvadlardan sirri gizli saxlamaq Allahdan əmrdir və bunlara sirr açmaq tamam ağılsız bir hərəkət və bəyənilməyən pis işdir. Haq-Təala bütün xalqı bunların pis əqidə və düşüncələrindən böyük mərhəməti ilə qoruya, ondan uzaq eyləyə.

## DOQQUZUNCU BAB
## Pis adamların söhbətlərindən uzaqlaşmaq haqqında

Doqquzuncu gün ki aləmləri bəzəyən günəş, yəni dörd fələk taxtının hökmdarı özünə məxsus üfüq hərəmindən üz göstərib ulduzların məclisini dağıtdi, şah Səmmah səltənət taxtında oturub şahlığa lazım olan işlərə əməl edərək, rəiyyət məsələlərini ədalətlə icra etdikdən sonra isirahət otağına gəlib Əcubəni kənara çəkib xalq ilə söhbət və müzakirə əhvalından soruşdu və dedi:

-O kimdir ki, məliklər xidmətinə yaxın ola və o kimdir ki, padşahların söhbətlərindən uzaqlaşdırıla?

Əcubə dedi:

-Şahımızın ehtişamı artıq olsun. Məliklər söhbətinə layiq olan bir tayfadır ki, əsil-nəsəbdə və ləyaqətdə elm şərəfi ilə şərəflənmiş ola və onların söhbətlərindən könüllərə səfa gələ. Həm də onlar duz-çörək haqqını gözləyəndirlər. Bu cür adamların səmimi görüşünə mail olub, onlara rəğbət eyləmək gərəkdir. Bir tayfa da var ki, cahil və yaramaz, alçaq və əsilsiz olarlar. Onlardan uzaq durmaq və əlaqə göstərməmək lazımdır. Çünki, onların söhbətlərindən pis şeylər törəyər və daxili gözəllikləri olmaz. Onlarda inam çatışmamazlığından başqa heç nə müşahidə olunmaz. Necə ki o məlikzadə alçaq və yaramaz dostunun

söhbətinə görə hörmətdən düşüb, pis xasiyyətli zərgərin tovlamasından ölüm sərhəddinə qədər gəldi.

Məlik Səmmah soruşdu ki, necədir o hekayət?

Əcubə dedi:

## Pis adamlardan uzaqlaşmaq barədə Əcubənin hekayəti

Hekayət söyləyənlər belə nəql etmişlərdir ki, Fars bölgəsində bir məlik var idi. Onun da bir oğlu vardı ki, üzünün gözəlliyində tam nöqsansız, şirinlik və zəriflikdə əvəzsiz, abır-həya əlamətləri alnının parlaqlığında görünən, ölkənin bəzəyi olduğu üz gözəlliyinin aydın-lığında müşahidə olunurdu. Onun arxasının sağ tərəfində bir qara xal peyda olmuşdu. Məlik onu görüb dedi:

-Hikmət kitablarında yazılmışdır ki, hər kimdə bunun kimi bir nişan olsa, ona çox xətərlər toxunar və çox təhlükələrə düşər. Amma axırda məlik keçmiş zamanları da düşünüb yadına saldı ki, Allah-Təala belə buyurur: "Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr!"[32]

Elə ki şahzadənin çağalıq müddəti keçib getdi, dili açıldı və sevimli şəkildə danışmağa başladı.

Padşahın evinin qonşuluğunda bir pinəçi var idi. Hər gecə-gündüz padşahın hədiyyələri ilə faydalanardı. Padşahın hərəmxanasından ona hər gün sifarişlər gəlir,

---

[32] İnşirah surəsi - 6

o da onların ayaqqabılarını təmir edirdi. Bu vəzifə onun əlində idi. Qonşuluq haqqına əməl edib şah ona belə bir hörmət və ehtiramı layiq görmüşdü.

Şahzadə hər gün adəti üzrə pinəçinin hücrəsinə gəlib, onunla söhbət edərdi.

Bir gün padşah pinəçini öz hüzuruna çağırdı. Ona çox hörmət və ehtiram edib, növbənöv hədiyyələr lütf eylədi. Kasıb olduğu üçün mərhəmətlə ona təsəlli verdi və dedi:

-Yaxınlıq və qonşuluq haqqına əməl etmək çox gözəl işdir. Sən bizim dostumuz və qonşumuzsan. Bu ciyərparam səninlə səmimi dost olmuşdur. Mən də istəyirəm ki, sən buna ünsiyyət edəsən və dost kimi həmsöhbət olasan, onu çətin vəziyyətlərə düşməkdən saxlayasan. Mən də səni hər cür çətinliklərdən qoruyaram.

Pinəçi şaha dua oxuyub, o işi canu-könüldən qəbul eylədi.

Şahzadə başında daş-qaşla bəzədilmiş tac, əynində bahalı libaslar, ləl-cəvahirlə süslənmiş sırğalar qulağında hər gün pinəçinin hücrəsinə gələrdi. Pinəçi bir neçə gün xidmət şərtlərini layiqincə yerinə yetirdi. Axırda xəsislik əlamətləri daxilində özünü göstərdi. Rəhimsizcə günaha girib, hiylə və məkrə baş vurub fikir etdi ki, şahzadə başdan ayağa var-dövlət və bol nemətlə hazırlanmışdır. Şahzadənin özü də çox gözəl və arzu olunandır. Yaxşısı budur ki, bir yol ilə bu

qiymətli şeyləri ondan alım və oğlanı da bir uzaq şəhərə aparıb, baha qiymətə satam. Qalan ömrümü keflə başa vuram.

Beləliklə o pis niyyətli, alçaq və bədbəxt şeytana uyub, hərisliklə içindəki fitnə atəşini alovlandırdı. Ölkənin yeganə şahzadəsini yad şəhərlərə aparıb satdı. Bir bəzirgan onu satın aldı.

Elə ki padşah oğlunun yoxa çıxdığından xəbərdar oldu, sinəsini dərd ilə dağlayıb, min cür nalə və fəryad qopardı. Axırda Yaqub pey-ğəmbər kimi səbr məqamına keçib sakitləşdi.

Bu tərəfdən də şahzadə bəzirganın hüzurunda böyüyüb, boya-başa çatdı. Bir neçə ildən sonra qəddü-qamət çəkib, həddi-büluğa yetişdi.

Bəzirgan çox ağıllı və elmli bir adam idi. Öz-özünə fikir edib dedi ki, bundan sonra bu qulamı burada saxlamaq bizə günahdır. Çünki, evdə gizli saxlanarsa, bunun varlığından heç bir fayda əmələ gəlməz. Dünya görüşü olmayan adamdan nə mənfəət gözlənər? Yox, əgər çöldə-bayırda olarsa, çox fitnələr olacaq. Çünki bu oğlan can alan gözəlliyi ilə əvəzsizdir. Bu qədər gözəllikdə tayı-bərabəri yoxdur. Savab iş odur ki, bunu bir sədaqətli adamla Fars şahı həzrətlərinə hədiyyə göndərəm.  Yəqindir ki, şah bu qulamın qiymətini neçə qat artıqlaması ilə bizə ödəyər.

Bəzirgan özünün bu fikrini bəyənib, şahzadəni neçə hədiyyələrlə birlikdə Fars şahına göndərdi. Şah

onun öz oğlu olduğundan xəbərsiz, qəbul etdikdən sonra xüsusi hərəmində olan qulamların içinə qatdılar. Hər gün şahın nəzarəti altında oldu. Belə ki, az vaxtda yüksək məqamlara çatıb, qeyri-adi hərəkətləri ilə tay-tuşlarından seçilərək şahın xidmətində yaxınlıq mərtəbəsinə çatdı.

Şahın bir zərgəri var idi ki, həmişə şahın xəzinəsinə xidmət edirdi. Qızıl və ləl-cəvahir işlərini o görərdi. Şahzadə hər gün gedib onun yanında sənətinə tamaşa edərdi. Həddən artıq yaxınlıq səbəbindən zərgər ilə mehriban dost oldu. Elə ki şahın xidmətindən azad olurdu, onun yanına gəlib söhbət edərdilər.

Bu zərgər xain həmsöhbət və uyğunsuz həmməclis idi. Qulamın o dərəcədə mülayim-liyini görüb xam xəyala düşdü və çirkin yolla xəyanətə üz tutub sərvət qazanmaq istədi. Fikir eylədi ki, mənim yanımda olan bu qədər cəvahir ki, şahın möhrü ilə nişanlanmışdır. Əgər bu qulamı aldadıb şahın üzüyünü gətirdə bilsəm, çoxlu xəzinə qazana bilərəm. O qəddar alçaq bu növ ilə məkri qarışdırıb şahzadəyə dedi:

-Hər gün bu sənətkara lütf göstərib bizi hüzur şərəfi ilə şərəfləndirirsən. Bizə etdiyin bu alicənablıq lütfünün əvəzində istəyirəm ki, mən də əldən gəldiyi qədər mükafat edəm. Necə ki demişlər; "Yaxşılıq əvəzsiz qalmaz!" Amma bu işdə çalışmaq tərəfini də əldən qoymaq olmaz. Şahın mübarək üzüyündə bir gözəl surət nəqşi vardır. Hər kimin ki elə bir üzük əlinə

keçsə, hakimiyyət onun əlində olar, dünya padşahlığı onun əlində cəmlənər. Hər nə vaxt ki padşah yorğun halda yuxuya getdi, mübarək barma-ğından üzüyü çıxarıb mənə gətirərsən. Mən də dərhal o nəqşin surətini sənin üçün başqa bir üzüyə həkk edərəm. Beləliklə, tez bir zamanda səltənət taxtı sənin bu gözəl camalın ilə bəzənər. Amma o şərt ilə ki, vəzirlik işlərini mənə verər-sən.

Bu yalan hiylə ilə şahzadəni aldatdı.

Elə ki axşam vaxtı oldu, qulam fürsət tapıb şahın yataq otağına gəldi. Tam cürətlə şahın barmağına əl uzadıb yavaş-yavaş üzüyü çıxartmağa başladı. Şah dərhal oyanıb qulamı tutdu və soruşdu ki, bu cürəti nə üçün etdin? Sənin bu üzüyə nə ehtiyacın var idi?

Şahzadə tutduğu bu səhv işin qarşısında aciz qaldı. Şahın qəzəb atəşi alovlanıb, qəzəblə onun üzərinə düşdü. O saat cəlladı hüzuruna çağırıb, onun qətlinə əmr verdi. Elə ki qulamın geyindiyi paltarı çıxartdılar, şahın gözü o xala sataşdı. Özünü o oğlanın üstünə atıb huşunu itirdi. Cəlladlar və başqa xidmətçilər şahın bu işinə heyran oldular və mat qaldılar.

Elə ki şah özünə gəldi, o doğma oğlunu əzizləməyə başlayıb dedi:

-Ey canımın dünyası, ey həsrətində olduğum əzizim, ey gözəl sevgili oğlum, sən mənim gözümün işığı və ömrümün meyvəsisən. Alçaq pinəçinin hiyləsi bizi bu ayrılığa saldı.

Oğlan da şahdan üzrlər dilədi ki, o pis yaramaz zərgərin dostluğu məni bu ədəbsizliyə vadar etdi.

Şah zərgəri çağırıb onun canına aman verib, yüngül cəzalandırdı və dedi:

-Baxmayaraq ki bu iş bağışlanmalı deyil-dir. Amma bu şərəfli oğluma qovuşma sevinci ilə ölümə hökm etmək insaf yolu deyildir. Şahzadəyə də nəsihətlər edib dedi:

-Diqqətli ol ki, gələcək zamanlarda yaramaz adamların söhbətlərindən uzaq olasan. Ta ki, bunun kimi müxtəlif bəlalı işlərə mübtəla olmayasan.

Məhcubə dedi:

-Çox gözəl maraqlı gətirdin bu incə hekayəti və bu şərəfli məsəli. O vəzir oğlunun hekayəti də bunun kimidir ki, oğul həccama söhbət yoldaşı olduğu səbəbdən mal-dövlətdən uzaq oldu.

Əcubə soruşdu ki, necədir o hekayət?

Məhcubə dedi:

## Pis adamların söhbətini tərk eləmək barədə Məhcubənin hekayəti

Hekayət söyləyənlər belə rəvayət etmişlər ki, bir vəzirin iki oğlu var idi. Birinin adı Kafi, o birisinin adı Vafi idi. Alicənablıq nişanələri və söz dinləmə şərəfi hər birinin yaradılış xüsusiyyətlərində bəlli idi. Düzgün əxlaqlı olmaq və elm öyrənmək üçün vəzir onları məktəbə göndərdi. Bu yolda hədiyyə qapılarını açıb, hörmət və ehtiramda bir dəqiqə də olsun vaxt itirmədi.

Ta ki bunlar oxuyub, elm və hünər sahibi olmağı çox istəsinlər.

Kafi böyük qardaş idi. Çox tələbkar və tam qeyrətlə müzakirələrdə iştirak edib, elmləri öyrənməyə məşğul oldu. Bilik yarışlarına və elm öyrənməyə həvəs göstərib, alimlik dərəcəsinə çatmağı özünə məqsəd eyləmişdi. Belə ki, az zamanda bütün elmlərin sirlərinə və gözəl xasiyyətlərə sahib oldu. Kiçik qardaşı məktəbdə bir həccamın oğlunu özünə dost eyləyib, hünər qazanmaq üçün elm öyrənməkdən uzaqlaşıb, faydasız əyləncələrə məşğul oldu. O həccamın oğlu ilə elə mehriban oldu ki, bir saat ondan ayrı olmazdı. Heç vaxt ondan yaxşılıqlarını və hörmətini əsirgəməzdi. O da dostluq haqqını yerinə yetirib, ona nəsihətlər edərdi ki, bu dünyada oxumağın bir faydası yoxdur. Bu hədər bir əziyyətdir. Ömrün ləzzəti cavanlıqdadır. Bu vaxtı yeyib-içib kef etmək və nəfsimizi öldürməklə keçirmək lazımdır. Şükür Allaha, var-dövlətin çox. Gəl yeyək-içək, ömrümüzü zövqü-səfa ilə keçirək. – deyib, bu yolla onu doğru yoldan azdırdı. Axırda Vafi elm öyrənməyi tərk edib, şeytanın təhrikiylə nəfsinin istəklərinə tabe oldu.

Bu aralarda vəzir bu bəla mənzili və möhnət çırağından uzaqlaşıb, dövlətxana işlərindən aralanaraq səyahət eyləmək fikrinə düşdü. Elə ki vəzirin oğlanları da hazırlıq şərtlərini yerinə yetirib, məktəbi başa vurdular, şah onları yanına gətirib dedi:

-Bu vəzirlik işi sizin haqqınızdır. Sizlərdən hər hansınız zəka və bilikdə üstündürsə, bu vəzirlik xidmətinə onu təyin edim.

Odur ki onları yoxlayıb şahlıq fərasəti ilə gördü ki, Kafi çox dərrakəlidir və yaxşı oxumuşdur. Bu vəzifəyə o layiqdir. Ona görə də bir çox hədiyyələrlə vəzirlik xələtini ona verib, bütün vəzirlik işlərini və xəzinənin möhürünü də Kafiyə təslim eylədi. Vafi kor-peşman o yığıncaqdan dönüb getdi. Atadan qalma miras hissəsini də alıb o dostu olan bədbəxt ilə kefə və oyunlarla məşğul olmağa başladı. Axırda həcca-mın oğluna qoşulub əlindəki miras malını başlarına sovurub yox etdilər. Sonda Vafi dərdli dərvişlər kimi kasıblığa və yoxsulluğa mübtəla oldu.

Nəhayət, Kafi onun yoxsulluğundan xəbərdar oldu, o saat qardaşlıq hissi hərəkətə keçdi və insaf dənizi cuşə gəldi. Qardaşını çox hörmətlə öz sarayına gətirib var-dövlətinə nəzarətçi təyin eylədi. Vafi bir neçə vaxt bolluq və naz-nemət içində yaşadı. Bir gün həccamın oğlu hiyləgərliklə köhnə dostunun yanına gəlib dedi:

-Bu qardaşınla sən həqiqətən də bir nəsilə aidsiniz. Sən özünü bunun kimi bir adamın əli altında saxlayırsan. Bu, qeyrətli və mərd adam-ların yanında çox çirkin və qəbul edilməzdir. Bu cürbəcür yaltaqlığı ki qardaşın sənə göstərir, sənə rəhmi gəldiyindən deyildir. Bəlkə də ehtiyat üçün belə edir. Qorxur ki,

birdən sən üzə durarsan və vəzirlik işində onunla ortaq olmağı tələb edərsən. Əgər icazə versən bir yol fikirləşərəm ki, şahın ona acığı tutub öldürə və onun gördüyü bütün işlər sənə verilə və sən bu minnət əzabından xilas olasan. İş belədir ki, sən onun kefinin yaxşı vaxtında barmağındakı üzüyü istəyib, onu alıb mənə gətirərsən. Mən də o üzük vasitəsi ilə elə bir əməl edərəm ki, səni muradına çatdıraram.

Ağılsız Vafi eşitdiyi bu sözlərin nə qədər yaramaz və alçaqlıq olduğunun mənasını düşünmədən məğrurlandı və gələcəkdə özünün yüksək kürsülərdə olduğunu xəyal edərək, həmin üzüyü qardaşından alıb həccamın oğluna verdi. O məkrli hiyləgər, vəzirin üzüyünü bir arvada verib, arvadı məlikənin hüzuruna göndərdi və dedi:

-Məlikənin yanına get və de ki, bu üzüyü satıram. Amma istəyirəm ki, sənin üzüyünlə dəyişək.

Arvad elə ki məlikənin hüzuruna getdi, ləl üzüyü ona göstərdi və özünü elə apardı ki, guya bu dəllaldır.

Şahın arvadı belə şeylərə çox həvəsli idi. Elə ki, o üzüyü gördü, ondan xoşu gəlib almaq istədi.

Dəllal arvad dedi:

-Bu ləl üzüyü sənin barmağındakı üzüklə dəyişək. Mənim bu ləl üzüyüm qiymətdə iki sənin üzüyünün qiyməti qədərdir. Ona görə də bu üzük sənin kimi şah arvadına layiqdir. Mən isə bunu satıram. İstəyirəm ki, ləyaqətsiz adama qismət olmasın.

Dəllal arvad bu cür hiylə və məkrlə məlikəni aldatdı. Məlikə də elə düşündü ki, bu ticarətdə daha çox fayda vardır. Vəzirin üzüyünü alıb, öz üzüyünü ona əvəz verdi. Yazıq məlikənin bu işin sirrindən xəbəri yox idi. Dəllal arvad sevincək oradan çıxıb düz həccamın oğlunun yanına gəldi. Həccamın oğlu o üzüyü Vafiyə verib dedi:

-Bu saat Kafinin yanına get. Ona yaxınlaşıb bu üzüyü guya hədiyyə kimi ona ver və de ki, bu üzükdə elə bir xüsusiyyət var ki, əgər şahın gözü buna sataşsa sənin hörmətin onun yanında birə beş artacaq.

Bədbəxt Vafi o üzüyü alıb vəzirin xid-mətinə getdi və həmin sözləri söyləyib, o üzüyü Kafiyə verdi. Biçarə Kafi də olan işlərdən xəbərsiz, həmin üzüyü barmağına keçirib şahın hüzuruna getdi. Şahın gözü qəfildən həmin üzüyə sataşdı. Öz arvadının üzüyünü vəzirin barmağında görüb, o saat özündən getdi. Huşu özünə gəldikdə barigahdan qalxıb hərəmxanaya doğru getdi. Vəziyyəti aydınlaşdırmaq üçün arvadını yanına çağırıb dedi:

-Əlini irəli tut!

Arvad tərəddüdsüz əlini padşahın önünə uzatdı. Padşah vəzirin üzüyünü arvadının barmağında gördü. Qeyrətindən o qədər hiddət-ləndi ki, bir müddət quruyub yerində qaldı. Qəzəbinin çoxluğundan istədi ki, yaralanmış sinəsinə dərman əvəzi olaraq onu öldürə. Amma bir qədər fikirləşib sakitləşdi və öz-özünə dedi

ki, bu hadisənin nə cür baş verdiyinin içinə ağıllı bir tədbirlə yetmək olar. Bu sirri elə açmaq lazımdır ki, günahsız adamlar bu siyasətdə günahkar olmayalar. Odur ki arvadından soruşdu:

-Bu ləl üzüyü sənə kim bağışladı?

Arvad sədaqətlə sözə başlayıb dedi:

-Bunu mənə bir dəllal arvad gətirdi. İkimizin də razılığımıza əsasən öz üzüyümlə dəyişdim.

Padşah arvadının bu sözlərini qəbul edib, vəziri hərəmxanasına gətirtdi və soruşdu:

-Bu üzüyü hardan aldın?

Vəzir dedi:

-Bunu mənə qardaşım hədiyyə gətirdi.

Padşah dərhal üzüyü vəzirdən aldı və onu həbs edib əmr etdi, vəzirin qardaşını gətirdilər. Padşah Vafiyə diqqətlə baxıb tam mülayimliklə arvadının nişan üzüyünü ona göstərib dedi:

-Bu üzüyü heç bir yerdə gördüyün varmı?

Vafi o saat cavab verdi ki, bu üzük məlikənindir. Şah dedi:

-Elədir! Amma sən ki, mənim arvadıma yaxın deyilsən. Nədən bildin ki bu, bizim arvadın şəxsi malıdır?

Bu açıq dəlilin cavabında aciz olub, Vafinin nitqi bağlandı.

Padşah dedi:

-Əgər doğrusunu söyləsən, mənim hökmü-siyasətimdən xilas olarsan. Yoxsa ki, yalan danışdın, çox əziyyətlərə məruz qalacaqsan.

Bu sözdən Vafi çox qorxdu və günahını boynuna alıb dedi:

-Doğrudur, bu ədalətsizliyə mən səbəb oldum. Amma məni bu tora həccamın oğlu saldı.

Şah buyurdu, vəziri yüksək dərəcəylə taxtına keçirdilər. Vafini də lüt soyundurub, şəhərdən qovdular. Həccamın oğlunu da bir çox əzab-əziyyətlərlə dara çəkdilər.

Məhcubə dedi:

-Bu qəribə məsəli və əcaib hekayəti onun üçün gətirdim ki, ağıllı adamlar bu cür işlərin mənasında ehtiyatlı olub, yaxınlıq ülfətini bədəsil adamlardan uzaq edələr.

Haq-Təala bütün xalqı şər söhbətlərdən saxlasın. Bu qəribə hekayətləri və əcaib təmsil-ləri onun üçün söylədik ki, bu kitabı oxuyanlar və dinləyənlər bundan nəsihət alıb, gözəl əxlaqa sahib olalar. Pis əxlaqdan həmişə çəkinələr. Aləmlərin sahibi olan Allahu-Təala o adamı bu sifətlə xoşbəxt eyliyə ki, bu kitabı oxuduqda müəllifini və katibini xeyir dualarla yada salalar.

Kitabın sonu

Hər kim yazdı bu kitabı bit-təmam,
Biövnillah və həsünət-tövfiq
Rəhmət eyliyə ona Rəbbül-ənam.

## İstifadə olunmuş ədəbiyyat:


1. DEDE KORKUD KİTABI (Baskı: Özyurt Matbaacılık, Ankara – 2014)
2. Ərəb və fars sözləri lüğəti (Bakı, Yazıçı nəşriyyatı – 1985)
3. Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti (Bakı, "MAARİF" nəşriyyatı – 1981)
4. KUR`AN-I KERİM ve renkli kelime meali (SEDA YAYINLARI – Fatih – İSTANBUL – 2012)
5. QURANİ – KƏRİM (Bakı, Azərbaycan dilinə tərcümə, 8-ci nəşri – 2005)

## MÜNDƏRƏCAT

Ön söz əvəzi.......................................................
Əcubə və Məcubənin hekayəsi.......................
“Əcubə və Məcubə dastanının başlaması

**BİRİNCİ BAB**

Ədalət və insafın sifətləri.......................................
Ədalət və insaf haqqında Əcubənin hekayəti.............
Ədalət və insaf haqqında Məcubənin hekayəti..............

**İKİNCİ BAB**

Mülayimlik və ciddiliyin sifətləri.........................
Ədalət və insaf haqqında Əcubənin hekayəti
Ədalət və insaf haqqında Məcubənin hekayəti

**ÜÇÜNCÜ BAB**

Araşdırma və yoxlamadan sonra siyasətdə oturma......
Araşdırmadan sonra siyasətin bəyanı barədə Əcubənin hekayəti..............................................................
Araşdırmadan sonra siyasət barədə Məcubənin hekayəti

**DÖRDÜNCÜ BAB**

İgidlik və sözdən dönməmənin mədhi.................
İgidlik barədə Əcubənin hekayəti...............................
İgilik barədə Məcubənin hekayəti..............................

**BEŞİNCİ BAB**
Səxavət və comərdliyin bəyanı.......................
Səxavət barədə Əcubənin hekayəti.................
Səxavət və bağışlanma barədə Məcubənin hekayəti

**ALTINCI BAB**
Əmanətin qorunması........................................
Əmanətin qorunması barədə Əcubənin hekayəti
Əmanətin qorunması barədə Məcubənin hekayəti

**YEDDINCI BAB**
Qısqanclıq və paxıllığın rədd edilməsi................
Paxıllığın məzəmməti barədə Əcubənin hekayəti
Paxıllığın məzəmməti barədə Məcubənin hekayəti

**SƏKKİZİNCİ BAB**
Qadınların sirr saxlaya bilməmələri haqqında
Qadınların sirr saxlamaq barədə Əcubənin hekayəti
Qadınların sirr saxlamaq barədə Məcubənin hekayəti

**DOQQUZUNCU BAB**
Pis adamların söhbətindən uzaqlaşmaq......................
Pis adamlardan uzaqlaşmaq barədə Əcubənin hekayəti
Pis adamlardan uzaqlaşmaq barədə Məcubənin hekayəti

İstifadə olunmuş ədəbiyyta............................................

# ƏCUBƏ VƏ MƏHCUBƏNİN HEKAYƏTLƏRİ

Çapa imsalanıb: 15.12.2016
Kağız formatı: 60x84 1/16
Həcmi: 12 ç.v.
Sayı: 300

Kitab “Yeni Poliqrafist” MMC-nin mətbəəsində hazır diopozitivlərdən çap olunmuşdur



**Əflatun Hüseynoğlu (Keşəli)**

1962-ci il, maya ayının 11-də Gürcüstanın Borçalı mahalının(dağ Borçalı) Başkeçid bölgəsinin Yırğançay kəndində anadan olmuşdur. Cənc yaşlarından dini dəyərlərə meyilli olmuş, Qurani-Kərimi oxumuşdur. Hal-hazırda Borçalının (aran Borçalı) Marneuli rayonunun Keşəli kəndində yaşayıb-yaradır. İndiyə kimi üç şeir kitabı işıq üzü görüb. Şeirləri və publisistik məqalələri dövrü mətbuatda müntəzəm çap olunur.